


# Bakıdan dünyaya yeni telekörpü

**Noyabr 4-dən etibarən qlobal xəbər və analitika sahəsində alternativ baxışı təqdim edən ANEWZ beynəlxalq televiziya kanalı fəaliyyətə başlayır.**

Həftənin 7 günü, 24 saatlıq efir yayımında aparıcı media platformalarında indiyədək o qədər də çox eşidilməyən və ya fərqli təqdim olunan - Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionunun səsi Bakıdan-dünyaya çatdırılacaq.

12-dən çox ölkədə təmsilçisi ilə 110-dan çox ölkəyə yayımlanan ANEWZ peyk, rəqəmsal, sosial media kanalları vasitəsi ilə izlənilə bilər.

*(ardı 2-ci səhifədə)*





Xalqın qəzeti!

# Xalq qəzeti

№ 244 (30648) 5 noyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Naxçıvana Ana vətəndən 2 yol

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ötən həftə ölkə parlamentindəki çıxışında vurğulayıb ki, Azərbaycan İrəvanın regional kommunikasiyaların açılması təklifini "yarı rəsmi" təsdiqləyib. Regional kommunikasiyalar dedikdə, əlbəttə ki, ilk növbədə, ağla Naxçıvana yol gəlir. O zaman erməni XİN rəhbəri məsələni bir qədər fərqli qoymalıdır. Bildirməlidir ki, Ermənistan Azərbaycanın sözügedən yolla bağlı şərtini qəbul edib. Həqiqətən, qəbul edibmi? Təfərrüatlar hələ məlum deyil.**



Azərbaycan Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd nəzarəti olmayan yolda israrlıdır. Rəsmi İrəvan məsələnin yolverilməzliyini bildirir, mövqeyini ərazi bütövlüyü və suverenliyin toxunulmazlığı kontekstində izah edir. Görəsən, indi nə isə dəyişibmi? Hər halda, Azərbaycanın öz mövqeyindən geri çəkilməyəcəyi birmənalıdır. Deməli, kompromis variant varsa, ona getməli olan tərəf Ermənistandır. O zaman ortaya daha bir sual çıxır: Rəsmi İrəvan güzəştə nə üçün getməlidir?

Məlumdur ki, Naxçıvana yol qlobal kommunikasiya habının tərkib hissəsidir. Təsəvvür edin, Çindən və Mərkəzi Asiyadan daşımalar onun vasitəsilə Xəzərdən, sonra Azərbaycan ərazisindən, o cümlədən, Naxçıvandan keçməklə Türkiyəyə, oradan isə Qərbə doğru yön alacaq. Azərbaycan Ermənistana sözügedən yola qoşulmağı təklif edib. Özü də təkcə indi və 44 günlük müharibədən sonra yox, daha əvvəl.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan paytaxtının COP29 hazırlığı son mərhələdə




Səhifə ⇨ 2

# Xəzərin dalğaları da işıq saçacaq



Səhifə ⇨ 10

## Paşinyanın "qaz" oyunu




**Rəsmi İrəvanın sülhə aparan yolun üzərində müxtəlif maneələr yaratması adət halını alıb. İki ölkə arasında, eləcə də bölgədə sabitliyə və əməkdaşlığa yaşıl işıq yandıracaq sülh sazişinin imzalanmasından yayınmaq, prosesi qeyri-müəyyən müddətə uzatmaq üçün Paşinyan iqtidarı çeşidli ideyalarla çıxış edir. Diqqəti əsas hədəfdən yayındırmağa xidmət edən belə "cəlbedici" təkliflərin sonuncusu Ermənistanın Azərbaycandan təbii qaz almağa hazır olması barədə idi. Baş nazirlə yanaşı, hayların bir sıra yüksək rütbəli rəsmiləri də gələcəkdə Azərbaycandan "mavi yanacağı" ala biləcəklərini istisna etmədiklərini bildirblər.**

Cari il sentyabrın ortalarında İrəvanda keçirilən Ümumdünya erməni sammitindəki çıxışında baş nazir Nikol Paşinyan Azərbaycandan təbii qazın idxalı və ya onun Ermənistan ərazisindən Naxçıvana, Türkiyəyə, hətta Avropaya tranzit imkanlarını istisna etmədiyini açıqladı. Aydın məsələdir ki, bu arzunun gerçəkləşməsi üçün əsas şərt sülh müqaviləsinin imzalanmasıdır.

Amma İrəvanın ortaya atdığı yeni ideyanın arxasında heç də xoş niyyəti dayanmır. Bu məsələdə Paşinyanın strateji hədəfi Ermənistanın Rusiyadan asılılığını minimuma endirməkdir. Birinci yerdə isə məhz enerji asılılığı gəlir. Yəni, rəsmi İrəvan üçün bu məsələ daha çox siyasi əhəmiyyət kəsb edir.

"SSRİ dönəmində mövcud olmuş Qazax–İrəvan qaz kəməri bərpa olunarsa, Azərbaycan sırf iqtisadi baxımdan Ermənistana qaz nəqlində maraqlı olmayacaq". Bu qənaəti erməni ekspertlərinin özləri də etiraf edirlər. Məlum olduğu kimi, sovet dövründə Ermənistana təbii qazın nəqli Qazax–İrəvan qaz kəməri vasitəsilə Azərbaycan üzərindən həyata keçirilirdi. Əgər Bakı qonşusunun qaz almaq arzusuna müsbət yanaşarsa, bu zaman keçmiş infrastrukturun bərpası üçün böyük vaxt və maliyyə xərcləri tələb olunmayacaq. Nəzəri cəhətdən Azərbaycandan Ermənistana qazın nəqli, təbii ki, "Qazprom"un Ermənistanın enerji bazarındakı payını məhdudlaşdıracaq. Erməni ekspertləri burada qiymət amilinin həlledici rol oynaya biləcəyini önə çəkirlər.

*(ardı 4-cü səhifədə)*

# Deyəsən, Baqrat "geosiyasi qütb"ünü dəyişir

***Kanada vətəndaşı olan keşişin Rusiyaya gizli səfəri birmənalı qarşılanmır***

**Ermənistanda iqtidarın Azərbaycanla sülh əldə olunması istiqamətində addımlar atmasına qarşı çıxanlardan böyük bir qrupuna erməni apostol kilsəsinin başçılıq etdiyi heç kəsə sirr deyil. Kilsə tarixən iki xalqın, sonradan isə iki dövlətin münasibətlərinin gərginləşməsində müstəsna rol oynayıb.**



Biz bu gün sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasında ölkəmizə qarşı olan ərazi iddialarının prosesdə əsas maneə təşkil etdiyini bildiririk. Ancaq sülhə əngəl olmaq istiqamətində fəaliyyət göstərən kilsənin hayların əsas qanununda əksini tapmış xüsusi konstitusion statusu da ləğv edilməlidir. Konstitusiyanın 18.1-ci maddəsində erməni apostol kilsəsinin milli kilsə kimi "erməni xalqının mənəvi həyatında, onun milli mədəniyyətinin inkişafında və milli kimliyinin qorunub saxlanılmasında müstəsna missiyası" təsbit edilib. O kilsənin ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi bütün cinayətlərin, belə deyək, ideya əsaslarını hazırlayıb. Cinayətləri həyata keçirənlərə xeyir-dua verib, onları qəhrəmanlaşdırıb. Məhz kilsə tarix boyu ermənilər arasında türklərə və azərbaycanlılara qarşı nifrət hissi aşılayıb, etnik və dini zəmində ədavət salıb, düşmənçilik toxumu səpib. Din xadimi adlanan həmin şəxslərin apardıqları kütləvi təbliğat erməni xalqının "beyinyuma əməliyyatına" məruz qoyulmasına, onlarda kütləvi psixoz vəziyyətinin yaradılmasına gətirib çıxarıb. Həmin ideologiyanın təsiri altında və xaricdəki havadarların təlimatı əsasında haylar azərbaycanlıların başına olmazın müsibətlər gətiriblər, o cümlədən ölkəmizə qarşı terror aktları törədiblər.

*(ardı 5-ci səhifədə)*



# ABŞ-də seçkilər: ermənilərin gözləntiləri və reallıqlar

**ABŞ-də prezident seçkilərində kim qalib gələcək? Sorğu anketlərinin çoxu bu suala birmənalı cavab verə bilmir. Donald Tramp və Kamala Harris arasında başabaş mübarizə gedir.**

Mübarizənin son mərhələsində ABŞ-nin Pensilvaniya, Corciya, Miçiqan ştatlarındakı seçicilərin həlledici rol oynayacağı qeyd edilir Dünyanın gələcək taleyinin bu seçkilərdən asılı olacağını düşünənlər haqlıdır. Bu mənada nəinki ABŞ-də, hətta onun sərhədlərindən kənarda ciddi gözləntilər var.

*(ardı 17-ci səhifədə)*

# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 4-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-la bağlı yaradılan şəraitlə tanış olublar.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma burada yaradılan şərait barədə ətraflı məruzə edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva COP29-un keçiriləcəyi tarixlərdə tədbir məkanı ərazisində istifadə ediləcək yük və sərnişindaşıma, eləcə də tibbi və yanğınsöndürmə üçün nəzərdə tutulan elektrikli minimobillər, Sammit zamanı yüksəksəviyyəli qonaqların ərazidə hərəkətini təmin etmək üçün istifadə olunacaq qolf-mobillər və elektrikli avtobuslar, həmçinin tədbir günlərində şəhər ərazisində hərəkət edəcək digər elektrikli nəqliyyat vasitələrinə baxıblar.

Dövlətimizin başçısı və birinci xanım COP29-un rəsmi Mavi Zonasında açılış mərasimində Milli bəyanatların səsləndiriləcəyi "Nizami" Plenar İclas zalı, İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti üçün hazırlanan məkanlar, eləcə də rəsmi danışıqların aparılacağı sahələrdə təşkil edilən çoxfunksiyalı müxtəlif görüş otaqları ilə tanış olublar. Qeyd edilib ki, burada Azərbaycanın mədəniyyəti və təbiətini təbliğ edən müxtəlif ekspozisiya və sərgilər var. Bildirilib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına yaxın günlərdə təhvil veriləcək Mavi Zonada hazırda COP29 çərçivəsində pre-sessiya görüşləri keçirilir.

Dövlətimizin başçısı və birinci xanım akkreditasiya və qeydiyyat prosesləri ilə tanış olublar. Bu günədək konfransda qeydiyyatdan keçmiş nümayəndə heyətləri ilə bağlı ətraflı məlumat verilib, tədbirə böyük marağın olduğu bildirilib.

Digər ölkələrin və tərəflərin pavilyonlarının yerləşdiyi zonaya baxan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada Azərbaycan və digər ölkə pavilyonlarının tikinti prosesləri ilə tanış olub, müxtəlif maraqlı tərəflərin iştirakı ilə geniş iştirakçı auditoriyası, eləcə də ictimaiyyət üçün açıq platforma rolunu oynayacaq Yaşıl Zonada olublar, Heydər Əliyev Fondu və Sıfır Atık Fondunun birgə pavilyonu olan Həmrəylik Mərkəzi, həmçinin digər tərəfdaşların və ölkələrin sərgi stendlərinə baxıblar. Yaşıl Zonanın ümumi konsepti, bu zonada keçiriləcək yüksəksəviyyəli konfrans və tədbirlər barədə ətraflı məlumat verilib.

***AZƏRTAC***

# Hərbi prokurorun Müdafiə Nazirliyi qulluqçuları ilə görüşü



**Ümummilli lider Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı sərəncamın icrası və COP-29-la əlaqədar Zəfər Günü ərəfəsində Baş prokurorun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində hərbi qulluqçularla görüşüb.**

Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, general-mayor Müşfiq Məmmədov, general-mayor Akif Pirverdiyev çıxışlarında Ulu öndərin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 il müddətində ölkəmizdə həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurların əldə edilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından, ölkəmizdə keçiriləcək COP29-un mahiyyətindən və əhəmiyyətindən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub. Tədbirdən sonra ağaclar əkilib.

***XQ***

# Azərbaycan və İraq arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub

**Noyabrın 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İraq Respublikasının Baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseyn arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Yaxın Şərqdə cari regional vəziyyət, bölgədə artan gərginlik, habelə iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir Fuad Hüseyn bölgədəki son inkişaflar barədə ətraflı məlumat verərək, münaqişənin genişlənməsinin ciddi narahatlıq doğurduğunu diqqətə çatdırıb.

Qarşı tərəf bir neçə gün sonra ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) son hazırlıq işləri ilə bağlı məlumatlandırılıb, mümkün əməkdaşlıq sahələrinə toxunulub.

***XQ***

# C.H.Musayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Cabbar Hafiz oğlu Musayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 noyabr 2024-cü il**

# Y.A.Ömərovun Azərbaycan Texnologiya Universitetinin rektoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Yaşar Adil oğlu Ömərov Azərbaycan Texnologiya Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 noyabr 2024-cü il**

# Vatikanın Şərq üzrə rəsmisi Heydər Əliyev Fondunda



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti kardinal Klaudio Qucerotti ilə görüşüb.**

Görüşdə Azərbaycan və Vatikan arasında mövcud əlaqələr, Heydər Əliyev Fondu ilə əməkdaşlıq çərçivəsində layihələr müzakirə olunub.

Klaudio Qucerotti Heydər Əliyev Fondunun Vatikandakı layihələrini yüksək qiymətləndirib və daimi dəstəyə görə Fondun prezidenti Mehriban Əliyevaya Roma Papası Fransiskin xüsusi minnətdarlığını çatdırıb.

Görüşdə Heydər Əliyev Fondunun Vatikanda katakombaların bərpası, Vatikan muzeyi və Apostol kitabxanası ilə sıx əməkdaşlığı, arxiv əlyazmalarının rəqəmsallaşdırılması, Vatikan arxeoloqlarının Azərbaycana tarixi və dini abidələrin bərpası məqsədilə tanışlıq səfəri və təcrübə mübadiləsi xüsusi qeyd olunub, gələcəkdə yeni layihələrin icrasının vacibliyi vurğulanıb.

Kardinal Qucerotti bu tədbirləri yüksək qiymətləndirərək Azərbaycan hökuməti və Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda yeni katolik kilsəsinin tikintisinin ölkəmizin multikultural siyasətinin bariz nümunəsi olduğunu bildirib.

Qonaq dünyada dini zəmində baş verən münaqişələrin genişlənməsi fonunda Azərbaycan hökumətinin həyata keçirdiyi multikulturalizm siyasəti, ölkədə müxtəlif dinlərin sülh şəraitində yaşaması, dini etiqad azadlığının sülhə ən böyük töhfə olduğunu vurğulayıb.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun prezidenti Mehriban Əliyevanın Vatikanla münasibətlərə hər zaman xüsusi önəm verdiyini deyib və gələcəkdə də bu əməkdaşlığın inkişaf etdiriləcəyinə əminliyini ifadə edib. Vatikan şəhər dövləti üzrə qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında həyata keçiriləcək bərpa işləri ilə bağlı imzalanmış əməkdaşlıq müqaviləsi tərəflər arasındakı sıx əməkdaşlığın göstəricisi kimi qeyd olunub.

Müqəddəs Taxt-Tacın nümayəndəsi Heydər Əliyev Fondu ilə gələcək layihələr sırasında Vatikanda Azərbaycanın mədəniyyət günlərinin keçirilməsi, sərgi və konsert proqramının təşkil edilməsi və müxtəlif sahələrdə mütəxəssislər arasında qarşılıqlı mübadilə aparılması təklifini də irəli sürüb.

Görüş zamanı Klaudio Qucerottiyə noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıq işləri barədə də məlumat verilib. Qonaq COP29 ərəfəsində "Dünya dinləri yaşıl planet naminə" devizi altında keçiriləcək Dini Liderlərin Qlobal Sammitinin dinlərarası münasibətlərin daha da inkişafına və beynəlxalq konfransın uğuruna töhfə verəcəyinə əminliyini bildirib.

***XQ***

# Bakıdan dünyaya yeni telekörpü

**(əvvəli 1-ci səhifədə)**

Böyük Britaniya, ABŞ, İspaniya, Portuqaliya, Ukrayna, Türkiyə, İordaniya, Nigeriya, Zambiya və digər ölkələrdən media sahəsində geniş təcrübəsi olan jurnalistlər yaradıcı heyətə daxildirlər.

Beynəlxalq ingilisdilli kanal kimi ANEWZ yüksək jurnalistika standartlarını, o cümlədən beynəlxalq və yerli istedadları bir araya gətirir. Kanalın əsas məqsədlərindən biri də Azərbaycanda ingilisdilli jurnalistikanın inkişafına töhfə verməkdir.

**www.anewz.tv**

**https://www.instagram.com/anewz.tv/profilecard/?igsh=MWNubzAydDI5 Tc3 QB% B%**

**https://x.com/anewz_tv?s=21**

**https://www.linkedin.com/company/anewz/posts/?feedView=all**

**https://www.facebook.com/p/anewz-61561936261670/?mibextid=LQQJ4d**

**https://www.youtube.com/@anewz_tv**

(əvvəli 1-ci səhifədə)

# Naxçıvana Ana vətəndən 2 yol

## və “regional şengen” ümidi




### Keçmişdən gələn səslər

Fikrimizi əsaslandırmaq üçün Prezident İlham Əliyevin 2015-ci il fevralın 7-də 51-ci Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Ukraynadan əlavə – Avropada həll olunmamış münaqişələr” mövzusunda keçirilmiş panel müzakirə zamanı bildirdiklərinə nəzər salaq. Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunmasının zəruriliyindən söz açarkən demişdir: “Beləliklə, danışıqlar prosesini davam etdirəcəyimizi nəzərə alaraq bu ətraf rayonların bir qisminin geri qaytarılmasına başlanılması mənzərəni dərhal dəyişəcək, hərbi əməliyyatlar dərhal dayanacaq, atəşkəs rejiminə tam riayət olunacaq. Biz artıq Azərbaycan ilə Ermənistan arasında bütün kommunikasiyaların açılacağına dair təklif irəli sürmüşük. Beləliklə, Ermənistanın bizim ərazimizdən dəmir yolu vasitəsilə Rusiyaya çıxışı olacaq. Həmçinin Türkiyə də Ermənistan ilə bütün kommunikasiyalarını açacaq. Beləliklə, biz hərbi əməliyyatların başlanması ilə əlaqədar istənilən potensial riskləri aradan qaldırmış olacağıq və etimad qurmağa başlayacağıq”.

Prezident İlham Əliyev sözügedən müzakirə zamanı səslənmiş sualları cavablandırarkən, Ermənistanın Azərbaycanın təkliflərinə qeyri-konstruktiv yanaşdığını da dilə gətirmişdi: “Lakin Ermənistan bizim bütün təkliflərimizə məhəl qoymur. Çünki Ermənistan sülh istəmir. Düşünürəm ki, bu, münaqişənin həll olunmamasının səbəbi ilə bağlı ən vacib məsələlərdən biridir. Çünki bir tərəf sülh, ərazi bütövlüyünün bərpasını istəyir, digər tərəf isə sülh istəmir. Ermənistan hər şeyin dəyişməz qalmasını istəyir. Çünki onların torpaqları işğal altında deyil, onların bizim üzləşdiyimiz bir milyon qaçqın və məcburi köçkün kimi böyük problemi yoxdur. Onlar danışıqlar prosesində sadəcə imitasiya xarakterli müəyyən addımlar atırlar. Bəs nə etmək lazımdır? Necə edək ki, Ermənistan daha çox məsuliyyətli olsun? Biz beynəlxalq təşkilatlarla, ilk növbədə vasitəçilərlə bu məsələlər üzərində işləməliyik”.

### Əvvəl mümkün idi, indi yox

Bəli, Ermənistan nəinki hər şeyi olduğu kimi saxlamaq istədi, eyni zamanda, ölkənin yeni iqtidarının ekslərdən fərqli daha azğın mövqe səsləndirdiyini gördük. Söhbət baş nazir Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” bəyanatından, Şuşada – Cıdır düzündə şərab içib sərxoş olmasından, rəqs eləməsindən və bu yolla Azərbaycan xalqının heysiyyatına toxunmasından gedir. Sonra nələr baş verdi, güman edirik, 44 günlük müharibə vəhşəti Ermənistanın və dünya erməniliyinin yadından tarix boyu çıxmayacaq.

Qeyd edək ki, Prezident İlham Əliyev ayrı-ayrı məqamlarını diqqətə çatdırdığımız paneldə ölkəmizin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət verilməsinə dair mövqeyini bir daha açıqlamışdı. Əlbəttə, 44 günlük müharibə ilə muxtariyyət məsələsi gündəlikdən çıxdı, Ermənistan itirdi. Savaşdan sonra ölkəmiz Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyası təklifini irəli sürdü. Rəsmi İrəvan bölgədəki separatçı rejimi qorumağa çalışdı. Ölkəmizin 2023-cü il sentyabrında keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçı rejim iflasa uğradı. Deməli, Ermənistan yenə itirdi. Əslində, Ermənistanın ən böyük itkisi daha əvvəl yaşanmışdı. Nəzərə alaq ki, əgər Azərbaycan torpaqları işğal olunmasa idi, Bakı-Tbilisi-Ceyhan və onunla əlaqəli enerji layihələri də məhz bu ölkənin ərazisindən keçəcəkdi.

İndi Azərbaycan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən Naxçıvana maneəsiz yol tələb edir. Ermənistan bununla da razılaşmayacağı təqdirdə, dalanda qalacaq. Görəsən, A.Mirzoyanın regional kommunikasiyaların açılması məsələsindəki mövqeyi bunu anlamaqdırmı? Mövcud xüsusda birmənalı fikir bildirmək mümkün olmasa da, nikbinlik üçün müəyyən əsas var. Amma tələsməyək.

### Naxçıvana İran ərazisindən gediş

Bəli, Ermənistan rəhbərliyi Azərbaycanın Naxçıvana maneəsiz yol tələbini qəbul etmədiyini açıqlamaqla yanaşı, “Dünyanın kəsişməsi” adlı avantürist layihə də irəli sürərək, ölkənin qlobal nəqliyyat tranzitində mühüm fiqura çevrilmək niyyətini ortaya qoyub. “Dünyanın kəsişməsi”ni bütün beynəlxalq tribunlara daşıyan rəsmi İrəvana xaricdəki ermənipərəst qüvvələr də dəstək veriblər. Onlar regional kommunikasiyaların açılmasını Azərbaycan – Ermənistan sülh gündəminin başlıca elementinə çevirməyə çalışıblar ki, ikinciyə sərfəli barış mühiti erməni avantürizmi üçün dividend qazandırsın. Nəzərə alaq ki, “Dünyanın kəsişməsi” Ermənistanı qlobal tranzitin açar nöqtəsinə və beləliklə ondan Cənubi Qafqaz dövlətlərinə, o cümlədən, regionda tarixi maraqları olan Rusiya, Türkiyə və İran kimi ölkələrə təzyiq alətinə çevirməyə hesablanmış təşəbbüsdür. Əlbəttə, Azərbaycan buna yol verə bilməz və yenə mövqeyində qətidir.

Azərbaycan mövqeyində tam qətidir ki, Ermənistanın etirazları səbəbindən, Naxçıvana yolun onun ərazisindən deyil, İrandan keçməsi təklifini irəli sürüb. Rəsmi Bakı 2022-ci ildən başlayaraq bu variantın üzərində dayanıb. Məsələ ilə əlaqədar anonsu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev verib. O, 2022-ci ildən sonrakı bir sıra açıqlamalarında da bu mövzuya qayıdıb. Nəinki qayıdıb, hətta nikbinlik yaradıb. Söhbət Bakı ilə Tehran arasında imzalanmış Anlaşma Memorandumu ilə əlaqədar nikbinlikdən gedir.

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov isə “3+3” regional məşvərət formatının bu il oktyabrın 18-də İstanbulda keçirilmiş görüşü zamanı bildirib ki, ölkəmiz birgə layihələrin Naxçıvanı da əhatə etməsinə, xüsusilə İrandan keçərək, Şərqi Zəngəzur iqtisadi rayonumuz ilə muxtar respublikanı birləşdirən kommunikasiyaların tezliklə tamamlanmasına ümidvardır.

Bəli, Azərbaycan İran ərazisindən keçəcək və Zəngilanın Ağbənd kəndindən başlayaraq, digər ərazilərimizi Naxçıvanla birləşdirən alternativ nəqliyyat dəhlizi üzərində işləyir. İranlıların “Araz yolu” adlandırdıqları bu layihənin təfərrüatları bir müddət əvvəl Tehranda hər iki ölkənin dəmir yolu administrasiyası təmsilçilərinin iştirakı ilə reallaşmış danışıqların da mövzusu olub. Görüşdə tərəflər digər məsələlərlə yanaşı, konkret olaraq, Ağbənd stansiyasını Ordubadın Salam Məlik stansiyası ilə birləşdirəcək yeni dəmir yolu marşrutu ətrafında müzakirə aparıblar. “Azərbaycan Dəmir Yolları” QSC-nin rəisi Rövşən Rüstəmov bildirib ki, İran ərazisindən keçəcək optimal marşrut, demək olar, razılaşdırılıb, hazırda Araz çayı üzərindən körpülərin yerləşdirilməsinə və dəmir yolu xətti marşrutuna dair danışıqlar yekunlaşır.

### Muxtar respublikaya “çıxış” muxtariyyəti

Bütün bunları və A.Mirzoyanın fikirlərini nəzərə alaraq, belə qənaətə gəlmək olarmı ki, Naxçıvana bir deyil, iki yol olacaq, yaxud ola bilər? Muxtar respublikaya həm İrandan, həm də Ermənistandan yolun olması ehtimalınını nəzərdə tuturuq. Görəsən, ikinci variant, birincinin əhəmiyyətini azaltmayacaq ki? Əslində, suallar yetərincə çoxdur. Keçmişin ənənəsinə söykənsək, uzun illər Naxçıvana Ermənistan ərazisi kimi sayılan bölgədən yol olub. Söhbət Meğri yolundan gedir. Ancaq erməni millətçilərinin Qarabağ avantürası başlananda sözügedən ərazidə hərəkət edən qatarların daşa basıldıqları hamımızın yaxşı xatirindədir. Sonra isə işğal yaşandı...

Naxçıvana İran ərazisindən yol işğal dövrünün məhsuludur və artıq təcrübə kimi sınaqdan çıxıb, bir növ, ənənə mahiyyəti daşımağa başlayıb. Yəni, vətəndaşlarımız həmin yoldan istifadə edərək, qədim diyarımıza təhlükəsiz şəraitdə yetişiblər. İndi sual olunur: Ermənistan təhlükəsizliyi təmin edə biləcəkmi? Sual ritorikdir, çünki ölkəmiz rəsmi İrəvanın bununla bağlı zəmanətlərinə inanmır və inanmamaqda haqlıdır.

Əvvəla, Ermənistan illərlə qəsbkar siyasət yeridib və bu siyasətindən öz xoşuna daşınmayıb. Azərbaycan nəyi əldə edibsə, öz gücü hesabına qazanıb. Habelə, İrəvan etimad quruculuğu baxımından da heç bir iş görməyib. Belə bir durumda Ermənistanın baş naziri Nikol Paşinyanın Naxçıvana yol məsələsində Azərbaycana İranın təklif etdiyi keçid şərtlərinin eynisini təklif etməsinin heç bir önəmi yoxdur. Həm də ona görə ki, Azərbaycandan Azərbaycana yola Ermənistanın illərlə həyata keçirdiyi işğalın təzminatıdır.

N.Paşinyan onu da bildirib ki, Naxçıvana yolda sadələşdirilmiş keçid mexanizminin tətbiqinə hazırdır. Ola bilərmi ki, Mirzoyanın açıqlaması Azərbaycanın həmin mexanizmlə razılaşmasından qaynaqlanır? Bu ehtimalı, üstəlik, İranla anlaşmanın praktik addımlarının dönməzliyi ritorikasını əsas götürsək, Naxçıvana ikili yol məntiqi üzərində dayanmaq mümkündür.

Əlbəttə, istərdik ki, məsələlər vurğuladığımız qədər sadə təbiətə malik olsun. Ancaq mürəkkəb məqamlar var və olacaq. Hər bir halda, indidən Azərbaycan diplomatiyasının prosesdən uduşlu çıxdığını deyə bilərik. Çünki İranla razılaşmanın hazırkı irəliləyiş sürətinə baxsaq, artıq Naxçıvana quru yolunun Ermənistanın razılıq ritorikasından uzaq düşdüyünü söyləmək mümkündür. Yəni, yol istənilən halda açılacaq.

### Naxçıvana qapı və funksionallıq amili

Elə isə xəyalən də olsa, hər iki yolun eyni dərəcədə funksionallığı və əhəmiyyəti üzərində dayanaq. Nəzərə alsaq ki, qlobal kommunikasiya habı üzrə daşımalar böyük miqyaslıdır, demək olmaz ki, iki yoldan yalnız birinə ehtiyac var, ikincisi önəmsizdir. O zaman tam maneəsiz yol daha işlək olduğundan cəlbedici görünür. İran ərazisindən keçəcək marşrutun hansı şərtlərlə fəaliyyət göstərəcəyindən xəbərdar deyilik. Amma indiki dövrdə region üçün yeni model yaratmaq imkanı var. Buna ad da qoyaq – “regional şengen”.

Hesab edirik ki, belə bir durum yaransa, təhlükəsizlik daha ciddi şəkildə təmin olunacaq. Yəni, mənfəət, istər-istəməz, ona zəmanət verəcək. İran qlobal tranzitdə yer alıb imkanlarını yaxşılaşdıracaq. Ermənistan isə ona qoşulmaqla, təcriddən çıxacaq və real iqtisadi inkişafa nail olacaq. Nəticədə regionda dayanıqlı və uzunmüddətli sülh də yaranacaq.

Sonda onu da deyə bilərik ki, hazırda əsas məsələ Azərbaycanla Ermənistanın regional kommunikasiyaların açılması xüsusunda yekun nəticəyə gələ bilməsi və İrəvanın kənar təsirlərə sinə gərməyi bacarmasıdır. Qərbin, konkret olaraq, ABŞ-nin Naxçıvana yolun İrandan keçməsinə qarşı çıxdığını bilirik. Ənənəvi imperiya ambisiyaları bir kənara qoyulsa, Rusiyanın və İranın barəsində söz açdığımız ikili marşrutdan faydalanma imkanları böyükdür. Ermənistana gəlincə, ölkə leqal, sanksiyada olan Rusiya mallarının təkrar idxalı kimi, belə demək mümkünsə, pirat deyil, həqiqi gəlirə sahiblənməklə, ələ baxan olmaq, avantürizm alətinə çevrilmək arasında ciddi və tarixi seçim etməlidir.

Bir vacib məqam da var. Söhbət xəyali ikili marşrut ideyasının, ümumən, regional kommunikasiyaların açılmasının Qərb cəbhəsinə təsirindən gedir. Prinsipcə, ortada Avropanı qane edəcək durum var. Hər halda, Orda dəhliz ideyası, onun tərkib hissəsi olaraq Naxçıvana yol həyata vəsiqə alsa, Şərqin ucuz malları “Köhnə qitə”yə doğru yön alacaq. Bəs ABŞ? Hadisələr qeyd etdiyimiz səmtdə inkişaf etsə, itirən yalnız Birləşmiş Ştatlar olacaq.

Beləliklə, Avropanın və ABŞ-nin Naxçıvana yolla bağlı mövqelərində fərqliliyin yaranacağını düşünmək mümkündür. Avropanın qlobal tranzitdən qazanacağı üstünlük şəraitində Vaşinqtonun ona təsir rıçaqları zəifləyəcək. Digər yandan, Birləşmiş Ştatların, ümumən, Cənubi Qafqaz regionuna da təsirinin və təzyiq imkanlarının sıradan çıxma ehtimalı üzərində dayanıla bilər. Hadisələr hansı səmtə doğru gedəcək, bunu əlahəzrət zaman göstərəcək.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

REPLİKA

# Ararat Mirzoyanın kitab oğurluğu

## Yaxud “erməni soyqırımı” ilə bağlı “sübutlar”ın məhvi

**Azərbaycanda, adətən, bildirirlər ki, kitab oğrusu oğru sayılmır. Deyimi Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyana şamil etməyin nə dərəcədə doğru olub-olmadığını söyləyə bilmərik. Əsas məsələ ondadır ki, Mirzoyanın səsləndirdikləri onun vaxtilə törətdiyi ehtimal olunan əməli aktuallaşdırıb. Söhbətimiz bu barədədir. Ancaq əvvəlcə bir məqama diqqət yetirək.**

Ermənistanın XİN rəhbəri ölkənin 2025-ci il üçün dövlət büdcəsini müzakirə edən iclasların birində deyib ki, qondarma “erməni soyqırımı”nın beynəlxalq miqyasda tanınmasına cəhd göstərmək rəsmi İrəvanın xarici siyasət prioritetləri sırasından çıxıb. Dövlət rəsmisinin fikri geniş səs-küy doğurub. Təbii ki, erməni varlığı üçün önəm daşıyan mifdən uzaq durulması ilə bağlı məsələ sakit qarşılana bilməzdi.

A.Mirzoyan dilə gətirdiyi fikrə görə, yumşaq desək, heç də yaxşı olmayan ifadələrə “qonaq edilməkdədir”. Ona ünvanlanan təhqirlərin sayı və dozası bitib-tükənmək bilmir. Ancaq Ermənistan Milli Elmlər Akademiyasının “Erməni Soyqırımı Muzey-İnstitutu” adlanan saxta qurumunun direktoru, tarix elmləri doktoru, İrəvan Dövlət Universitetinin müəllimi Hayk Demoyan XİN rəhbərini təhqir yox, ittiham edib. O, fikrini əsaslandırmaq üçün keçmişə baş vurub.

Əvvəla, deyək ki, təkcə bu soyad Haykın rəhbərlik etdiyi saxta qurumun “haqqını” tam şəkildə verir. Çünki “erməni soyqırımı” məhz insan beyninin demonizasiyasının məhsuludur, şeytani təxəyyüldür. Saxta iddia bəlkə də şeytani təxəyyüllərin arasında ən öndə gələnidir. Nəzərə alaq ki, qondarma soyqırımı məsələsi illərlə neçə-neçə ermənini xəstə hala salıb ki, bu xəstəliyin intiqam təzahürünün nəticəsində törədilmiş çoxsaylı amansız qətllər, böyük miqyaslı terror aktları var.

Beləliklə, H.Demonyan bildirib ki, 2004-cü ildə hazırda rəhbərlik etdiyi muzeydə oğurluq olub, bəzi kitablar yoxa çıxıb. O, təmir zamanı 19-dan çox qiymətli nəşrin itdiyini vurğulayıb. Sabiq direktor bununla əlaqədar cinayət işinin başladılmasına, necə deyərlər, kefsiz yanaşıb və hesab edib ki, hay-küy salmaq lazım deyil. Demonyan isə müəssisəyə rəhbərliyə başlayandan sonra, daha doğrusu, 2007-ci ilin iyulunda cinayət işi qaldırdığını diqqətə çatdırıb. Cinayət işi ilə bağlı iki nəfər dindirilib ki, onlar oğurluq baş verən vaxtda muzeydə aspirant imişlər. Bu şəxslərdən biri A.Mirzoyan, digəri isə hazırda Ermənistan parlamentinin Dövlət və hüquq məsələləri üzrə komissiyasının sədri Vladimir Vardanyandır.

H.Demonyan sonradan cinayət işinin bağlandığını da bildirib. Halbuki, məsələ Ermənistanın Milli Təhlükəsizlik Xidmətində araşdırılırmış. Direktorun sözlərinə



görə, Mirzoyan gizli şəkildə bu dövlət qurumunun təsiri altında imiş. Hələ o, sonralar casusluğa cəlb edildiyini özü etiraf edibmiş. Demonyan Mirzoyanın sözügedən oğurluğu törətdiyini boynuna aldığını da bildirib. Əvvəlcə isə əməlini “qızlardan birinin üzərinə atmağa çalışıb”. “İndi mən Janna Andreasyanın (Ermənistan Milli Təhlükəsizlik Xidmətinin hazırkı rəisi – red.) cinayət işini açmasını istəyirəm. Biz Ararat Mirzoyanın və Vladimir Vardanyanın hansı ifadələr verdiyini görəcək və kitabları haradan tapa biləcəyimizi anlamağa çalışacağıq”.

Əlbəttə, yekunda H.Demonyanın gəldiyi nəticə gözlənilən dramatizm effektini yaratmır. O deyir ki, 20 il əvvəl bu fırıldaqçılar, yəni Mirzoyan və Vardanyan erməni tarixi ilə “zənginləşiblər”. “İndi isə onu (erməni tarixinin bir hissəsi olan “erməni soyqırımı”nı – red.) məhv etməklə “varlanmaq istəyirlər”. Onların maxinasiyalarının obyektləri dəyişir. Onların mövqeləri dəyişir. Ancaq özləri dəyişmirlər”, – deyən qondarma muzey direktoru fikrini tamamlayıb.

Bəs nəyə görə düşünürük ki, H.Demonyanın bildirdiklərindəki dramatizm məntiqi sonluğa çatmır. Hər halda, Mirzoyan indi “erməni soyqırımı” iddiasının beynəlxalq miqyasda tanınmasının ölkəsinin xarici siyasət trayektoriyasından çıxdığını bəyan edirsə, deməli, o və təmsil olunduğu komandanın üzvləri belə bir xəstəliyin yolverilməzliyini anlayıblar. Yeri gəlmişkən, baş nazir Nikol Paşinyanın da bir müddət əvvəlki açıqlamalarından belə nəticə hasil olmuşdu ki, “erməni soyqırımı” mifdən başqa bir şey deyil. Nəzərə alsaq ki, Mirzoyan Erməni Soyqırımı Muzey-İnstitutunda aspirant olub və oradan kitab oğurlayıb, deməli, həmin kitablar, mahiyyətcə, qondarma iddianı təsdiqləmək məqsədli cəfəngiyyatlar toplusu imiş. Yəqin, razılaşarsınız ki, dəyərli məxəz olduğu deyilən 19 kitabın birdən-birə yoxa çıxması adi olay sayıla bilməz.

Deməli, məntiqi nəticə formalaşır. Bu gün “erməni soyqırımı” iddiasının beynəlxalq miqyasda tanınmasının Ermənistanın xarici siyasət prioritetindən çıxdığını bəyan edən A.Mirzoyan illər əvvəl “sübutları” məhv etməklə məşğul imiş. Eləcə də Vardanyan. Çox güman ki, onlar saxta məsələnin əksini tapdığı kitabları yalnız oğurlamayıblar, eyni zamanda, yandırıblar. Axı erməni avantürizminin təmsilçiləri belə “kitablara” istinadən qondarma soyqırımının olduğunu deyirlər. Yəni, onlar üçün kitab “sübutdur”. Kitab yoxdursa, sübut da yoxdur.

Burada anlaşılmayan məsələ A.Mirzoyanın hələ o zaman Ermənistanın DTX-sına işləməsidir. Hər halda, 2004-cü ildə qurum “erməni soyqırımı” iddiasını dövlət siyasətinin tərkib hissəsi kimi qəbul edən Koçaryan – Sarkisyan xuntasının təsiri altında idi. Necə ola bilərdi ki, “qiymətli kitabları” yoxa çıxarmalarına rəğmən, Mirzoyan və Vardanyan haqqında heç bir hüquqi ölçü tədbiri seçilmədi? Axı bu şəxslər törətdikləri əməl ilə, faktiki olaraq, erməni milli identikliyi kimi qiymətləndirilən cəfəngiyyatın puça çıxmasına çalışmışdılar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# COP29 üzərindən anti-Azərbaycan təbliğatını aparanlar ənənəvi mərkəzlərdir

**Azərbaycanda önəmli tədbirlər keçiriləndə və yaxud, dövlətimiz hansısa bir uğura imza atanda fərqli mərkəzlər tərəfindən dərhal əks-təbliğat kampaniyasının başladılması faktı ənənəvi hal alıb. Bu, təsadüfi xarakter daşımır və xaotik halda baş vermir. Təcrübə göstərir ki, Azərbaycana rəqib gözü ilə baxan dövlətlər, həmçinin dünyanın müxtəlif qütblərində yerləşən siyasi mərkəzlər dövlətimizin belə tədbirlər fonunda beynəlxalq diqqət mərkəzinə gəlməsini fürsət bilirlər. Həmin məqamdan yararlanıb, özlərinin çirkin niyyətlərini həyata keçirməyə çalışırlar.**

Bu tendensiya 2012-ci ildən etibarən daha qabarıq şəkildə müşahidə edilir. Həmin il ölkəmizdə Avroviziya mahnı müsabiqəsi keçirildi. Tədbiri ən yüksək səviyyədə təşkil etməsinə baxmayaraq, Azərbaycan haqsız bir kampaniya ilə üzləşdi. Mədəniyyət tədbirini, musiqi yarışmasını siyasi aksiyaya çevirən Qərb mərkəzləri ciddi oyun qurdular. Beynəlxalq ictimai rəyi çaşdıran uydurma informasiyalar yaymaqla, ölkəmizin imicini qaralamağa çalışdılar.

Səbəbləri araşdırarkən bəlli oldu ki, Qərbi Avropa dövlətlərinin və ABŞ-nin əlində alət olan "hüquq müdafiə təşkilatları" ölkəmizə qarşı " ixtisaslaşmış koalisiya" formalaşdırıblar. "Azərbaycan üzrə Beynəlxalq Əməkdaşlıq qrupu" adlandırılan həmin koalisiya vasitəsilə prosesləri koordinasiya edirlər. Uydurma faktlar formalaşdıraraq, dövlətimizə qarşı qərəzli bir informasiya savaşı aparırlar. O da aydın oldu ki, bu kampaniyaları keçirməklə təzyiq göstərib Azərbaycandan müxtəlif kontekstli siyasi güzəştlər qoparmaq istəyirlər.

Eyni proses 2015-ci ildə – Bakı-2015: I Avropa Oyunları keçiriləndə, həmçinin 2017-ci ildə ölkəmiz İslam Həmrəyliyi Oyunlarına evsahibliyi edəndə də təkrarlandı. Aşkar şəkildə görünürdü ki, Qərb dövlətləri və onlara bağlı olan təşkilatlar sosial, mədəni, humanitar tədbirləri kontekstdən çıxarıb siyasi aksiyaya çevirmək, bunun fonunda öz maraqlarını təmin etmək üçün strategiyaya malikdirlər. Onların COP29 Konfransına yanaşmaları da eyni kontekstdədir.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) bəşəriyyətin gələcək taleyini müəyyənləşdirən platforma kimi yanaşır. Konfrans iştirakçılarının rahatlığını, sərbəst fikir mübadiləsinin təşkili üçün bütün imkanlarını səfərbər edir. Azərbaycanın marağı budur ki, iqlim dəyişmələrinə səbəb olan amillər müəyyənləşdirilib müzakirə edilsin, bu səbəblərin aradan qaldırılması üçün əməli addımlar atılsın, strategiyalar hazırlansın.

Amma Qərb mərkəzlərinin yanaşması fərqlidir. Onlar bu tədbirə bəşəriyyətin gələcəyini xilas etmək üçün platforma kimi baxmırlar. COP29-a öz maraqlarını təmin etmək üçün fürsət kimi yanaşırlar. Konfransın Azərbaycanda keçirilməsi yönündə qərarın verildiyi gündən başlayaraq indiyədək çirkin bir kampaniya aparırlar. Tədbiri pozmaq üçün genişmiqyaslı fəaliyyət həyata keçirirlər. Bu məqsədlə ənənəvi mexanizmləri hərəkətə gətiriblər. "Amerikanın səsi", "Azadlıq Radiosu", "Meydan TV" qismində KİV-lər, özünü "insan haqlarının müdafiəçisi" elan etmiş "beynəlxalq statuslu təşkilatlar", o cümlədən, "Human Rights Watch", "Amnesty İnternational", "Freedon House" qismində təşkilatlar prosesə qatılıblar. Hər gün bir qondarma informasiya yaymaqla, konfransın tərtibatına xələl gətirməyə çalışırlar. Təbii ki, bu təşkilatlar öz düşüncələri ilə hərəkət etmirlər. Bəlli mərkəzlərdən sifarişlər alıb icra edirlər.

Kampaniya təşkilatçıları bu günə qədər işlərini daha çox ənənəvi KİV-lər, transmilli media subyektləri üzərindən yürüdüblər. İndi isə həm də sosial şəbəkələri, o cümlədən, "X" sosial media platformasını da prosesə qatıblar. #COP29 həştəqi altında qeyri-obyektiv bir kampaniyaya start veriblər. Bütün əlamətlər onu göstərir ki, bu kampaniya da ənənəvi mərkəzlər tərəfindən sistemli şəkildə idarə olunur.

COP29 konfransı Cənubi Qafqaz üzərində geopolitik savaşın gücləndiyi, açıq müstəviyə keçdiyi bir dönəmə təsadüf edir. Azərbaycan öz potensialından faydalanaraq, regionu bu savaşdan kənar tutmağa, bölgədə sülhü, sabitliyi qorumağa çalışır. Təbii ki, belə mövqe region üzərində məkrli planlar qurmuş geopolitik savaş oyunçularına xoş gəlmir. Fikrimcə, COP29 üzərindən aparılan kampaniya da reallıqda ölkəmizin müstəqil xarici siyasət kursuna qarşı yönəlmiş təzyiq prosesidir. Amma bu kampaniyanı aparanlar gərək unutmasınlar ki, Azərbaycan belə oyunları dəfələrlə ifşa edərək iflasa uğrada bilib.

KÖŞƏ

## Planetin "arterial təzyiqi" artmaqdadır

*Əsas səbəb dünyanın bir qütbün əlində girinc edilməsidir*



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**On ildən çox idi ki, qlobusa baxmırdım. Bəlkə də, yaxşı ki, baxmırdım. Anan ölsün, Yer kürəsi! Hayana baxırıq, qan-qada, od-alov, atəş, dron hücumu, raket zərbəsi, mina "zəmi"-si, münaqişə, müharibə, şəhid tabutu, kəsilmiş qazi ayaqları, gənc oğlanların protez qolları... Turanın böyük şairi ulu Cavid demişkən:**

**Ya Rəbb, bu nə dəhşət, nə fəlakət?**
**Ya Rəbb, bu nə vəhşət, nə zəlalət?**
**Yox kimsədə insafü mürivətt,**
**İblisəmi uymuş bəşəriyyət!?**

Təbii ki, İblis bəşəriyyəti aldatmaqdadır. Elə olmasaydı, bəşər övladları bir-birinə qənim kəsilərdimi? İblisə uymayan bəşər övladı Azərbaycan ərazilərinin 20 faizini yerlə–yeksan eləyib xarabazara, viranəyə çevirərdimi? İblisin iyrəncliklərinə bulaşaraq ona xidmət edən siyasətçilər erməni kimi vəhşi qövmə qahmar çıxardımı? Hələ bunlar nədir ki? İblis övladları bu gün dünyanın hər yerində at oynadırlar. Məhz həmin atların ayaq səsindən Yer kürəsinin arterial təzyiqi günbə-gün deyil, saatba-saat artır.

... "Adəmdən Xatəmə qədər" hamı görüb ki, Yer üzünün dörd qütbü var. İblisə uymuşların törətdiyi İkinci Dünya müharibəsindən qalib çıxanlar ( xüsusən, nüvə silahının "nübarını dərənlər" ) isə "sübut etdilər" ki, dünyanın iki qütbü var – Ağ ev və Kreml. Dünya ölkələrinin və xalqlarının bir yarısı Ağ evin "orbitində" fırlanmağa başladı, o biri yarısı isə Kremlin ətrafında birləşdi. Məhz buna görə də bütün ölkələr işini-gücünü buraxaraq, bu "qütblərdən" gələn göstərişlərin yerinə yetirilməsi ilə məşğul oldular. Nəticədə dünya iqtisadiyyatı da sarsıdıcı zərbə aldı, planetin sosial həyatı da. Daha çox itirən isə sadə insanlar oldu.

Çünkü bütün ölkələrin siyasiləri inkişafa və sosial rifaha xərclənəcək vəsaitləri silahlanmaya yönəltdilər. Xatırladaq ki, silahlanma "soyuq müharibə"nin bir nömrəli tələbi idi.

Həmin müharibədə ən çox zərərdidə olan Kreml ətrafında birləşənlər idi. Ona görə də, son nəticədə SSRİ çökdürüldü və Ağ evdən dünyaya yeni mesaj gəldi: "Planetin bir qütbü var!" Rusiyanın hərbi gücünün zəiflədilməsinə, Çin iqtisadiyyatının çökdürülməsinə, Avropa İttifaqının əl altında saxlanılmasına, Türk dünyasına və İslam ölkələrinə çoxsaylı təzyiqlər göstərilməsinə çalışan yeganə "qütb" planetin istənilən nöqtəsində qan tökülməsinə canlabaşla icazə verdi. Yəni bu gün dünyada şahidi olduğumuz hərbi-siyasi fəsadların hamısının altında Ağ evin imzasının olduğunu bilməyən yoxdur.

Halbuki, iki-üç il əvvəl ABŞ ekspertləri deyirdilər ki, yaxın tarixdə dünyanı ABŞ, Avropa Birliyi, Çin və Rusiya idarə edəcək. İndi isə dünyanın bir qütbdə birləşməsi üzərində çalışırlar və bu hikkə anamız Yer kürəsinin arterial təzyiqini sürətlə artırır. Ancaq...

Yəni mütərəqqi düşüncəli insanlar dünyanın "qan təzyiqi"nin normallaşdırılması məqsədilə lazım olan addımları atırlar. Ancaq bu addımlardan da əvvəl Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan öz ölkəsinin hansısa "qütb"dən gələn diktələrlə işləməyəcəyini BMT tribunasından bəyan etmişdi: "Dünya beşdən böyükdür!" Elə Azərbaycan Prezidentinin "Heç kəs bizi öz yolumuzdan döndərə bilməz!" qətiyyəti də bədxahlarımızın qulağına dəfələrlə çatdırılıb.

**P.S.** Dünyanın hegemon dövlətinin lideri təyyarə trapından yıxılanda, beynəlxalq tədbirdə ölkə rəhbərlərinin adını qarışıq salanda, tənha olduğu halda öz-özünə danışanda böyük Hüseyn Cavidin "Topal Teymur" əsərinin sonundakı epizodu xatırlayıram. İldırım Bəyazidi əsir götürən Əmir Teymur deyir: "Heç maraq etmə, xaqanım! Sən kor bir abdal, mən də dəli bir topal! Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yox məmləkətlərə... sənin kimi bir kor, mənim kimi bir topal müsəllət olmazdı."

# Paşinyanın "qaz" oyunu

*Ermənistanın Azərbaycandan mavi yanacaq almaq arzusunun arxasında gizlənən gerçəklər*

**(əvvəli 1-ci səhifədə)**

Hazırda Rusiya Ermənistana qazı güzəştli şərtlərlə satır və bu, Moskvanın İrəvana çoxdankı təzyiq rıçaqlarından biri hesab olunur. Kremlin Nikol Paşinyana məlum münasibətinə baxmayaraq, "Qazprom" İrəvanı qazın qiymətini artıracağı ilə hədələməkdən çəkinir. Çünki belə bir addım Ermənistanı İrandan təbii qazın idxalını artırmağa və buna müvafiq olaraq, Rusiya yanacağından qismən imtinasına gətirib çıxara bilər.

Qeyd edək ki, Nikol Paşinyanın ayyarım bundan əvvəlki təklifinə rəsmi Bakı hələlik münasibət bildirməyib. Yerli ekspertlərin fikrincə, Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalandıqdan sonra Ermənistana qaz nəqli məsələsi, həqiqətən də, aktuallaşa bilər. Hazırda Ermənistanın qaza olan tələbatının əhəmiyyətli hissəsini Rusiya ödəyir. Üstəlik, İran hər il Ermənistana elektrik enerjisi istehsalı üçün istifadə olunan bir neçə yüz milyon kubmetr "mavi yanacaq" verir. Eyni zamanda, Ermənistanda elektrik enerjisinin istehsalı və bölüşdürülməsi də Rusiyanın nəzarətindədir və daxili qaz kəmərləri sistemi əvvəlki hakimiyyətin dövründə rus inhisarçısı "Qazprom"un mülkiyyətinə keçib.

Göründüyü kimi, Ermənistan gələcəkdə Rusiyanın əlindəki təzyiq alətindən qurtulmaq barədə düşünür və bu məsələdə onun əsas ümidi ...Azərbaycanla bağlıdır. Yəni, Ermənistanın hazırkı rəhbərliyi Rusiyadan iqtisadi və enerji asılılığını azaltmağa və mümkünsə, tamamilə aradan qaldırmağa çalışır. Və bu kontekstdə Azərbaycan coğrafi baxımdan Ermənistandan ötrü qaz tədarükünü şaxələndirmək üçün ən əlverişli mənbədir.

***

Gələcəkdə Azərbaycandan təbii qazın nəqli məsələsi Ermənistan daxilində müzakirə olunan əsas mövzulardan birinə çevrilib. Bu günlərdə "Qazprom Armeniya"nın İrəvanda təşkil etdiyi "Enerji prosesləri: region" mövzusunda seminarda bu məsələ rəsmilərin və müstəqil ekspertlərin iştirakı ilə ölkənin enerji təhlükəsizliyi kontekstində müzakirə olunub. Seminarda çıxış edən energetika üzrə ekspert Armen Manvelyan qeyd edib ki, Qazax–İrəvan qaz kəməri bərpa olunsa belə Azərbaycan sırf iqtisadi baxımdan Ermənistana qaz satmaqda maraqlı olmayacaq: "Çünki Bakı qazı Avropaya daha yüksək qiymətlə satmağa üstünlük verir. Məsələn, onlar Türkiyəyə qazın min kubmetrini 290-320 dollara satırlar, Ermənistan isə Rusiyadan qazın min kubmetrini cəmi 165 dollara alır". Əslində, hay ekspert bu açıqlaması ilə Paşinyan iqtidarının irəli sürdüyü ideyanın siyasi çalardan heç də məhrum olmadığını təsdiqləyib.

Oxuculara xatırladaq ki, 2023-cü ildə Azərbaycan 30 milyard kubmetrə yaxın qaz hasil edib ki, bunun da 22 milyardı Gürcüstan ərazisindən keçən və "British Petroleum" (BP) tərəfindən idarə olunan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə ixrac edilib. Təbii yanacağın bir hissəsi Türkiyəyə (ildə 4-6 milyard kubmetr) verilir, 16 milyard kubmetri Yunanıstan və Bolqarıstana, digər hissəsi – təxminən 8-10 milyard kubmetri isə Trans–Adriatik Boru Kəməri (TAP) vasitəsilə İtaliyaya gedir.

"Enerji prosesləri: region" seminarında çıxış edən "Qazprom Ermənistan"ın baş direktoru Aşot Akopyan qeyd edib ki, texniki baxımdan Qazax–İrəvan qaz kəmərinin bərpası tamamilə real məsələdir. "Sovet dövründə Ermənistan bu kəmərlə qaz alırdı və o zaman onun inkişafı sayəsində 6 milyard kubmetrə qədər istehlak edirdi (müqayisə üçün qeyd edək ki, hazırda Ermənistana Rusiya və İrandan ümumi qaz idxalı ildə 2,5–2,7 milyard kubmetr təşkil edir – red.). İndi aydınlaşdırmaq lazımdır ki, Qazax–İrəvan xətti 1000 və 800 millimetr diametrli iki borudan ibarətdir və onun Ermənistan ərazisindən keçən hissəsindən hələ də daxili magistral kəmər kimi istifadə olunur. Texniki cəhətdən boruların yenidən birləşdirilməsi zaman məsələsidir" – deyə Aşot Akopyan bildirib. Bundan ötrü heç bir yeni texnologiyaya ehtiyac duyulmadığını vurğulayan "Qazprom Ermənistan"ın baş direktoru əsas sualın başqa müstəvidə həllinin vacibliyinə diqqəti çəkib.

***

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** hesab edir ki, qaz



ideyasını irəli sürən Paşinyanın əsas məqsədi Rusiyadan asılılığı, ilk növbədə, enerji asılılığını azaltmaqdır. Bunun isə ən optimal və alternativ yolu təbii qazı Azərbaycandan almaqdır. Əslində, Azərbaycan rəsmiləri Ermənstana qaz nəql edilə biləcəyini istisna etmirlər. Biz Türkiyəyə, Gürcüstana və bu ölkələr üzərindən Avropaya da qaz satırıq. Yəni, eyni zamanda, qonşu Ermənistana da sata bilərik. Amma bunun gerçəkləşməsinin yeganə yolu İrəvanın Bakı ilə sülh sazişini imzalaması, Zəngəzur dəhlizinin işə düşməsinə şərait yaratmasıdır. Əgər Paşinyan bu addımları atarsa, bəli, gələcəkdə münasibətlərin normallaşması fonunda Ermənistan da Azərbaycandan qaz ala bilər. Bu layihənin Azərbaycan üçün bir faydası da o olacaq ki, bu zaman Ermənistan müəyyən mənada bizim qazımızdan asılı vəziyyətə düşəcək. Oradakı daşnak-revanşist qüvvələr şovinist şüarlarından çəkinmək məcburiyyətində qalacaqlar. Başqa cür ola bilməz. Həm Azərbaycandan qaz al, həm ərazi bütövlüyümüzü təhdid edən iddialar ortaya qoy, həm də əleyhimizə şüarlar səsləndirir? Bu iki məsələnin bir arada olması mümkünsüzdür".

E.Şahinoğlu bir daha vurğuladı ki, gələcəkdə bu məsələnin müsbət həlli üçün sülh sazişi imzalanmalıdır: "Bundan sonra İrəvan nəinki Azərbaycandan təbii qaz almaq şansını qazanar, eyni zamanda, regional layihələrə qoşulmaq imkanından da bəhrələnə bilər. Paşinyanın özü etiraf edib ki, Azərbaycan və Türkiyə ilə münasibətlər olmadığına görə Ermənistanın kənara nəqliyyat qovşağının yetmiş faizi dondurulub. Axı, onların əsas nəqliyyat yolu bu iki ölkədən keçir. Bunu anlayan Paşinyan Bakının tələbi çərçivəsində konstitusiya dəyişikliyinə getməli və sülh sazişinin imzalanmasını sürətləndirməlidir. Yalnız bundan sonra Ermənistan həm regional nəqliyyat layihələrində iştirakı, həm də Azərbaycandan təbii qazın alınması məsələsini həll edə bilər".

Əslində, Rusiya hazırda Ermənistana qazın min kubmetrini 165 dollara satırsa, "mavi yanacağı" Azərbaycandan tədarük etmək İrəvan üçün iqtisadi cəhətdən sərfəli görünməyə bilər. Amma bu məsələyə Ermənistanın Rusiyadan enerji asılılığını azaltmaq, hətta ondan qurtulmaq istəyi kontekstində yanaşsaq, o zaman İrəvanın Azərbaycan qazını hətta bundan baha qiymətə almağa razılaşacağını nəzərdən qaçırmaq olmaz.

***

Hazırda Azərbaycan qazına daha çox ehtiyac duyan Avropadır. "Qoca qitə"yə təbii qazın daha qısa marşrutla – Ukrayna ərazisindən keçən kəmər vasitəsilə nəqli variantı nəzərdən keçirilməkdədir. Yeri gəlmişkən, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bu yöndə Azərbaycanla Avropa şirkətləri arasında mümkün qaz sövdələşməsi ilə bağlı yayılan məlumatları şərh edib. Kiyevin Rusiya ilə tranzit sazişindən imtina etdiyini xatırladan Peskov Ukraynanın qaz nəqli sistemi vasitəsilə "mavi yanacağ"ın Qərbə ixracına dair Avropa şirkətləri ilə Azərbaycan arasında mümkün sövdələşmə ətrafında müzakirələrin inkişafını proqnozlaşdırmaqdan imtina edib. Amma jurnalistlər Rusiya Prezidentinin mətbuat katibindən Avropa şirkətlərinin Azərbaycanla müvafiq sövdələşməyə yaxın olması ilə bağlı mətbuatda yayılan məlumatlara münasibət bildirməyi təkidlə xahiş edəndə Peskov belə deyib: "Aydındır, biz vəziyyəti bilirik. Onu da nəzərinizə çatdırım ki, Rusiya Prezidenti Kazanda keçirdiyi mətbuat konfransında bu barədə danışıb. Orada, əslində, qazın nəqli ilə bağlı müqavilənin bu ilin sonunda başa çatacağı ilə bağlı sual qaldırıldı. Və hadisələrin bundan sonra necə cərəyan edəcəyini, Avropaya tədarükün bundan sonra necə təmin ediləcəyini, Ukraynanın artıq bu sazişi uzatmaqdan imtina etdiyini bildirdiyini nəzərə alsaq, indi heç nə deyə bilmərəm".



Mövzuya yekun olaraq onu da bildirək ki, Macarıstan və Slovakiya Ukrayna kəməri vasitəsilə Rusiya qazını Azərbaycan qazı ilə əvəz etməyə hazır olduqlarını bəyan ediblər...

Beləliklə, enerji daşıyıcılarının sülhün təminatçısı qismində çıxış etməsi günün reallığıdır. Deyəsən, bunu gec də olsa, İrəvanda da başa düşüblər...

***İmran BƏDİRXANLI***
***XQ***

# Rusiyada “vəhşi kapitalizm”in zəngin agentləri: Vardanyan və Şor

## *Onların missiyaları “desant” göndərildikləri ölkələrdə fiaskoya uğradı*

**SSRİ dağılandan sonra şimal qonşumuzun təbii sərvətlərinin istismarının özəl qurumlara transformasiyası “yeni ruslar” dedikləri oliqarxların, qısa zamanda zənginləşən, milyarderə çevrilən dünənki kiçik sahibkarların meydana çıxması ilə müşayiət olundu. İctimaiyyət onları “yeni ruslar” epiteti ilə çağırsa da, aralarında qeyri-ruslar üstünlük təşkil edirdi. “Kasıbçılıqdan knyazlığa adlamış” belə oliqarxlardan ikisi – erməni əsilli Ruben Vardanyan və moldovan İlan Şordan bəhs edəcəyik.**





“Euronews” telekanalının saytında beynəlxalq münasibətlər üzrə tanınmış ekspert, Kiyev Milli Universitetinin politologiya üzrə professoru Taras Kuzionun məqaləsi dərc olunub. Müəllif Avropa İttifaqı və onun müttəfiqləri tərəfindən Kremlin maraqlarından çıxış edən oliqarxlara oxşar yanaşmanın zəruriliyindən bəhs edir. Belələrinə nümunə olaraq o, Ruben Vardanyan və İlan Şorun adını çəkir.

Bəs, Ruben Vardanyanla İlan Şoru birləşdirən nədir? Birinci hayların “xilaskarı” kimi Xankəndiyə göndərilmiş “uğursuz desant”, ikinci isə moldovalı müxalif siyasətçi, moskvayönlü binesmen, postsovet məkanında Kremllə əlaqələri sayəsində milyardlar qazanan oliqarxlardır. Hər ikisi müəyyən dərəcədə Qərb ölkələri və ya onların müttəfiqləri tərəfindən qoyulan məhdudiyyətlərə və ya sanksiyalara məruz qalır. Artıq heç kəsə sirr deyil ki, Moskva onları Ermənistan və Moldovada iğtişaşlar törətmək, bu yolla hakimiyyəti ələ keçirmək, Rusiyanın Avrasiyadakı təsirini qoruyub saxlamaq üçün göndərmişdi.

Ekspertin yazdığına görə, Vardanyan və Şor Ermənistan və Moldovada, guya, Qərb liberal demokratiyasını qurmaq, qanunun aliliyini gücləndirmək missiyasını yerinə yetirməli idilər. Fəqət indi onlar Rusiyanın dominantlıq etdiyi Avrasiya məkanından uzaqda Avropaya inteqrasiya səylərinə artıq təhlükə yaradırlar.

“Əgər biz, həqiqətən də, Qərb dəyərlərini və normalarını müdafiə etməyə və dəstəkləməyə çalışırıqsa, onlar bərabər səviyyədə qiymətləndirilməlidir, çünki hər ikisi Kremlin etibarlı emissarıdır”, – yazan müəllif faktlara əsaslanır.

*

Faktlar isə həmişə amansız olub. Vardanyan Azərbaycanın suveren ərazisindəki qondarma rejimin tərkibinə tanınmamış “dqr”ə, qeyri-qanuni etnik erməni kvazi-dövlətinin “dövlət naziri” postuna Moskva tərəfindən təyin olunmuşdu. Onun əsas vəzifəsi bölgəni Rusiyanın təsir orbitində saxlamaq, Ermənistanda Avropanın dəstəklədiyi və Kreml üçün arzuolunmaz persona sayılan baş nazir Nikol Paşinyan iqtidarını devirmək idi. Məxfi plana görə, Xankəndidəki müvəqqəti “fəaliyyəti” onun İrəvana “hücumu” üçün tramplin rolunu oynayırdı. İndi Vardanyan Bakıda həbsxanada bütün bunlar barədə memuar yazmaq barədə düşünür...

Azərbaycan dilində həm adı, həm də soyadı maraqlı assosiasiya doğuran İlan Şora gəldikdə isə o, Moldova Avropa İttifaqına üzvlüklə bağlı keçirilən referendumda 130 min saxta səsi maliyyələşdirməkdə ittiham olunur. Onun bu “fəaliyyəti” Moldovanın Rusiyanın nəzarətində olan Avrasiya İqtisadi Birliyinə qoşulmasına gətirib çıxarmalı idi.

Bütün bunları məqaləsində ardıcıllıqla nəql edən professor Taras Kuzio belə bir qənaətə gəlir: “Əgər Qərb, həqiqətən də, Rusiyanın revanşist meyllərinə qarşı çıxmaq, azadlıq, ədalət və demokratiya prinsiplərini dəstəkləmək niyyətindədirsə, o, Avropaya qoşulmaq istəyən ölkələrə sabitliyi pozmaq missiyası ilə göndərilən adamlar kimi, Kremlin hər iki agentinə eyni münasibət göstərməlidir”.

Yəni, tanınmış ekspertin sözünün “mustafası” ondan ibarətdir ki, Qərb mediası Kremlin nəzarəti altında olan bu psevdo-oliqarxların fəaliyyəti və niyyətləri barədə diqqətlə və məsuliyyətlə məlumat verməlidir. Bununla belə görünür ki, mediada bəziləri yaxşı təşkil olunmuş PR kampaniyalarına boyun əyməyə hazırdırlar. İki oliqarxdan və Kreml agentindən Vardanyan üçün işləyən PR məsləhətçiləri öz müştəriləri haqqında fəal şəkildə yalan məlumatlar yayırlar.

*

Məqalə müəllifi haqlı olaraq ortaya belə bir sual qoyur: “Niyə Vardanyanın həbsdə olduğu barədə xəbərlər Azərbaycanın evsahibliyi etməyə hazırlaşdığı BMT-nin qlobal iqlim dəyişikliyi sammitinin – COP29-un keçirilməsinə xələl gətirməkdən ötrü mümkün qədər geniş media platformalarında yayılır?”. ABŞ-nin varlı “PR” firması sayılan “Edelman” tərəfindən təşviq edilən kampaniyaya görə, Ruben Vardanyan xeyriyyəçi və müqəddəs atadır. Bəlkə də bu, doğrudur. İntəhası, bu xarakterli məlumatlar cinayətin bağışlanması üçün əsas ola bilməz. Yuxarıda qeyd etdiyimiz kimi, erməni əsilli, Rusiya mənşəli, Ukraynada sanksiyaya məruz qalmış korrupsioner oliqarx pulunu ötən əsrin sonlarında postsovet Rusiyasında hökmranlıq edən “vəhşi kapitalizm” dövründə qazanıb. Bu baxımdan o, Şora bənzəyir. Rusiyanın gizli polisi, FSB onların üzərinə kifayət edəcək miqdarda çirkli əməliyyatları qoymaqla, kukla kimi idarə etməyə qərar vermişdi. Belə olmasaydı, Vardanyan 70 ofşor şirkət şəbəkəsi vasitəsilə təsis etdiyi və işlətdiyi “Troyka dialoq” özəl bankının məşhur “Troyka Laundromat” sxemi ilə 4,6 milyard dollar pul yumaqda ittiham olunmazdı. Onun səlahiyyətinə Rusiyaya hərbi logistik xidmətlərin əsas təchizatçısı olan “Volqa-Dnepr”də rəhbər vəzifə də daxildir. Vardanyanın Ukraynanın sanksiyalarına məruz qalmasının səbəbi isə Kremlin iki il bundan əvvəl Kiyevə qarşı başlatdığı xüsusi hərbi əməliyyatlarda şərik kimi adının hallanması idi. Həmin əməliyyatlarda Vardanyanın izlərinin tapılması heç də təəccüblü deyildir.

“Euronews” telekanalının saytında işıq üzü görən analitik məqalədə daha sonra deyilir ki, Ermənistanın nəzarətində olan, Rusiya və İran tərəfindən dəstəklənən separatçı “dqr”a göndərmək üçün FSB ilə işbirliyi olan etnik ermənidən daha uğurlu kadr tapıla bilməzdi. İntəhası, keçən ilin sentyabrında özünü “respublika” elan etmiş həmin qondarma rejim dağılanda Ruben Vardanyan ərazini fərari kimi tərk etmək istəyərkən Azərbaycan hakimiyyəti tərəfindən saxlanıldı. Bunun ardınca müəllif etiraf edir: “İstənilən müstəqil müşahidəçi üçün aydındır ki, Vardanyan məsələsi quramadır. Tam şəffaflıq naminə etiraf etməliyəm ki, bu adama qarşı obyektiv ola bilmərəm. Böyük Britaniyada doğulmuş qürurlu ukraynalı vətənpərvər kimi mən Kremlin agenti olan və Ukrayna kimliyinin məhv edilməsinə yönəlmiş müharibəni dəstəkləyən bir adama qərəzsiz yanaşa bilmərəm”.

*

Məqaləsinin sonunda professor Taras Kuzio Vardanyanın 2014-cü ildə Moldova banklarına qarşı fırıldaqçılıq yolu ilə sərvət qazanan Şorla eyni səviyyədə cəzalandırılmalı olduğunu yazır. “On il bundan əvvəl ölkənin ÜDM-nin 12 faizi həcmində vəsait ofşor şirkətlərin hesablarına köçürülüb və yoxa çıxıb” – deyə qeyd edən ukraynalı ekspert Qərb dövlətlərinin Kremlin xüsusi xidmətində olan bu üzdəniraq oliqarxlara qarşı hansı addımları atmalı olduğunu sadalayır. Birincisi, ictimaiyyət Vardanyan və Şor barəsində həqiqəti gizlətməyə çalışan Qərbin muzdlu mediasının piar təbliğatına inanmamalıdır. İkincisi, Qərb hərəkətə keçməli və Ukrayna hökuməti tərəfindən artıq sanksiyaya məruz qalanlara qarşı sanksiyalar tətbiq etməlidir. Kiyevdəki müttəfiqlərimizə dəstəyi maksimuma çatdırmaq istəyiriksə, bu işdə heç bir boşluğun buraxılmadığına əmin olmalıyıq. Əgər Ukrayna hesab edirsə ki, Vardanyan kimi korrupsioner, Kreml agenti onun sağ qalması üçün təhlükə yaradır, o zaman Qərb də bunu etməlidir.

ABŞ, Böyük Britaniya və Aİ Rusiyanın Moldovanın daxili işlərinə müdaxiləsini təşkil etməkdə oynadığı rola görə Şora qarşı artıq sanksiyalar tətbiq edib. Bu kontekstdə Vardanyanın da əməllərinə həm Azərbaycanın, həm də Ermənistanın siyasi işlərinə qarışmasında iştiraka görə başqa cür baxılması üçün zərrə qədər əsas yoxdur. Vardanyanın müharibə və işğal yolu ilə rus imperializmini dəstəkləmək üçün etdiklərinə Şor seçki saxtakarlığı ilə nail olmağa çalışıb.

Müəllif məqaləsinə bu məntiqi nəticə ilə nöqtə qoyur: “Aİ və onun Fransa, ABŞ kimi müttəfiqləri Moskvanın bu iki oliqarx agentinə qarşı bərabər və sərt addımlar atmalı, onlara haqq qazandırmaq üçün başladılan hər hansı piar cəhdlərinə dəstək verməməlidirlər”.

***İ.HƏSƏNQALA***
***XQ***

# Deyəsən, Baqrat “geosiyasi qütb”ünü dəyişir

**(əvvəli 1-ci səhifədə)**





Kilsə indi də öz əməllərindən qalmır. Hər vasitə ilə çalışır ki, iki ölkənin münasibətləri qaydaya düşməsin, sahmana salınmasın. Bu məqsədlə Tavuş yeparxiyasına rəhbərlik edən arxiyepiskop Baqrat Qalstanyanı irəli verib. Ermənistanla Azərbaycan arasında çoxdan gözlənilən delimitasiya-demarkasiya prosesinə qarşı çıxmaq Baqratın ilk işi oldu. O, elə həmin günlərdə etiraz aksiyalarının başladığını elan etmişdi. May ayının 4-də sərhədyanı Kirants kəndindən İrəvana doğru yürüş edərək mayın 9-da paytaxta yetişmiş, həmin gün mərkəzi meydanda tərəfdarları ilə mitinq keçirmişdi. Ancaq onun çağırışına səs verənlərin sayı çox az olmuşdu. Bu isə Ermənistan cəmiyyətinin ölkəni 20 ildən çox çapıb-talamış, bütün sahələri bərbad günə salmış Robert Koçaryan–Serj Sarkisyan cütlüyünün başçılıq etdikləri Qarabağ klanının, digər revanşist kəsimin, eləcə də, onlarla bir cərgədə addımlayan kilsənin siyasi oyunlarına, fitnəkarlığına qoşulmamaqda israrlı olduğunun daha bir göstəricisi sayıla bilər.

Buna baxmayaraq, keşiş siyasi oyunlarını yenə də müxtəlif formalarda davam etdirdi. Baqrat bütün yaz ayları boyunca Ermənistan cəmiyyətini gərginlikdə saxlamağa çalışdı. Yolları bağladı, iş yerlərinə, universitetlərə gedərək tətil etməyi, mitinqlərə qatılmağı tələb etdi. Nəhayət, iyunun 12-də İrəvanda baş verənlər bu oyunların kulminasiya nöqtəsi oldu. Həmin gün onlar parlament binasının qarşısında polislə qarşıdurmaya gedərək təxribat törətdilər. Ancaq yenə də istədikləri nəticəni əldə edə bilmədilər. Erməni xalqı arxasında Qarabağ klanının dayandığı heç kəsdə şübhə doğurmayan bu qaragüruha “yox!” dedi. Hakimiyyətə gəlmək üçün bütün çapalamaların fayda vermədiyini görən müxalifət hərəkatının etirazları səngidi. Keşiş, necə deyərlər, qınına çəkildi. Ermənistan mediası yay ərzində onunla bağlı ara-sıra xəbərlər yaysa da, Baqrat əsasən sakitlik nümayiş etdirdi. Arxiyepiskop onu da bildirmişdi ki, müxalifət öz mübarizə taktikasına yenidən baxacaq.

Siyasi proseslərə hər zaman bir dinamiklik gətirən payız fəsli başlar-başlamaz keşişin də, necə deyərlər, qırışığı açıldı. Ona sifariş göndərən mərkəzlər “haydı, irəli!” komandası verdilər. Beləliklə, Nikol Paşinyan hakimiyyətinə “qızmar payız” vəd edən Baqrat hərəkətə keçdi. O, sentyabrın 22-də hərəkatın “aktiv mübarizəsinin” bərpa olunduğunu elan etdi. Ancaq “Vətən naminə Tavuş” adlanan qondarma hərəkatın adını başqa bir qondarma ada – “Müqəddəs mübarizə” adına dəyişən “srbazan”a sarı gedənlərin sayı bu dəfə daha az oldu. Arabir bərpa olunan aksiyalar, demək olar ki, dərhal söndü. Hazırkı hakimiyyətin devrilməsini və Qarabağın qaytarılmasını tələb edən Baqrata ciddi dəstək verən olmadı.

Buna baxmayaraq, Qalstanyan səs-küylü bəyanatlar verməyi xoşlayır. O, oktyabrın 3-də ictimai televiziyada baş nazirə müraciət edərək bildirib ki, Paşinyan hökumətə rəhbərlik etdiyi müddətcə onların mübarizəsi davam edəcək. Oktyabrın 8-də isə məhkəmə Qalstanyanın Paşinyana qarşı iddiasını qəbul edib. Etirazçıların lideri tələb edir ki, baş nazir “iyunun 12-də parlament binası yaxınlığında keçirilən aksiyada polislərin “daşqalaq” edilməsinin təşkilatçısı o olub” bəyanatını açıq şəkildə təkzib etsin.

Baqratla bağlı yayılan son məlumat bu mənada maraq doğurur. “Müqəddəs mübarizə” teleqram kanalı oktyabrın 30-da belə bir məlumat yaymışdı ki, arxiyepiskop tibbi müayinədən keçmək üçün iki günlük xaricə səfər edəcək.

Məlumatda keşişin hansı xəstəlikdən əziyyət çəkdiyi və hansı ölkəyə gedəcəyi qeyd edilməmişdi. Bu isə müəyyən şübhələrə yol açmışdı. Erməni mətbuatının yazdığı kimi, tibbi müayinə məsələsi, əslində, sadəcə, bir örtükdür. Qalstanyan ABŞ-yə, ən böyük erməni diasporunun yaşadığı Kaliforniyaya gedib. Ermənistan müxalifətindəki mənbələr iddia edirlər ki, Baqratın hərəkatı üçün həm maliyyə, həm də siyasi motivlər tükəndiyi üçün arxiyepiskop Ermənistanda etirazları davam etdirmək və N.Paşinyan hökumətinə qarşı mübarizə aparmaq üçün diaspor və lobbi strukturlarından pul istəməyə hazırlaşır. Digər mənbələr B.Qalstanyanın Ermənistanı, ümumiyyətlə, birdəfəlik tərk etmək qərarına gəldiyini iddia edirlər.

“Hraparak” qəzeti bu “sirri” çözə bilib. Qəzet mənbələrə istinadən yazır ki, müxalifət hərəkatının lideri Rusiyaya gedibmiş. Səfərdən məqsəd isə hansısa tibbi müayinədən keçmək yox, Moskvada müəyyən dairələrlə görüşmək imiş. Ancaq onun Moskvada kimlərlə görüşdü, hansı məsələləri müzakirə etdiyi, istədiyi dəstəyi alıb-almadığı barədə əlavə məlumat verilməyib.

Erməni ekspertləri də Baqratın hərəkatının artıq iflas etdiyini bildirirlər. İctimai-siyasi xadim Narek Malyanın fikrincə, “Müqəddəs mübarizə”nin süqutu artıq baş vermiş hadisədir. O, yazır: “Baqrat srbazanın müsahibəsinə baxdım, möhtərəmin nitqini dinləmək çox çətin olsa da, bunun öhdəsindən gəldim. Sıfır proqram, sıfıra yaxın məzmun, əvəzinə özündən razılıq, lovğalıq və təkəbbürlə doludur. Təəssüf edirəm ki, bir çox ləyaqətli və vətənpərvər insanlar möhtərəm Baqratın hərəkətlərinə ümidlə baxırdılar. Onun hərəkətlərindən yeganə faydalananlar indiki hakimiyyət orqanları idi və bu, belə olaraq qalır. Bir neçə ay əvvəl həbsxanada məni ziyarət edən deputatlardan, hərəkatın səmimi, fədakar liderlərindən biri məndən niyə “Müqəddəs mübarizə”ni dəstəkləmədiyimi soruşdu. Cavab verdim ki, möhtərəm mənim susmağımı dəstək kimi qəbul edə bilər. Əzizlərim, əvvəlcədən proqnozlaşdırıla bilən “Müqəddəs mübarizə”nin süqutu artıq başa çatmış faktdır. Daha etimad krediti yoxdur”.

N.Malyan hesab edir ki, süqutun iki səbəbi var: “Birincisi, baş nazirliyə namizədin son dərəcə yanlış seçilməsi, ikincisi, hakimiyyətin dəyişdirilməsi üçün proqramın tamamilə mövcud olmaması. Yaxın bir neçə gün ərzində qeyd etdiyim iki səbəbi hansısa formada təqdim edəcəm, həmçinin bəzi açıqlamalar verəcəm”.

**Politoloq İlyas Hüseynov** isə “XQ”yə açıqlamasında bildirdi ki, Baqrat öz məqsədinə çatmaq üçün mübarizəsini davam etdirmək niyyətindədir. Zaman da göstərdi ki, onun arxasında böyük qüvvə dayanmır. Maraqlıdır ki, Paşinyan özü 2018-ci ildə hakimiyyətə gələndə geniş xalq kütlələrinə arxalanırdı və onların dəstəyi ilə özünün siyasi məqsədlərinə çatdı. İlk baxışdan mümkünsüz görünən prosesin həllinə, yəni Serj Sarkisyan rejimini iqtidardan uzaqlaşdırmağa nail oldu və öz hakimiyyətini qurdu: “İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra – 2021-ci ilin iyununda ona göstərilən etimad, verilən mandat həm də əhalinin sülh və təhlükəsizliyə səs verməsi idi. Bu gün isə revanşizmin artan dalğası fonunda, Ermənistanın silahlanması müstəvisində radikal qüvvələrin yenidən meydanlarda görünmələri yaxşı hal deyil. Bu, bölgədəki gərginliyi bir qədər də artıran məqamdır”.

İ.Hüseynov qeyd etdi ki, digər tərəfdən özünü əsas müxalifət lideri kimi göstərməyə çalışan B.Qalstanyan həm də Kanada vətəndaşıdır. Bu isə onu deməyə əsas verir ki, onun arxasında dayanan qüvvələr ayrı geosiyasi mərkəzləri təmsil edirlər. Sanki Qərbin Ermənistanda hakimiyyətə gətirdiyi N.Paşinyan üçün bir əvəzləyici düşünülmüşdü. Amma onun səfərləri, davranışları, eks-prezident Robert Koçaryanın ofisində görünməsi, onunla məsləhətləşməsi belə təəssürat yaradır və əminlik formalaşdırır ki, onu idarə edən qüvvələr tamamilə ayrı mərkəzdə yerləşirlər, ayrı geosiyasi qütbü təmsil edirlər. Müalicə adı altında Rusiyaya səfər etməsi də Baqratın təlimatlandırılması funksiyasını yerinə yetirəcək.

Ancaq politoloq hesab edir ki, bunun nə dərəcədə uğurlu olub-olmayacağını indidən də proqnozlaşdırmaq olar. Cəmiyyətdə Paşinyanın tərəfdarlarının sayı çoxdur, onun dayaqları möhkəmdir. Paşinyanla bağlı müxtəlif sosioloji sorğular keçirilsə də, ona siyasi imicin ölçülməsinin müxtəlif metodları tətbiq edilsə də, Nikola hələ də güclü alternativ görünmür. Baqratın din xadimi olması səbəbindən dinin, yaxud kilsənin gücü ilə hansısa digər qüvvəyə meydan verilməsi ehtimalları kifayət qədər aşağıdır. Bu baxımdan müsahibimiz hesab edir ki, indiyədək aparılan fəaliyyət heç bir fayda vermədiyi kimi bu səfər də səmərəsiz qalacaq. Bundan sonra səmərə verəcəyi də inandırıcı görünmür.

***Səxavət HƏMİD***
***XQ***

# ABŞ-də seçkilər: son sözü xalq deyəcək



## XXI əsrdə ABŞ-də prezident seçkiləri

Dünyanın ən qüdrətli dövləti kimi ABŞ-də prezident seçkiləri həmişə diqqət mərkəzində olub. Hətta həmin seçkilərin nəticələrinə qlobal miqyasda düzəni müəyyən edən hadisə kimi baxıblar. XXI əsrdə Amerikadakı prezident seçkiləri dünya üçün daha aktual bir hadisə kimi qiymətləndirilməyə başlanmışdır. Ona görə yox ki, bu əsrdə ABŞ daha güclü bir dövlətə çevrilib. Əksinə, XX əsrdə adət etdiyi dünya liderliyi imici tədricən zəifləyən güclü dövlət kimi situasiyanı öz xeyrinə dəyişmək üçün riskli və tələsik addımlar atmışdır.

Filosoflar, politoloqlar, geostrateqlər və analitiklər bunu Amerikanın dünya ağalığı statusunu itirmək qorxusu ilə yanaşı, bütövlükdə, dünya siyasi mühitində özünü göstərən ciddi geosiyasi, siyasi, hərbi, texnoloji, iqtisadi, sosial, mədəni və digər dəyişikliklərlə izah edirlər. Yazırlar ki, bütövlükdə, dünyanın “geosiyasi inforserləri” (Blyaxer) öz funksiyalarını yerinə yetirə bilmirlər və hələ yeniləri formalaşmamışdır. Xatırladaq ki, “geosiyasi inforser” situasiyaya nəzarət edən dövlətlər qrupu anlamını verir. Bu mənada qlobal geosiyasi mühitdə yaranmış ldierlik böhranından bəhs etmək olar.

Digər tərəfdən, sosialist düşərgəsinin dağılması ilə XX əsr geosiyasətində “Qərb–SSRİ dixotomiyası”nın pozulmasına baxmayaraq, tədricən meydana başqa alternativ güclər çıxmağa başladı. Onların sırasında sürətlə yüksələn Çin, böhrandan çıxmağa çalışan Rusiya, Hindistan, Braziliya, Türkiyə, Argentina və yeni texnologiyalarla sürətlə yeniləşən dövlətlər vardır. Ayrıca, Qoşulmama Hərəkatı 120 dövləti birləşdirməklə alternativ geosiyasi güc olmaq iddiasındadır.

Amerika bütün bunlara reaksiya verməli idi. Bu aspektdə XXI əsrdə bu qüdrətli dövlətdə keçirilən prezident seçkilərinin fəlsəfi və politoloji izahı maraqlıdır.

## “Lider”in “legitim” müharibələri

Nəzəri olaraq “liderin hər bir müharibəsi legitimdirmi?” sualı qoyulmur. Lakin bütövlükdə, müharibənin legitim olub-olmaması ilə bağlı mübahisələr, müzakirələr, fikir dartışmaları aparılır. Ümumi insani səviyyədə hər bir müharibə itki və ölümdür, dağıdıcılıqdır. Lakin hər bir cəmiyyətin və ölkənin özünü qorumaq kimi təbii haqqı da vardır. Buna görə də Vətən müharibəsi tam legitim və hətta müqəddəsdir. Təəssüf ki, özünü dünyanın lideri, ən demokratiki və güclüsü sayan ABŞ-nin XXI əsrdə apardığı heç bir müharibəni nə legitim saymaq, nə də onlara Vətən müharibəsi demək olar. Onların hər biri Amerika torpaqlarından 10 min kilometrlərlə uzaqlarda, başqasının müstəqilliyinə, ərazi bütövlüyünə qəsd və mövcud hakimiyyəti devirmək iddiası kimi qiymətləndirilə bilər. Bu zaman kiminsə özündən “rəngli inqilab” kimi ibarələr uydurması real vəziyyəti qətiyyən dəyişmir. Faktlar belə diktə edir.

Amerika 2001-ci ildə Əfqanıstanda müharibəyə başladı. Guya, sovetlərin səhvlərindən nəticə çıxarmışdı və guya, Vaşinqtonun müharibəsi “Əfqanıstana xeyirxah münasibətin əlaməti” idi. Nəticəsi nə oldu? Birincisi, bütün dünyada İslamın adına ləkə olan, radikal və terrorçu “Əl-Qaidə” yarandı. Terror əsasən müsəlmanları vurdu. Onların həm həyatlarını, həm də dinlərinin əsl mənasını əllərindən aldı.

İkincisi, 200 illik müharibədən sonra Əfqanıstanda radikal mövqeli “Taliban” hakimiyyətə gəldi. “Demokratik” Amerika, doğrudanmı radikal dini rejim yetişdirmək üçün qan tökmüşdü? Budur “demokratiyanın dünyaya yayılması məntiqi və tərzi?

Lakin məsələ bununla bitmədi. 2003-cü ildə Amerika İraqda müharibəyə başladı. Bu müharibə də feili olaraq 2011-ci ildə başa çatdı, lakin hələ də fəsadları özünü göstərir. Hansı fəsadlar?

Birincisi, İraq terror yuvalarından biri olaraq qalır. Burada müxtəlif məqsədli terror qruplaşmaları hələ də at oynadırlar. Onların sırasında PKK-dan tutmuş İran və İsrail meyilli çoxlu sayda qruplaşmalar vardır. Türkiyə hələ də onların kökünü kəsə bilmir.

İkincisi, İraq siyasi olaraq bölündü. Orada etnik mənsubluğa əsaslanan muxtar qurum yaradıldı. Hələlik “fağırdırlar”, ancaq türkmənlərə qarşı terror nədənsə mərkəzi hökumətlə yanaşı, muxtar qurumun da “gözündən yayınır”. Kərkük və Mosula iddialar azalmır.

Amerikanın bu “demokratik savaşı”nın nəticəsi nə oldu? Səddam Hüseyn vəhşicəsinə asıldı (Ş.Hüseynin də siyasəti vəhşilik kateqoriyasına aid ola bilərdi, lakin özünü demokratiya carçısı kimi qələmə verən bir dövlətin vəhşi olması hansı “legitimliyə” aiddir?). Daha dəhşətlisi isə meydana yeni və daha amansız terror təşkilatının – İŞİD-in çıxması oldu! Bu İŞİD də, nədənsə, adını müsəlman təşkilatı qoyub, ancaq əsas olaraq müsəlmanların qənimidir. Onun vurduğu dağıdıcı zərbələri İslam ölkələri hələ uzun müddət unutmayacaqlar.

Düşündürücüdür: Amerikanın Əfqanıstana müdaxiləsi radikal “Əl-Qaidə”, İraqa müdaxiləsi isə terrorçu İŞİD yaratdı! Amerikanlılarmı demokratiya ilə terroru səhv salmışlar, yoxsa dünyamı zəkasını itirmişdir?

Hər bir halda ABŞ-nin İŞİD əsəri yeni faciə yaratdı – Suriya qarışdı. Ölüm, itim, terror, insan haqlarının kütləvi şəkildə pozulması, toqquşmalar və s. baş alıb gedir. Vaşinqton hansı məntiqi çərçivəyə salsa da, fəaliyyətinin Suriya fraqmentinin nəticələrindən biri YPG/PYD terror təşkilatı oldu və indi də demokratiya adını daşıyan qondarma bir qurum yaratmışlar. Onların işi isə əsasən Türkiyəyə qarşı terror törətməklə bağlıdır. Bu məsələdə Amerikanın yaratdığı və intensiv yardım etdiyi terror qruplarına türklərə qarşı terror törətməkdə tam “legitimlik” bəxş ediblər.

## ABŞ prezidentləri hara baxırlar?

Qəribə sualdır – hara baxacaqlar? Ağ evin pəncərəsindən Vaşinqtonun mənzərəsinə. Siyasətdə rəqiblərinə qarşı arqument toplamağa baxırlar. Geosiyasətdə hansı regionda haranı qarışdırmağa diqqət edirlər. Hərbidə yeni silahlar, rəqiblərlə amansız mübarizələr var. Texnologiyada Çinin qarşısını necə almaq dərdləridir. Cənubi Qafqazda ermənilərə necə havadarlıq etmək var. Daha nələr?

Prezidentlərin siyahısı da maraqlıdır. 2000-2008-ci illərdə kiçik Corc Buş prezident oldu. 2008-ci ildə Tbilisidə səhnədə caz oynadı. Sonra getdi.

2008-2016-cı illərdə Barak Obama Amerikaya başçılıq etdi. O da Yaxın Şərqi pis günə qoyub, əsl “demokrat” kimi getdi. 2016-2020-ci illərdə Amerika fəlsəfi və politoloji fikrinin hələ də “dəli”, yaxud güclü olduğunu müəyyən edə bilmədiyi Donald Tramp hakimiyyətdə qaldı. 2020-ci ildən isə nə düz-əməlli yeriyə, nə də məntiqlə danışa bilən Cozef Bayden Ağ evə ağalıq etdi. İndi isə K.Harrislə D.Tramp prezidentlik uğrunda ölüm-dirim savaşı aparırlar.

Amerikanın XXI əsr müharibələri kiçik C.Buşla başladı. Onun başladığı müharibələrin fəsadlarını sonra gələn heç bir prezident aradan qaldıra bilməmişdir. Əksinə, həmin fəsadlara Çinlə Sakit Okean hövzəsində gərgin qarşıdurma və COVID19 əlavə olunmuşdur. Nədənsə, illər ötdükcə münaqişələrin sayı azalmır və onun bir ucu gedib okeanın o tayına çıxır.

Bunlarla yanaşı, Amerikada prezident seçkiləri və bütövlükdə, ABŞ-nin xarici siyasət kursu ilə əlaqədar iki məqam özünü göstərməyə başlamışdır. Onlardan biri ideoloji xarakterlidir. Mərhum Henri Kissincer ABŞ-nin xarici siyasət kursunun ziddiyyətli olduğunu anlamışdı və çıxış yolu kimi təklif edirdi ki, realizmlə idealizmi sintez etmək gərəkdir. Yəni Amerika dəyərlərini dünyaya yaymağına yaymalıdır, lakin onu daha “ağıllı” etməlidir. Konkret olaraq, liberalizmlə realpolitikanı sintez etməyi bacarmalıdır.

Deyəsən, H.Kissincerin sözlərinə əməl edə biləcək prezident ABŞ-də hələ seçilməmişdir. H.Kissincer də taxtalı köydədir. Onun Bildenberq klubunun ilk 3 adamından biri olması da, deyəsən, işə yaramır.

## Tramp fenomeni: güclü, yaxud “dəli”?

İkinci məqam, Amerika siysətində Donald Trampın “külək kimi əsməkdə” davam etməsi ilə bağlıdır. Bu siyasətçi, sözün həqiqi mənasında, ABŞ siyasi səhnəsinin “baş aktyorudur”! Hərəkəti, davranışı, həyat tərzi, siyasi proqnozları, mövqeyi, beynəlxalq münasibətlərə özünün münasibəti, Amerikanın dünyadakı yeri və rolu haqqında düşüncələri, biznesmen kimi komfort həyata bağlılığı ilə seçilir. Ağlı da yerindədir – hər halda C.Bayden kimi iki gündən bir yıxılmır və Cona Conson demir.

Ancaq 2016-cı ildən sonra Amerikanın tanınmş politoloqları və siyasi texnoloqları bir mövzuya girişməyə başladılar – Tramp siyasi lider kimi güclüdür, yoxsa “dəli”dir? Məsələn, Arçi Braun kimi bir mütəxəssis D.Trampın lider tipini müəyyən etmək üçün dünyanın bir sıra məşhur liderlərinin tipini politoloji araşdırmağa başlamışdır. Gəldiyi qənaət belədir ki¸ Tramp onların heç birinə aid deyildir. Cəmiyyətdə də fikir ayrılığı mövcuddur – bir qism Trampı güclü sayır, digər qism isə “dəli”.

Ancaq ortada açıq bir paradoks var. Çünki dəli dedikləri adam Respublika partiyasının prezidentliyə namizədidir. Faktiki olaraq bu “dəli” ABŞ-nin prezidentliyə iki namizədindən biridir. Bəlkə də bu yazı dərc olunana qədər prezident seçildi. Olmaya da bilər. Lakin fakt faktdır – Amerika cəmiyyətində D.Trampı dəstəkləyənlər çoxdur və onun namizədliyini Respublika partiyası irəli sürmüşdür. Qəribə sual meydana çıxır: Amerikada neçə milyon “dəli” var? Əlbəttə, sual tam ritorikdir və kimisə təhqir etməyə yönəldilməmişdir. Ancaq politoloqlar ciddi elmi əsər yazanda Trampın güclü siyasətçiliyi ilə yanaşı, “dəli” olması məsələsi ilə müqayisə edirlərsə, bizlik bir iş yoxdur.

Digər tərəfdən, əlbəttə, biz əminik ki, D.Tramp dəli deyildir. Onu siyasi mövqeyinə görə belə təqdim etməyə çalışırlar. Yeganə “günahı” fərqli düşünməsidir. Buna görə kimlərsə onu “günah keçisi” etməyə çalışır. Lakin hər dəfə də reallıq öz sözünü deyir.

## Harris, yoxsa Tramp?

Əslində, elə bir fərqi yoxdur. Kimin seçilməsindən asılı olmayaraq ABŞ öncədən müəyyən edilmiş xarici siyasətinin prioritetləri üzrə hərəkət edəcək. Bir sıra məsələlərdə Harrisin Trampdan və Trampın Harrisdən fərqli addımları ola bilər. Bütün variantlarda isə Amerikanın yenidən inforser olmağa çalışacağı şübhə doğurmur. Bu mənada noyabrın 5-i həm maraqlıdır, həm də sonucda elə bir şeyi həll etmir!

O cümlədən¸ çətin ki, ABŞ-nin yeni prezidenti Cənubi Qafqaz istiqamətində ədalətli siyasət aparmağa çalışa. Müəyyən nüansları çıxmaq şərti ilə Amerika bu geosiyasi məkana “907-ci düzəliş”in pəncərəsindən baxacaq! Bu, qəzetin mövqeyi deyildir, şəxsən mənim proqnozumdur!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Zəfər marafonunun 40-cı günü**

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Şanlı Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

# Vətən müharibəsinin xronikası: 5 noyabr



• Noyabrın 4-ü gün ərzində və 5-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur olub.

Ötən sutka ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan–Azərbaycan dövlət sərhədində və cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.



Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 5-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, əsasən Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumlarının, Ermənistan–Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Tərtər istiqamətində endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu darmadağın edilib.

Anar Eyvazov deyib ki, Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks–hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Ermənistandan fərqli olaraq, biz Azərbaycan xalqına və dünya ictimaiyyətinə Ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırırıq. Bu video təsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir.

“Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir”, – deyə Anar Eyvazov vurğulayıb.

Cəbhənin bəzi sahələrində çoxsaylı canlı qüvvə və hərbi texnika itirən düşmən geri çəkilməyə məcbur edilib. İşğalçı ordunun hücumlarının, Ermənistan–Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu istiqamətində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

• Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. Dövlətimizin başçısı müsahibədə jurnalistin – “Dağlıq Qarabağdakı müharibənin altıncı həftəsi başlayır. Cəbhədə hazırda vəziyyət necədir?” – sualında cavabında deyib: “Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik”.

Ali Baş Komandan daha sonra bildirib ki, bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və yeri gəlmişkən, artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq”.

• Azərbaycan Müdafiə Nazirliyi Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Cəbhənin Tərtər istiqamətində düşmənin hərbi infrastrukturuna ciddi zərbələr endirilib. Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndindəki 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dəqiq artilleriya atəşi ilə dağıdılıb.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin döyüş meydanında atıb qaçdığı və qənimət kimi bölmələrimizin ələ keçirdiyi hərbi texnikaların görüntülərini paylaşıb.

• Ermənistan ordusunun 41-ci artilleriya alayının batareyası və hərbi kolonu məhv edilib.

• Düşmənin dinc əhaliyə qarşı təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək 92 mülki şəxs həlak olub, 404 nəfər xəsarət alıb, 2971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Ermənistan ordusu Goranboy rayonunun Meşəli kəndinə “Smerç” raketi atıb.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 467** **Bakı şəhəri, 31 oktyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq , Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyul tarixli 330 nömrəli, 17 iyul tarixli 342 nömrəli və 3 sentyabr tarixli 382 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3917 32 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3917 32 000 | – – digərləri, digər materiallarla armaturlaşdırılmamış və ya kombinasiya edilməmiş, fitinqlərsiz: | | |
| 3917 32 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3917 32 000 9 | – – – digərləri | – | 15 |

1.2. 3919 10 120 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 120 | – – – polivinilxloriddən və ya polietilendən: | | |
| 3919 10 120 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3919 10 120 9 | – – – – digərləri | – | 15 |

1.3. 3919 10 150 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 150 | – – – polipropilendən: | | |
| 3919 10 150 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3919 10 150 9 | – – – – digərləri | – | 5 |

1.4. 3919 10 190 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 190 | – – – digərləri: | | |
| 3919 10 190 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3919 10 190 9 | – – – – digərləri | – | 5 |

1.5. 3919 10 800 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 800 | – – digərləri: | | |
| 3919 10 800 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3919 10 800 9 | – – – digərləri | – | 5 |

1.6. 3926 90 970 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3926 90 970 | – – – digərləri: | | |
| 3926 90 970 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə bayraqlar | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3926 90 970 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə bayraqlar | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 3926 90 970 9 | – – – – digərləri | – | 15 |

1.7. 4010 31 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4010 31 000 | – – xarici çevrəsinin uzunluğu 60 sm-dən çox olan, lakin 180 sm-dən çox olmayan, en kəsiyi trapesşəkilli olan tilli sonsuz ötürücü qayışlar (klinli qayışlar): | | |
| 4010 31 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 4010 31 000 9 | – – – digərləri | – | 15 |

1.8. 4011 50 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4011 50 000 | – velosipedlər üçün: | | |
| 4011 50 000 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 4011 50 000 9 | – – digərləri | əd | 15 |

1.9. 4012 90 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4012 90 900 | – – çənbər lentləri: | | |
| 4012 90 900 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 1 əd. 10 ABŞ dolları (31.12.2028-ci il tarixinədək 0%) |
| 4012 90 900 9 | – – – digərləri | əd | 1 əd. 10 ABŞ dolları |

1.10. 4013 20 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4013 20 000 | – velosipedlər üçün: | | |
| 4013 20 000 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 4013 20 000 9 | – – digərləri | əd | 15 |

1.11. 4016 99 970 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4016 99 970 2 | – – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | - | 15 (31.12.2028-ci il tarixinədək 0%) |

1.12. 4202 92 980 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4202 92 980 | – – – – digərləri: | | |
| 4202 92 980 1 | – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 4202 92 980 9 | – – – – – digərləri | əd | 15 |

1.13. 7009 10 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 7009 10 000 2 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |

1.14. 7315 11 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7315 11 100 | – – – velosipedlər və motosikllər üçün istifadə olunan: | | |
| 7315 11 100 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7315 11 100 9 | – – – – digərləri | – | 15 |

1.15. 7315 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7315 19 000 | – – hissələri: | | |
| 7315 19 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7315 19 000 9 | – – – digərləri | – | 15 |

1.16. 7318 15 590 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 590 | – – – – – – – – digərləri: | | |
| 7318 15 590 1 | – – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 15 590 9 | – – – – – – – – – digərləri | – | 15 |

1.17. 7318 15 690 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 690 | – – – – – – – – digərləri: | | |
| 7318 15 690 1 | – – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 15 690 9 | – – – – – – – – – digərləri | – | 15 |

1.18. 7318 15 810 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 810 | – – – – – – – – – 800 MPa-dan az olan: | | |
| 7318 15 810 1 | – – – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 15 810 9 | – – – – – – – – – – digərləri | – | 15 |

1.19. 7318 15 890 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 890 | – – – – – – – – – 800 MPa və ya daha çox olan: | | |
| 7318 15 890 1 | – – – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 15 890 9 | – – – – – – – – – – digərləri | – | 15 |

1.20. 7318 15 900 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 900 | – – – – – – – digərləri: | | |
| 7318 15 900 1 | – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 15 900 9 | – – – – – – – – digərləri | – | 15 |

1.21. 7318 16 200 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 200 | – – – dəliyinin diametri 6 mm-dən çox olmayan, bütöv en kəsikli çubuqlardan, profillərdən və ya məftillərdən yonulmuş: | | |
| 7318 16 200 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 16 200 9 | – – – – digərləri | – | 15 |

1.22. 7318 16 500 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 500 | – – – – – özüqapanan qaykalar: | | |
| 7318 16 500 1 | – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 16 500 9 | – – – – – – digərləri | – | 15 |

1.23. 7318 16 910 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 910 | – – – – – – 12 mm-dən çox olmayan: | | |
| 7318 16 910 1 | – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 16 910 9 | – – – – – – – digərləri | – | 15 |

1.24. 7318 16 990 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 990 | – – – – – – 12 mm-dən çox olan: | | |
| 7318 16 990 1 | – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 16 990 9 | – – – – – – – digərləri | – | 15 |

1.25. 7318 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 19 000 | – – digərləri: | | |
| 7318 19 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 19 000 9 | – – – digərləri | – | 15 |

1.26. 7318 22 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 22 000 | – – digər şaybalar: | | |
| 7318 22 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 22 000 9 | – – – digərləri | – | 15 |

1.27. 7318 23 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 23 000 | – – pərçimlər: | | |
| 7318 23 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 23 000 9 | – – – digərləri | – | 5 |

1.28. 7318 24 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 24 000 | – – şpon civiləri və şplintlər: | | |
| 7318 24 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 24 000 9 | – – – digərləri | – | 15 |

1.29. 7318 29 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 29 000 | – – digərləri: | | |
| 7318 29 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7318 29 000 9 | – – – digərləri | – | 15 |

1.30. 7604 21 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7604 21 000 | – – içi boş profillər: | | |
| 7604 21 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7604 21 000 9 | – – – digərləri | – | 5 |

1.31. 7604 29 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7604 29 900 | – – – profillər: | | |
| 7604 29 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 7604 29 900 9 | – – – – digərləri | – | 5 |

1.32. 8301 40 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8301 40 900 | – – digər qıfıllar: | | |
| 8301 40 900 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 8301 40 900 9 | – – – digərləri | – | 15 |

1.33. 8306 10 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8306 10 000 | – zənglər, qonqlar və analoji məmulatlar: | | |
| 8306 10 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 8306 10 000 9 | – – digərləri | – | 15 |

1.34. 8307 10 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8307 10 000 2 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixinədək 0%) |

1.35. 8413 20 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8413 20 000 2 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |

1.36. 8482 10 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8482 10 100 | – – ən böyük xarici diametri 30 mm-dən çox olmayan: | | |
| 8482 10 100 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 8482 10 100 9 | – – – digərləri | əd | 5 |

1.37. 8482 10 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8482 10 900 | – – digərləri: | | |
| 8482 10 900 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixinədək 0%) |
| 8482 10 900 9 | – – – digərləri | əd | 5 |

1.38. 8501 32 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8501 32 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixinədək 0%) |

1.39. 8501 33 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8501 33 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixinədək 0%) |

1.40. 8504 40 550 1 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8504 40 550 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixinədək 0%) |

1.41. 8507 60 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8507 60 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |

**(ardı 8-ci səhifədə)**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

(əvvəli 7-ci səhifədə)

1.42. 8507 80 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8507 80 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |

1.43. 8512 10 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8512 10 000 | – velosipedlərdə istifadə olunan işıqlandırıcı və ya vizual siqnalizasiya cihazları: | | |
| 8512 10 000 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 8512 10 000 9 | – – digərləri | əd | 15 |

1.44. 8512 90 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8512 90 900 | – – digərləri | | |
| 8512 90 900 1 | – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixinədək 0%) |
| 8512 90 900 9 | – – – digərləri | əd | 15 |

1.45. 8714 91 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – çərçivələr: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | əd | [illegible] |

1.46. 8714 91 300 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 91 300 | – – – qabaq çəngəllər: | | |
| [illegible] 300 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] 300 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] 300 9 | – – – – digərləri | əd | [illegible] |

1.47. 8714 91 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – hissələr: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.48. 8714 92 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – çənbərlər: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | əd | [illegible] |

1.49. 8714 92 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – millər: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.50. 8714 93 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 93 000 | – – sərbəst hərəkətli ayləc çarx toplarından və vtulkalı ayləclərdən başqa, çarx topları, ötmə muftalarının zəncirli ulduzcuqları: | | |
| 8714 93 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| 8714 93 000 9 | – – – digərləri | – | [illegible] |

1.51. 8714 94 200 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – əyləclər: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.52. 8714 94 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – hissələri: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.53. 8714 95 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – yəhərlər: | | |
| [illegible] | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – digərləri | əd | [illegible] |

1.54. 8714 96 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – pedallar: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | cüt | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | cüt | [illegible] |

1.55. 8714 96 300 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 96 300 | – – – krivoşip mexanizmləri: | | |
| 8714 96 300 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| 8714 96 300 9 | – – – – digərləri | – | [illegible] |

1.56. 8714 96 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – hissələri: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.57. 8714 99 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – sükanlar, tutacaqlar: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | əd | [illegible] |

1.58. 8714 99 300 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 99 300 | – – – yük yerləri: | | |
| 8714 99 300 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| 8714 99 300 9 | – – – – digərləri | əd | [illegible] |

1.59. 8714 99 500 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – sürət dəyişdirici qurğular: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.60. 8714 99 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| [illegible] | – – – digərləri; hissələr: | | |
| [illegible] | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| [illegible] | – – – – digərləri | – | [illegible] |

1.61. 9029 20 310 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 9029 20 310 2 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |

1.62. 9029 20 380 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 9029 20 380 | – – – digərləri: | | |
| 9029 20 380 1 | – – – –skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| 9029 20 380 9 | – – – – digərləri | əd | [illegible] |

1.63. 9503 00 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 9503 00 100 | – üçtəkərli velosipedlər, samokatlar, pedallı avtomobillər və analoji təkərli oyuncaqlar; kuklalar üçün arabalar: | | |
| 9503 00 100 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | [illegible] (31.12.2028-ci il tarixinədək 0%) |
| 9503 00 100 9 | – – digərləri | – | [illegible] |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 469** **Bakı şəhəri, 31 oktyabr 2024-cü il**

**"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 9.6-cı, 10.21-ci, 11.16-cı və 12.17-ci bəndlərində "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na və "Gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"inə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 468 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1956 (Cild I) ilə təsdiq edilmiş "Reklam qurğularının yol kənarında yerləşdirilməsi Standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.11-ci yarımbənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları" və "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"i" sözləri ilə əvəz edilsin;

2.2. 3.4-cü bənddən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın və "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın," sözləri çıxarılsın və həmin bəndə "mühafizə Qaydaları"nın" sözlərindən sonra "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"inin" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 470** **Bakı şəhəri, 1 noyabr 2024-cü il**

**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2130 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594; Azərbaycan Respublikasının 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 1.3-cü bəndinin ikinci abzasında ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs və ya İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "və ya Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1206 (Cild I); 2024, № 5 (II kitab), maddə 592) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin "Komissiyanın üzvləri:" hissəsinin on üçüncü abzasından nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda on dördüncü abzas əlavə edilsin:

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İcraçı direktoru.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 294 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 2.3-cü bəndinin birinci cümləsində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2725 (Cild I); 2024, № 1, maddə 77; Azərbaycan Respublikasının 2024-cü il 18 sentyabr tarixli 427 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 6.1.8-ci yarımbəndində və 17.3-cü bəndində (hər iki halda) ismin müvafiq hallarında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507 (Cild I) ilə təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in 6.7-ci bəndinin ikinci cümləsində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin" sözləri ilə əvəz edilsin.

**6.** "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789 (Cild I) 2-ci hissəsinə "Agentliyi" sözündən sonra ", Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***




## “Yaşıl dünya” naminə həmrəylik



# Əqli mülkiyyət və innovasiyalar “yaşıl” gələcək naminə

**Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması istiqamətində önəmli layihələr həyata keçirilir. Bu, ölkədə energetika infrastrukturunun tam yenilənməsi, enerji təminatının yüksək səviyyədə və təhlükəsiz şəraitdə təmin edilməsi, sahəyə məqsədli investisiya qoyuluşu və digər fəaliyyətlərdə öz əksini tapır. Bütün bunların nəticəsində hazırda Azərbaycan enerji transformasiyası sahəsində lider dövlətlərdən biri kimi diqqət çəkir. Məhz bu səbəbdən də COP29 sessiyasının Bakıda keçirilməsi təsadüfi xarakter daşımır və bu nüfuzlu layihənin ölkəmizdə gerçəkləşməsi Azərbaycanda innovasiyaların inkişaf strategiyasının məntiqi nəticəsidir.**

**Qeyd edək ki, iqlim dəyişmələrinin ortaya çıxardığı fəsadların azaldılması və “yaşıl” enerjidən geniş miqyasda istifadə edilməsi rəqəmsal dünyada “yaşıl” texnologiyaların tətbiqindən, innovasiyaların inkişafının diqqət mərkəzində saxlanılmasından və dəstəklənməsindən və bu istiqamətdə davamlı tədqiqatların aparılmasından asılıdır.**

**Şübhəsiz ki, 29-cu iqlim konfransında da bütün bunlarla bağlı geniş müzakirələr aparılacaq və iqlim dəyişikliyi ilə mübarizədə “yaşıl” enerjinin gələcək inkişafında innovasiyaların mühüm rolu diqqətə çatdırılacaq, “yaşıl” ideya təşəbbüsünə böyük dəstək veriləcək, elmin innovativ tərəflərindən çıxış edərək “yaşıl” texnologiyaların “yaşıl” ideyalarla birləşməsini şərtləndirən məsələlər – əqli mülkiyyətə əsaslanan innovativ həllərin tətbiqi və qabaqcıl təcrübələrin mübadiləsi, habelə iqlim dəyişiklikləri və dünya miqyasında patent fəaliyyəti ilə bağlı məsələlər önə çıxarılacaq.**

**Bütün bunlarla bərabər, 29-cu iqlim konfransında əqli mülkiyyətə əsaslanan innovasiyaların “yaşıl” gələcəkdəki rolu ətrafında söhbət açılacağı, milli iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilən əqli mülkiyyətin təklif etdiyi iqlim dəyişikliklərinin təsirini azalda biləcək bir çox texnologiyalar barədə danışılacağı, iqlim dəyişikliyinin təsirləri ilə mübarizədə ekoloji cəhətdən təmiz texnologiyaların təşviqi və texnologiyaların sürətli yayılması zəruriliyinə də toxunulacağı gözlənilir.**

**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov qəzetimizə müsahibəsində bütün bu məsələlərlə bağlı fikirlərini bölüşür.**



**– Mütəxəssislər iqlim dəyişikliyi ilə mübarizədə təkcə siyasi iradənin deyil, həm də qabaqcıl texnologiyaların da mühüm rol oynadığını, bu baxımdan əqli mülkiyyət hüquqlarının qorunmasının əsas şərtlərdən biri olduğunu bildirir və Əqli Mülkiyyət Agentliyinin müvafiq istiqamətdə həyata keçirdiyi tədbirlərə yüksək qiymət verirlər. Bu barədə fikirlərinizi oxucularımızla bölüşməyiniz maraqlı olardı.**

– Əvvəlcə onu deyim ki,“yaşıl” gələcəyin təmin olunmasında innovasiyaların aparıcı rolu və əqli mülkiyyətin onun fundamentində cəmləşdirməsi nəzərə alınaraq, gələcəyimizin nə qədər “yaşıl” olacağı bizim hazırkı iradəmizdən, məsuliyyətimizdən, qəbul etdiyimiz hər bir qərardan asılıdır. Çünki məhz bu amillər sabahkı həyatımızı müəyyənləşdirir. Kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq, insan cəmiyyəti “yaşıl” gələcək yaratmağa qadirdir.

Müasir dünyada “Yaşıl innovasiya”, “Yaşıl texnologiya”, “Yaşıl patent”, “Yaşıl enerji” kimi anlayışlar artıq populyar və aktual mövzulardır və təsadüfi deyildir ki, Qlobal İnnovasiya İndeksi üzrə Hesabatlarda innovasiyaların enerji mənbəyi kimi vacib rolu vurğulanır.

Proqnozlara görə, 2040-cı ildə ənənəvi enerji istehlakı üsulları ilə dünyanın enerjiyə tələbatı 30 faizdən çox artacaq və bununla əlaqədar iqlim də prinsipial dəyişikliklərə məruz qalacaq. Və qarşıdakı illərə qədəm qoyarkən, biz dünyada baş verən iqlim dəyişiklərinin – qasırğalar, daşqınlar, quraqlıqlar və təbiət yanğınlarının təsirini çox aydın hiss etmişik, törətdiyi acı nəticələr ilə rastlaşmışıq.

Qrenlandiyada buz örtüyünün 1990-cı ildəkindən 7-8 dəfə daha sürətlə əridiyi bir vaxtda su qıtlığı ilə bağlı problemlər dünya əhalisinin dörddə birini təhdid edir, NASA-nın məlumatına görə isə 2010-cu ildən bəri son 10 ildə planetimiz 5 ən isti illərini yaşamışdır. Odur ki, iqlim böhranının aradan qaldırılması dayanıqlı “yaşıl” gələcəyin qurulması deməkdir.

“Yaşıl” gələcəyi arzulayan bəşər cəmiyyətini quranların ilk sıralarında ixtiraçılar və müəlliflər durur. Həmin şəxslər yanacağı qida və təbii resursların daha səmərəli idarəetmə sisteminə əsaslanan ənənəvi texnologiyalarla daha “təmiz” alternativlər yaratmaq üzərində çalışan insanlardır. Bu da, öz növbəsində, onu göstərir ki, davamlı milli innovasiya sistemlərinin yaradılmasına və səmərəli milli əqli mülkiyyət sistemlərinə əlçatanlığın reallaşdırılmasına yönəlmiş səylərin bundan sonra da davam etdirilməsi vacibdir.

Patent sistemi innovasiyaları və iqtisadi texnologiyaların yayılmasını dəstəkləyir, yaradıcı müəllif təfəkkürü və sənaye nümunələrinin qorunması mexanizmləri isə faydalı, cəlbedici və səmərəli məhsulların yaradılmasında resurslardan optimal istifadəyə və yayılmasına kömək edir. Əmtəə nişanlarının və digər fərqləndirici nişanların qorunması sistemi müəssisələrin artmasına təsir göstərir və iqtisadiyyatın inkişafını dəstəkləyir, coğrafi göstəricilər ehtiyatların dayanıqlı istehlakına yardım edir, seleksiya hüquqları isə daha davamlı bitki sortlarının yetişdirilməsinə kömək edir və bununla da ərzaq təhlükəsizliyinə təsir göstərir.

Nəhayət, müəlliflər və müəllif hüququnun sahibləri “yaşıl” gələcək konsepsiyasının yaradılmasında mühüm rol oynayır, əsərlərində “yaşıl” gələcəyi təbliğ edir. Eyni zamanda biznes nümayəndələri – innovativ müəssisələr özlərinin innovativ məhsulları ilə bizi “yaşıl” gələcəyə yaxınlaşdırırlar.

İqlim problematikasının, iqlimin dəyişməsi məsələlərinin əsasında Təbiət və Zəkanın maraqları toqquşmayan, ziddiyyətli olmayan mövqedən irəli gələn yeni ekoloji düşüncə və şüur durur. Bu, ilk növbədə, akademik N.Moiseyevin dediyi kimi, “ekoloji imperativ”dir, yəni, sadəcə olaraq təbiət qanunları ilə hesablaşmağın obyektiv zəruriliyi ilə yanaşı, təbiət tərəfindən irəli sürülən “texniki şərtlər”i də nəzərə almaq vacibliyidir. Bu cür yanaşma texnokratik yanaşmaya əks olan, ilk növbədə, insan ölçüsü olan yanaşmadır.

“Ekoloji imperativ”də təbiət – elmi və humanitar yanaşmalar ilə vəhdət təşkil edir və bu səbəbdən həmin imperativin qəbulu “əxlaq–mənəviyyat imperativi”nin qəbulu deməkdir. Bu mövqedən çıxış edərək, bir daha qeyd olunmalıdır ki, antropogen fəaliyyət və əqli fəaliyyət nəticələri ekoloji problemin kəskinliyini yaradıbsa, insan zəkası da həmin problemin həllini tapacaq.

BMT bunu əsas götürərək, 5 iyun tarixini Beynəlxalq Ətraf Mühit Günü elan etmişdir. BMT-nın İqtisadi Əməkdaşlıq Təşkilatının “Yaşıl artım” Bəyannaməsində qeyd olunduğu kimi, yeni təfəkkür davamlı iqtisadi artımın və ətraf mühitin sağlamlaşdırılmasının qırılmazlığına kömək edəcəkdir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) isə ekoloji problematikanı prioritet seçərək, 2009-cu ildə 26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Gününü “Yaşıl innovasiyalı dəstək” devizi altında keçirmişdir.

Ümumdünya Meteorologiya Təşkilatının sabiq Baş direktoru cənab Mişel Jarrodun qeyd etdiyi kimi, əqli mülkiyyət iqlim məsələlərinin həllində maneə yox, katalizator olmalıdır. ÜƏMT-nın sabiq Baş direktoru Frensis Qarri də ekoloji təmiz texnologiyaya və bərpaolunan enerji mənbələrinə keçməyimizdə əqli mülkiyyətin böyük rolunun olmasını xüsusi qeyd etmişdir.

İqlim dəyişməsi məsələləri Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin daim diqqət mərkəzində olmuşdur. 2009-cu il iyulun 13-də təşkil olunmuş beynəlxalq konfransdakı çıxışlarda xüsusi vurğulanmışdır ki, bütün kasıb və varlı ölkələr iqlim dəyişikliyinin nəticələrinə məruz qalır və bununla bağlı dövlət siyasətinin məqsədlərinə əqli mülkiyyətin xüsusi töhfəsi mümkündür.

2010-cu ildə Müəllif Hüquqları Agentliyi (hazırda Əqli Mülkiyyət Agentliyi) İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatı ilə birgə “Ətraf mühit və əqli mülkiyyət” mövzusunda elmi-praktik seminar keçirmiş və seminarın materialları dərc edilərək yayılmışdır. Bundan başqa, 2020-ci ildə koronavirusla bağlı tədbirlərin keçirilməsi məhdudiyyəti nəzərə alınaraq, 26 aprel - Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə ÜƏMT tərəfindən elan edilmiş “İnnovasiyalar “yaşıl” gələcək naminə” devizi ilə bağlı Əqli Mülkiyyət Agentliyi müraciət hazırlamış və kütləvi informasiya vasitələrində yaymışdır. Bütün bunların əsasını dövlət başçımızın ardıcıl addımları təşkil edir.

**– Azərbaycanın COP29-a sədrlik etməsi ölkəmizin beynəlxalq nüfuzu baxımından mühüm önəm daşıyır. İqlim konfransının respublikamızda keçirilməsi qərarının yekdilliklə verilməsi, ilk növbədə, dövlətimizə, Prezident İlham Əliyevə olan böyük etimadın, inamın və onun yüksək nüfuzunun göstəricisidir. Azərbaycan bu hörməti əməli fəaliyyəti, müstəqil siyasəti, prinsipial mövqeyi, beynəlxalq hüquqa olan sədaqəti ilə əldə edib.**

– Dövlət başçımızın 2023-cü il dekabrın 15-də 29-cu iqlim konfransına həsr olunmuş toplantıda dediyi kimi, bu nüfuzlu beynəlxalq tədbirin keçirilməsinə “biz layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməllərimizlə, işimizlə, siyasətimizlə qazanmışıq”. Bəli, bu, cənab Prezidentin yürütdüyü siyasətin məntiqi nəticəsi, biliyinə və cəsarətinə, kamilliyinə və müdrikliyinə əsaslanan uzaqgörənliyidir.

Prezident vəzifəsinə seçildiyi ilk vaxtlardan dövlətimizin başçısı “yaşıl” enerji siyasətini diqqətdə saxladı, 2004-cü ildə isə alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə dövlət proqramını təsdiq etdi. Həmin zaman kəsiyini xatırladaq: ərazimizin 20 faizinin işğal altında olması, 1 milyona yaxın qaçqın və məcburi köçkünün məskunlaşma durumu, torpaqlarımızı azad etmək üçün hərbi quruculuq problemi, 35 faizlik yoxsulluq səviyyəsi... Bütün bunlar həllini gözləyən və bu gün də həll olunan həyati vacib məsələlər idi.

Bu problemlərin iqtisadi bazası, əsas maliyyə mənbəyi uğurla həyata keçirilən neft strategiyası idi. Həmin vaxt Azərbaycan öz enerji ehtiyaclarını təmin etmişdi, hətta neft və qaz ixracatçısı kimi tanınmış dövlət idi. Belə ki, enerjinin alternativ imkanlarına və mənbələrinə ehtiyacımız yox idi. Təsdiq olunan dövlət proqramı isə məcburi deyil, düşünülmüş, gələcəyə yönələn atılmış uğurlu addım idi. Həmin addımın uzaqgörənliyini təsdiqləyən sonrakı ardı da oldu: 2009-cu ildə Sənaye və Energetika Nazirliyində Alternativ və Bərpaolunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yarandı.

Cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclaslarında çıxışlarını sadalananlara əlavə etsək, görərik ki, dayanıqlı inkişafa, insan potensialının səmərəli istifadə edilməsinə, o cümlədən bakalavr, magistr, elmi dərəcələrə aid olan yeni ixtisasın – “Davamlı inkişafın idarə edilməsi”nin təsdiqlənməsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inklüziv inkişaf mərkəzlərinin yaradılması – bütün bunlar öncədən düşünülmüş, gələcəyə, davamlı inkişafa yönəldilmiş ardıcıl tədbirlər sistemi idi.

2010-cu il Azərbaycanda Ekologiya ili, bu il – 2024-cü il isə “Yaşıl dünya naminə həmrəylik” ili elan edilmişdir. Odur ki, bugünkü COP29-un keçirilməsi və bizim enerji transformasiyasındakı uğurlarımız həmin uzaqgörənliyin nəticəsidir.

Beləliklə, COP29-un Bakıda keçirilməsi qərarı Azərbaycanın “yaşıl” enerji siyasətinə qlobal dəstəyi ifadə edir, “yaşıl” enerji növlərinin yaradılmasını və “yaşıl” enerjinin dünya bazarlarına nəqlini enerji siyasətinin yeni prioritet istiqaməti kimi göstərir. Azərbaycanın bərpaolunan enerji potensialı çox yüksəkdir. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir. Statistik göstəricilərə görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır, dağ çaylarının potensialı isə 520 meqavat həcmində qiymətləndirilir.

Enerji transformasiyası ilə bağlı ölkəmiz mühüm işlər aparıb. Həmin işləri qiymətləndirmək məqsədilə beynəlxalq statistikaya müraciət edək: 2023-cü ilin Dünya İqtisadi Forumunun hesabatına əsasən, 120 ölkəyə aid enerji keçidi indeksləri müəyyən edilib. Belə ki, ölkəmiz öz indeksinin 62-yə bərabər olması ilə dünya reytinqində 32-ci yeri tutub və bir sıra inkişaf etmiş ölkələri, o cümlədən G7, Avropa İttifaqına və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına daxil olan ölkələri (məsələn, Litva, Yunanıstan, İtaliya, Polşa, Belçika, Slovakiya, Çexiya, Bolqarıstan) üstələyib. Bu göstəriciyə görə, Azərbaycan neft və qaz istehsalçıları və idxal edən ölkələr sırasında liderdir.

Beynəlxalq statistika əsasında akademik Urxan Ələkbərovun araşdırmaları göstərir ki, enerji keçidi indeksi bir neçə göstəricilər əsasında formalaşır və bunlardan ən vacibi enerjinin istifadəsi səmərəliliyi indeksidir, yəni, enerjinin bir vahidi hesabına, təxminən, 11,9 kVt/saata bərabər olan neftin bir kiloqramındakı istifadəsi nəticəsində yaradılan ÜDM-in həcmi səviyyəsidir.

Azərbaycanda alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, bir vahid enerji istifadə edildiyi halda, ÜDM-in dəyəri 11,6 dollardır, özü də əgər 2004-cü ildə bu göstərici 4 dollara bərabər idisə, 20 il ərzində 3 dəfə artaraq, Xəzəryanı ölkələrdən savayı Kanada, ABŞ və Fransanı geridə qoyub.

**– Kamran müəllim, bəs enerji keçidi indeksinin yüksək nəticəsi hansı xərclər hesabına əldə edilib?**

– Qeyd edim ki, bu məqsədlə ÜDM-in bir vahidinin, yəni 1000 dolları alıcılıq qabiliyyəti pariteti ilə istifadəsi nəticəsində yaradılmış enerji keçidi indeksinin dəyəri müəyyən edilir. Azərbaycanın həmin göstəricisi 2,62-yə bərabərdir. Bu isə Azərbaycanın enerji keçidi indeksinin formalaşmasının maddi resursların optimal idarə edilməsi və xərclənməsi ilə bağlı olması deməkdir. Dünya birincisi olan İsveç enerji indeksinin hər vahidinin formalaşmasına Azərbaycandan 2 dəfədən, ABŞ isə 3 dəfədən çox vəsait sərf edir.

Gördüyünüz kimi, yaranan iqlim dəyişiklikləri ilə bağlı problemin əsasında dayanan da, onun həllinin açarı da enerjidir. Həmin tezisi açıqlamaq məqsədilə 2023-cü ildə “Green Technology Book. Solutions for climate change mitigation” (“Yaşıl texnologiyalar kitabı. İqlim dəyişikliyinin qarşısını alan həllər”) və BMT-nin digər beynəlxalq statistikasına müraciət edək. Qeyd edilir ki, qalıq yanacaq növləri olan kömür, neft və qaz – qlobal iqlim dəyişikliyinə daha çox arzuolunmaz töhfə verir, qlobal istixana qazları emissiyalarının 75 faizdən çoxunu və bütün karbon qazı emissiyalarının təxminən 90 faizini təşkil edir.

Bu gün atmosferdə olan CO2 konsentrasiyaları, 1750-ci ildə olandan, təxminən, 50 faiz yüksəkdir ki, bu da ən azı son 800 min ildə baş vermiş təbii dəyişikliklərdən daha da üstündür.

Nə qədər vəziyyət mürəkkəb olsa da ÜƏMT nikbin, optimist baxışını yayaraq, “Yaşıl kitab”ında qeyd edir ki, “2030-cu il iqlim hədəflərinə çatmaq üçün ehtiyacımız olan texnologiyaların 80 faizi (daha çoxu yeni yaranmaqla) artıq bazardadır. Hökumətlər və şəhərlər iqlim dəyişikliyinin azaldılması texnologiyalarını sürətlə inkişaf etdirməli və miqyasını genişləndirməlidirlər. Bununla belə, indi texnologiya seçimi hər zamankından daha vacibdir. Sadəcə olaraq, mövcud sistemləri optimallaşdırmaq iqlim məqsədlərinə çatmaq üçün kifayət etməyəcək”. Əsas odur ki, iqlim texnologiyaları qalıq yanacaqdan imtina etmədən səmərəsizdir. Beləliklə, qalıq yanacaqların tədricən ləğvi bir çox iqlim texnologiyalarının müvəffəqiyyəti və səmərəliliyi üçün yalnız stimul deyil, həm də ilkin şərtdir.

**– İqlim dəyişikliyi ilə əlaqədar ümumi vəziyyətlə bağlı fikirlərinizi də bilmək istərdik.**

– İnsan fəaliyyəti nəticəsində yaranan karbon qazı kimi istixana qazları, 1850-ci ildən 1900-cü ilə qədər təxminən 1,1°C istiləşməyə səbəb olub. Bu hal iqlim dəyişikliyinin, o cümlədən insan və təbiətə iri miqyasda ziyan vuran kəskin hava şəraitinin yaranması ilə nəticələnib.

Əgər qlobal istiləşmə sənayedən öncəki dövr ilə müqayisədə 1,5°C-dən çox olarsa, daha çox isti dalğalar, daha uzun isti mövsümlər və daha qısa soyuq mövsümlər müşahidə olunacaq. Qlobal istiləşmə 2°C artsa, kəskin istiləşmə kritik dözümlülük hədlərini daha tez keçərək kənd təsərrüfatı və insan sağlamlığı üçün dağıdıcı nəticələrlə müşahidə ediləcək. Külək, qar, buz, sahil zonaları və artan quraqlıq və rütubət dəyişiklikləri müxtəlif bölgələrə fərqli təsir göstərəcək.

Hazırda hər il havanın çirklənməsi səbəbindən 8,7 milyondan çox insan həlak olur.

Elmi məlumatlar sübut edir ki, iqlim dəyişikliyinin mənfi təsirlərindən yayınmaq üçün 2030-cu ilə qədər tullantıların sayının 2 dəfəyədək azaldılması və 2050-ci ilə qədər bu göstəricinin sıfır həddinə çatdırılması zəruridir.

Dünya əhalisinin təxminən 80 faizi qalıq yanacaqların xalis idxalçısı olan ölkələrdə yaşayır, təxminən, 6 milyard insan isə digər ölkələrin qalıq yanacaqlarından asılıdır və buna görə də geosiyasi zərbələrə və böhranlara qarşı həssasdır. Halbuki qalıq yanacaqlardan fərqli olaraq enerjinin bərpaolunan mənbələri hər bir ölkə üçün əlçatandır. Yəni qalıq yanacaqdan fərqli olaraq bərpaolunan enerji mənbələri bütün ölkələrdə mövcuddur.

Qalıq yanacaq, əvvəllər olduğu kimi, dünya enerji istehsalının 80 faizdən çoxunu təşkil edir, lakin daha təmiz enerji mənbələri də tədricən öz mövqeyini yaxşılaşdırır. Hazırda elektrik enerjisinin, təxminən, 29 faizi bərpaolunan mənbələrdən əldə edilir.

2030-cu ilə qədər bərpaolunan enerji mənbələrindən əldə olunan ucuz elektrik enerjisi dünya üzrə elektrik təchizatının 65 faizini təmin edə bilər. Bu hal 2050-ci ilə qədər enerji sektorunun 90 faizədək karbonsuzlaşdırılmasına, karbon emissiyalarının miqdarının əhəmiyyətli dərəcədə azaldılmasına və iqlim dəyişikliyinin təsirlərinin yaxşılaşdırılmasına töhfə verəcək.

Bərpaolunan enerji mənbələrinə qoyulan hər bir dollarlıq sərmayə qalıq yanacaq sənayesinə qoyulan sərmayələrdən 3 dəfə çox iş yeri açmaq imkanı yaradır. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına əsasən, tullantıların sıfır həddinə çatdırılması enerji sektorunda ümumi iş yerlərinin artmasına gətirib çıxaracaq: 2030-cu ilə qədər mədən yanacağı istehsalı sahəsində, təxminən, 5 milyon iş yeri itirilə, eyni zamanda, təmiz enerji sahəsində isə əksinə, iş yeri sayları, təxminən, 14 milyon arta və nəticədə xalis artım 9 milyon təşkil edə bilər.

**(ardı var)**

***Müsahibəni apardı:***
***Vaqif BAYRAMOV***
***XQ***




**Son illər iqlim dəyişiklikləri dünyanı ən çox narahat edən problemlərdən biri kimi aktuallığını getdikcə artırır. İqlim dəyişikliklərinin başlıca səbəbi isə atmosferə atılan istixana qazlarının normadan çox olması ilə bağlıdır. Bu səbəbədən də dünya ölkələri və beynəlxalq iqlim təşkilatları qlobal istiləşmənin fəsadlarının aradan qaldırılması üçün müxtəlif proqramlar qəbul edir. Təbii resursların tükənməsi, istilik effekti yaradan qazların emissiyalarının artmasının qarşısının alınması istiqamətində çoxsaylı layihələr həyata keçirilir.**

# Xəzərin dalğaları da işıq saçacaq

## *Bu məqsədlə ölkəmizdə dalğa-enerji qurğusu hazırlanıb*





Dünya ölkələri qlobal iqlim dəyişikliklərinin mənfi təzahürlərinin aradan qaldırılması üçün ənənəvi enerji növlərindən tədricən imtina edərək alternativ və bərpaolunan enerjiyə keçid mərhələsinə qədəm qoyub. Bu məqsədlə dünyanın ayrı-ayrı ölkələrində günəş, külək və geotermal elektrik stansiyaları inşa olunur. Son illər aparılmış çoxsaylı elmi araşdırmalar və tədqiqatlar isə sübut edib ki, planetimizin su mənbələri, xüsusən də dəniz və okeanlar da yüksək enerji potensialına malikdir və bu zənginlikdən istifadə etmək üçün böyük imkanlar var. Dəniz və okeanların enerjisi isə özünü dalğalarda təzahür etdirir.

Artıq uzun illərdir ki, dünyanın bir çox inkişaf etmiş ölkələrinin müxtəlif şirkət və təşkilatları tərəfindən dəniz və okean dalğalarının enerjisindən istifadə sahəsi üzrə elmi və təcrübi araşdırmalar aparılır. Onu da qeyd edək ki, dalğa energetikası sahəsi dünyada müasir inkişaf konsepsiyası olan dayanıqlı inkişafın bir hissəsi kimi qəbul edilir. Bununla belə, hələlik dalğa energetikasından istifadə digər bərpaolunan enerji sahələri ilə müqayisədə bir qədər zəif inkişaf etdirilib. Bu da dəniz və okeanların təbii şəraitinin daha sərt olması, texniki-iqtisadi cəhətdən səmərəli, dayanıqlı qurğu hazırlanmasının mürəkkəbliyi ilə bağlıdır.

Özünün təbii resursları və karbohidrogen ehtiyatları ilə zəngin olan Xəzər dənizinin də dalğa potensialı yüksəkdir. Bu isə onu deməyə əsas verir ki, dünyanın prioritet elan etdiyi “yaşıl keçid”in fəal iştirakçılarından birinə çevrilmiş Azərbaycan yaxın illərdə dəniz dalğasından da elektrik enerjisi əldə edə bilər. Artıq ölkəmizdə bu sahədə ilkin uğurlu addımlar atılıb. Azərbaycanlı gənclər– texnika üzrə fəlsəfə doktoru, ixtiraçı alim Əlisgəndər Salamov, layihə rəhbəri Ruslan Qədirov və gənc mühəndis Əbülfəz Məhərrəmovun ərsəyə gətirdikləri turbin tipli dalğa energetik qurğusu hazırda dəniz şəraitində uğurla sınaqdan keçirilir.

Xatırladaq ki, yerli startap şirkəti olan “Caspian Technologies and İnnovations” MMC tərəfindən innovativ qurğu kimi layihələndirilən qurğu “İdrak Texnoloji Transfer” MMC-nin maliyyə və texniki dəstəyi ilə hazırlanıb. “Bahar Enerji Əməliyyat Şirkəti” Ltd isə qurğunun dənizdə sınaqdan keçirilməsi üçün hərtərəfli texniki və təşkilati dəstək göstərib. Hazırda təbii şəraitdə quraşdırılan dalğa energetik qurğusunun prototipinin test-sınaq mərhələsi üzrə texniki-iqtisadi səmərəliliyin artırılması istiqamətində işlər aparılır.

Qurğunun iş prinsipi ilə yaxından tanış olmaq, eləcə də bu layihəni ərsəyə gətirən gənc mütəxəssislərlə həmsöhbət olmaq məqsədilə sınaq-test mərhələsinin aparıldığı əraziyə baş çəkdik. “Bahar Enerji” şirkətinin istehsalat sahəsindəki estakadaya bərkidilmiş qurğu ilk baxışdan olduqca sadə və primitiv görünsə də, onun iş prinsipi, ölkəmizdə “yaşıl” enerji istehsalına verə biləcəyi faydalar heyranlıq doğurur.

**Ruslan QƏDİROV, layihə rəhbəri:** – Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, dalğa energetik qurğuları vasitəsilə dəniz və okean dalğalarının kinetik enerjisini elektrik enerjisinə çevirmək mümkündür. Bununla da, enerji istehsalı zamanı heç bir ənənəvi enerji mənbələrindən (neft, qaz və s.) istifadə edilmir və atmosferə zərərli istixana qazlarının tullantıları atılmır. Bununla bağlı mütəxəssis qrupu olaraq 3-4 il əvvəl nəzəri biliklərimizi praktikada tətbiq etmək qərarına gəldik. Gördüyünüz kimi, hazırda layihə üzrə qurğunun sınaq testlərini aparırıq. Nəzərdə tutmuşuq ku, bu qurğunun optimallaşdırılma işlərindən sonra onu texniki-iqtisadi cəhətdən səmərəli bir səviyyəyə gətirək ki, həm yerli, həm də xarici investorlar üçün cəlbedici olsun. Gələcəkdə bunun geniş tətbiqi üçün səylərimizi artırırıq. Fürsətdən istifad edib layihənin ərsəyə gəlməsində maliyyə və texniki dəstəyini əsirgəməyən “İdrak Texnoloji Transfer” MMC-nin, eləcə qurğunun dənizdə yerləşdirilməsi üçün bizə hərtərəfli imkan yaradan “Bahar Enerji Əməliyyat Şirkəti” Ltd-nin rəhbərliklərinə dərin təşəkkürümüzü bildiririk.

**Əlisgəndər SALAMOV, ixtiraçı:** – Dalğa enerjisi bərpaolunan enerji növü kimi ekoloji cəhətdən təmizdir. 2018-ci ildən başlayaraq bu sahədə müəyyən tədqiqat işləri aparmağa başladıq. Dəniz dalğasından elektrik enerjisi istehsal etmək üçün nəzərdə tutulmuş qurğuların üstün və çatışmayan cəhətlərini araşdırdıq. Nəticədə, layihə üzərində birgə çalışdığım dostlarımla yeni, innovativ quruluşlu dalğa enerjisi qurğusunu hazırlamağa nail olduq. Qeyd edim ki, qurğu Xəzər dənizi şəraitində işləmək üçün nəzərdə tutulub. Məlum olduğu kimi, Xəzərin dalğa potensialı digər dəniz və okeanlara nisbətən zəifdir. Buna görə də biz daha həssas, zəif dalğalarda belə, elektrik enerjisini generasiya etmək imkanına malik qurğu hazırlamağı qərara aldıq. Bu tip qurğuların okeanlarda və dənizdə tətbiq olunması ətraf mühitə və ya flora və faunaya heç bir mənfi təsir göstərmir. Düşünürük ki, hazırladığımız qurğu Xəzər dənizi şəraitində özünü tam doğrultsa, müsbət nəticələr versə, deməli, ondan dünyanın digər dəniz və okeanlarında da uğurla istifadə etmək olar.

Hazırda qurğu üzərində müəyyən sınaq-müşahidə və təkmilləşdirmə işləri aparırıq. Təbii və laboratoriya şəraitində apardığımız müşahidələri, sınaqları, eləcə də əvvəlki təcrübələrimizi ümumiləşdirib yekun nəticəyə gəlirik. Yeri gəlmişkən, turbin tipli dalğa energetik qurğusunun laborator sınaqlarında faydalı iş əmsalı 26-30 faizə qədər müəyyən edilib. Prototip tipli bu qurğu neft-qaz platformalarında və estakadalarda istismar üçün nəzərdə tutulub. Onun istehsal etdiyi elektrik enerji, əsasən, ərazinin işıqlandırılmasında istifadə olunur. Hazırda qurğunun sahilyanı ərazidə quraşdırıla biləcək, həmçinin üzən versiyaları üzərində də müəyyən işlər görürük. Bununla yanaşı, hazırladığımız qurğunun tam fərqli dizaynda və fərqli iş prinsipinə əsaslanan analoqu üzərində də çalışırıq. Həmin qurğunun qabaritinə, metal tutumuna, gücünə və digər texniki parametrlərinə görə 10-15 faiz daha səmərəli olacağı qənaətindəyik. Qurğunun texniki baxımdan kifayət qədər sadə olması, hazırlama texnologiyasının ucuz və asan başa gəlməsi onun gələcək perspektivlərindən xəbər verir. Ümid edirik ki, dalğa enerjisi ilə bağlı elmi-tədqiqat işlərimiz, bu prototip qurğu üzərində apardığımız işlər müsbət nəticələr verəcək.

**Layihənin elektrik və elektronika işlərini icra edən Əbülfəz MƏHHƏRƏMOV isə dalğa-enerji qurğusunun iş prinsipi haqqında məlumat verdi:**

– Qurğu dəniz dalğasının potensial enerjisini mexaniki enerjiyə çevirir. Burada quraşdırılmış generatorun köməyilə elektrik enerjisi alınır. Sonra həmin enerji kabellər vasitəsilə kontroller və invertor sistemlərinə ötürülür. İndiki prosesdə hasil olunan enerji kontroller vasitəsilə akkumulyatora toplanılır. Daha sonra isə akkumulyatorın köməyilə dəyişən cərəyana, 220 volta çevrilərək müəyyən işlədicilərdə test etmək üçün istifadə olunur. Gələcəkdə isə qurğunun daha təkmil versiyası hazılananda hasil olunan enerji generatordan invertor vasitəsilə birbaşa şəbəkəyə ötürüləcək...

Xatırladaq ki, bir neçə gündən sonra ölkəmizdə dünyanın ən vacib tədbirlərindən hesab edilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyası (COP29) öz işinə başlayacaq. Dünya dövlətlərinin iqlim dəyişikliklərinin mənfi təzahürləri ilə mübarizədə səfərbər olunduğu hazırkı şəraitdə gənc alimlərimizin və ixtiraçılarımızın apardıqları elmi-tədqiqat işləri və unikal layihələri də qlobal əhəmiyyətli məsələyə əsl töhfə kimi dəyərləndirlə bilər. Eyni zamanda, ekoloji cəhətdən təmiz enerji istehsalı üçün nəzərdə tutulmuş innovativ qurğuların hazırlanmasını və bu sahədə sınaqların aparılmasını Azərbaycan elminin uğuru kimi qiymətləndirmək olar.

*(fotolar Cavid Qaçayevindir)*

# Konfrans qonaqlarına asan viza imkanı

## *Qonaqlar Azərbaycana təkrar giriş üçün yenidən müraciət etməlidirlər*

**Azərbaycan hökuməti COP29-a qeydiyyatdan keçmiş iştirakçılar üçün BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) elektron viza sistemi vasitəsilə müraciət edilə bilən “COP29 Xüsusi Viza” qaydası təqdim edib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.**



Məlumatda bildirilir ki, “COP29 Xüsusi Viza”sını iştirakçılara göndərilən UNFCCC qeydiyyat təsdiq məktubundakı link və ya Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə əldə etmək olar. Sonuncu halda qeydiyyat məktubu səfər üçün əsas təsdiqləyici sənəd kimi qəbul ediləcək.

Bu viza sahibinə Azərbaycan Respublikası ərazisinə birdəfəlik giriş və ölkə ərazisində 30 günədək qalmaq hüququ verir. Ölkəni tərk etmək və Azərbaycana yenidən qayıtmaq lazım gəldikdə ilk vizanın alındığı UNFCCC qeydiyyat nömrəsindən istifadə edərək viza üçün təkrar müraciət edilməlidir.

“COP29 Xüsusi Viza”sı rəsmi portal vasitəsilə onlayn müraciətdən və ya Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarına müraciətdən sonra üç iş günü ərzində veriləcək”, – XİN-dən bildirilib.

COP29 iştirakçılarına UNFCCC tərəfindən qeydiyyatın təsdiqlənməsindən dərhal sonra viza üçün müraciət etmək tövsiyə olunur.



# COP29 Azərbaycan Əməliyyat Şirkəti “AzStateNet” şəbəkəsinə qoşulub

**İqlim konfransının yüksək səviyyədə həyata keçirilməsi üçün COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə yanaşı, bir sıra dövlət qurumları, o cümlədən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin üzərinə mühüm vəzifə və öhdəliklər düşür. Bununla bağlı işlərin əlaqələndirilmiş formada reallaşdırılması məqsədilə xidmətdə aidiyyəti qurumların nümayəndələrindən ibarət geniş tərkibli işçi qrupu yaradılıb. Hazırda işçi qrupu tərəfindən hazırlanmış tədbirlər planı üzrə işlər uğurla həyata keçirilir.**

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin məlumata əsasən, COP29 Azərbaycan Əməliyyat Şirkətinin Ağ Şəhər ərazisində yerləşən ofisinə etibarlı və dayanıqlı, genişzolaqlı internet xidmətlərinin təşkili üçün iki fərqli istiqamətdən fiber-optik kabel xətləri çəkilib və həmin mərkəzin “AzStateNet” dövlət şəbəkəsinə qoşulması təmin edilib. Mərkəzin digər əlaqəli sahələri və tədbirin keçirildiyi zonalar da fəaliyyət müddətində etibarlı və dayanıqlı “AzStateNet” internet şəbəkəsi ilə təmin olunub.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri, ekspertləri ilə qarşılıqlı müzakirələrə və razılaşmalara əsasən, konfransın keçiriləcəyi məkanda quraşdırılan avadanlıqların və xidmətlərin həm sessiyadan əvvəl, həm də tədbir müddətində daxildən, eləcə də xaricdən edilə biləcək kiberhücumlardan qorunması məqsədilə birgə tədbirlər görülür.

# Enerji keçidinə 7 dəfə çox yatırım tələb olunur

## *2030-cu ilədək bu məbləğ 31,5 trilyon dollara çatmalıdır*

**Energetika naziri Pərviz Şahbazov mediaya müsahibəsində 2030-cu il hədəflərinə çatmaq üçün bərpaolunan enerji mənbələri hesabına fəaliyyət göstərən elektrik şəbəkələrində səmərəliliyi gerçəkləşdirmək məqsədilə 31,5 trilyon ABŞ dolları həcmində investisiya yatırımının zəruriliyini bildirib.**



Nazirin sözlərinə görə, hazırkı səviyyədə bu göstərici 2024–2030-cu illər arasında hər il tələb olunan 1,5 trilyon ABŞ dollarından azdır. Buna görə də bərpaolunan enerji potensialını və investisiya qoyuluşunu ildə 2 dəfədən çox, enerji səmərəliliyinə sərmayəni isə 7 dəfə artırmaq lazımdır.

P.Şahbazov vurğulayıb ki, Azərbaycan dünyada enerji keçidinin sürətləndirilməsi prosesinə rəhbərlik etməklə yanaşı, həm də milli və regional miqyasda bərpaolunan enerji potensialının artırılmasını şərtləndirən irimiqyaslı milli və transsərhəd layihələr həyata keçirir.

Energetika naziri daha sonra deyib: “2027-ci ilə qədər proqramımızın icrasının birinci mərhələsi çərçivəsində ötən il ölkəmizin bərpaolunan elektrik enerjisi gücü 373,6 MVt artıb. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan bölgələrində yaşıl enerji zonalarının yaradılması respublika miqyasında “xalis sıfır emissiya”ya keçid üçün əsas olacaq. 2030-cu ilə qədər 7 giqavat “yaşıl” enerji istehsal etmək planlarımız var.

Həmin göstəricinin 70 faizi ixrac ediləcək və biz ardıcıl olaraq 3 böyük yaşıl interkonnektor – “Xəzər–Qara dəniz–Avropa”, “Mərkəzi Asiya–Azərbaycan–Avropa” və “Azərbaycan–Türkiyə–Avropa” layihələri üzərində işləyirik. Həmin “yaşıl” enerji dəhlizləri Mərkəzi Asiyadan Avropaya, daha geniş coğrafiyada “yaşıl” enerji keçidinə mühüm töhfə verəcək. Azərbaycan öz “yaşıl” gündəliyinə, eləcə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq səylərinə sadiqdir”.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# "Yaşıl dünya" naminə həmrəylik



# İstiləşmə su qıtlığını kəskinləşdirib

## *Alimlər çıxış yolunu nədə görürlər?*

**Azərbaycan 2015-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına qoşularaq Paris sazişini imzalayıb. Sazişin uzunmüddətli temperatur hədəfi qlobal orta temperaturun artımını əvvəlki səviyyədən–2 dərəcədən xeyli aşağı saxlamaq və 1,5 dərəcə selsiyə qədər məhdudlaşdırmaq olub. Bunun üçün 2030-cu ilə qədər istixana effekti yaradan qaz emissiyalarının, təxminən, 50 faiz azaldılması qarşıya mühüm vəzifə kimi qoyulub. Coğrafiya elmlər doktoru Nəriman Paşayev bununla bağlı söhbətində dedi:**

– Ölkəmizin ərazisinin çox hissəsini yarımsəhra və quru çöl iqlimi əhatə edir. Bu ərazilərdə böyük su çatışmazlığı var. Azərbaycanın 66,4 faizi subtropikdir. Özü də quru subtropik iqlimdir. Qalan 30 faizdən çox hissəsi isə mülayimdir. Ona görə də iqlimdə bu gün baş verən quraqlıq prosesi ölkəmizə çox baha başa gəlir. Kür – Araz, Samur – Dəvəçi, Abşeron – Qobustan ovalıqları, Naxçıvanın Araz çayı boyu düzənliyi iqlim dəyişikliyinə daha çox məruz qalır. Yarımsəhra və quru çöl iqlimində olan bu ərazilərdə böyük su çatışmazlığı var.

Azərbaycan isə Cənubi Qafqazda istər adambaşına düşən içməli, istərsə də suvarma suyuna görə sonuncu yerdədir. Yəni ölkəmiz Ermənistan və Gürcüstandan da az su təminatına malikdir. Bizim ən böyük problemimiz su ehtiyatının, əsasən, Türkiyə və Rusiya hesabına formalaşmasıdır. Ən böyük çaylarımız olan Kür və Araz Türkiyədən, Samur çayı isə Rusiyadan daxil olur. Qlobal istiləşmə ilə əlaqədar Türkiyə su probleminin həlli üçün Kür və Araz çayları üzərində su anbarları tikib və bu, hazırda da davam etdirilir.

***– Su qıtlığı tarixən bəlalı məsələ olub. İstiləşmə bu problemi ən yüksək həddə çatdırıb.***

– Hidrometeoroloqların üzərinə böyük məsuliyyət düşür. Uzun illər ölkəmizdə Hidrometeorologiya Komitəsi və Hidrometrologiya İnstitutu fəaliyyət göstərib və bu sahədə böyük işlər görülüb. Lakin dünyanın bir çox ölkəsində iqlim dəyişikliyi ilə məşğul olan institutların açıldığı bir vaxtda onları bağladıq.

Biz faktiki olaraq mövcud su ehtiyatımızdan səmərəli istifadə edə bilmirik. Yağış suları istifadə olunmadan axıb gedir. Bilirsiniz ki, bu il keçən ilə nisbətən çox yağış yağıb, dolu düşüb, sel və daşqınlar olub. Əvvəllər sel üçün axmazlar deyilən xüsusi sahələr yaradılırdı və sel suları ora yönəldilirdi. Bu il sel əmələ gəldi, əraziləri su basdı, amma quraqlığın, su çatışmazlığının olduğunu bilə-bilə ondan düzgün istifadə etmədik.

Yeraltı və mineral sulardan səmərəli yararlanmaq əvəzinə, onları çirikləndiririk. Bunun üçün, ilk növbədə, su itkisinə qarşı mübarizə gücləndirilməli, köhnə borular yenilənməli, torpaq kanallar beton üzlüyə alınmalıdır. Çünki torpaq kanallarda suyun 20–40 faizi itkiyə gedir.

Bundan başqa, iqlim dəyişikliyi ilə əlaqədar ölkənin su təhlükəsizliyinin təmin edilməsi üçün transsərhəd sulardan asılılıq azaldılmalı, o cümlədən daxili çaylar üzərində su anbarları tikilməli, suya qənaətedici suvarma texnikası və texnologiyaları tətbiq edilməli, suvarma suyundan səmərəli istifadə mexanizmi hazırlanmalıdır. Sel və daşqın sularından səmərəli istifadə etmək üçün müasir tələblərə cavab verən axmazlar, yeni su anbarları yaradılmalıdır. Bunlar yayda Kür və Araz çaylarında suyun azalmasını müəyyən dərəcədə kompensasiya edə bilər.

***– Ətraf mühiti çirklənmədən xilas etməyin əsas yollarından biri tullantısız texnologiyaya keçilməsidir.***

– Ətraf mühiti qorumağın əsas yolu tullantısız texnologiyaya keçməkdir. Bu gün ölkədə cəmi bir tullantı emalı müəssisi –Balaxanıdakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu fəaliyyət göstərir. Dördüncü nəsil (4G) texnologiyalarının tətbiqi ilə qurulan bu müəssisə istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri zavod hesab olunur. Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verir.

Bir zavod isə ölkəmiz üçün çox azdır. Çünki hər yerdə tullantı nəzərə çarpır. Biz insanlara aşılamalıyıq ki, ətraf mühitdə heç bir tulantı yoxdur və bunların hamısı xammaldır. Elə şeylər var ki, onları xaricdən alırıq. Məsələn, ölkəmizdə tulantılardan kağız və plastik qabların istehsalında istifadə oluna bilər. Bunun üçün regionlarda da müəssisələr açmaqla həm yeni iş yerləri yaradılar, həm də ətraf mühit qorunar. Təəssüf ki, tullantıların çox hissəsini emala yönəltmək əvəzinə, ya yandırır, ya da çaylarımıza atıb onu çirkləndiririk.



***– İqlim dəyişikliyinə ən çox məruz qalaq torpaqdır. Qlobal quraqlıq birbaşa Yer səthinə təsir göstərir, onu deqredasiyaya uğradır.***

– Bəli, iqlim dəyişikliyi qlobal quraqlığa birbaşa təsir göstərir, torpağı deqredasiyaya uğradır və münbitliyini zəiflədir, məhsuldarlığını aşağı salır. Üstəlik, bizim torpaqların 50 faizdən çoxu boz torpaqlardır, əkinə yararsızdır. Onu yararlı vəziyyətə gətirmək üçün sovet dövründə vəsait ayrılır, şoranlıqlar təmizlənir, yuyularaq münbit hala gətirilirdi. Bu gün həmin torpaqlar ayrı-ayrı şəxsi təsərrüfatlara verilib və əksəriyyəti isə kiçik təsərrüfatlardır. Fermerlər isə bu problemin öhtəsindən gələ bilmirlər. Amma iri təsərrüfatlarda vəziyyət fərqlidir. Aqroparklarda hər hektardan 50, hətta 60 sentner taxıl yığılır. Kiçik təsərrüfatlarda isə bu göstərici maksimum 25–30 sentner arasında dəyişir.

Sahələrə düzgün aqrotexniki qulluq, zərərvericilərə qarşı vaxtında və səmərəli mübarizə, gübrə və pestisid ilə lazımi təminat, düzgün toxum seçimi və suvarmada müasir metodlardan istifadə və digər amillər məsuldarlığa təsir edir. Bunlar bütün resursların bir əldə cəmlənməsi sayəsində mümkün olur. Kiçik təsərrüfatlar bu imkana sahib deyil. İqlim dəyişikliyi ilə mübarizədə iri təsərrüfatlar daha səmərəlidir.

***Müsahibəni apardı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov "Gələcəyin sədaları: İqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi" mövzusunda Dayanıqlı İnkişaf Məqsədləri dialoqunda Azərbaycanın dünyanın iqlim dəyişikliklərinin mənfi təsirlərinə məruz qalan ən həssas ölkələri siyahısında yer aldığını və bu həssaslığın bizim azalan su ehtiyatlarımızda, seyrəkləşən meşələrimiz və biomüxtəlifliyimizdə müşahidə olunduğunu bildirib.**

Nazir müavini bunun müxtəlif səbəblərdən baş verdiyini vurğulayaraq qeyd edib ki, 20-30 il bundan qabaq qlobal iqlim dəyişikliyinin təsirlərindən danışıldıqda dünya alimləri və mütəxəssislər iki amilə nəzər yetiriblər: "Bunlardan birinin insan fəaliyyəti ilə yaranan antropogen təsirləri ilə, digərinin isə təbii hadisələrlə bağlı olduğunu söyləyiblər. Amma son 100-150 ildə sənayeləşmənin intensiv istiləşməyə gətirib çıxarması mövcud şəraitin birbaşa antropogen təsirlər hesabına yaranmasını deməyə əsas verir. Belə ki, müxtəlif tədqiqatlarla sübut olunur ki, son 10 ildə Yer kürəsinin qabığı 1,5–2 dərəcə qızıb. Ötən 1 əsrdə Yer qabığının 1,5 dərəcədən çox qızması isə göstərir ki, burada antropogen təsirlərin rolu çox böyükdür".

Səhralaşmanın qarşısının alınması, iqlim dəyişikliyindən qorunması məqsədilə dünya ölkələrində fermerlər və yerli icmalar arasında dayanıqlı kənd təsərrüfatı, torpaq ehtiyatlarından səmərəli istifadəyə dair maarifləndirmə işləri aparılır. Eyni zamanda, bir çox ölkələrdə quraqlıqdan erkən xəbərdarlıq sistemləri qurulur, eroziyaların qarşısının alınması üçün meşə əraziləri salınır və yaşıllaşdırma işləri görülür.

Bütün bunlarla bərabər, dünyada bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinin gerçəkləşdirilməsi məqsədilə qanunvericiliyin və institusional çərçivənin təkmilləşdirilməsinə xüsusi önəm verilib. Bioloji müxtəlifliyin qorunması, o cümlədən nadir və nəsli kəsilməkdə olan flora və fauna növlərinin mühafizəsi, qanunsuz ovun aradan qaldırılması üçün bir sıra beynəlxalq razılaşmalar, konvensiyalar qəbul edilib.

# Azərbaycan iqlim dəyişikliyinə həssas ölkələrin ön sırasındadır



Buradan aydın olur ki, yeni minillikdə ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilib. Dünyada demoqrafik artımla yanaşı, istehlakın kəskin artması, qlobal istiləşmə, ozon qatının zədələnməsi, təbii ehtiyatların tükənməsi kimi narahatlıq doğuran məsələlər ətraf mühitlə bağlı düşüncə və fəaliyyətlərə də öz təsirini göstərib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanması yalnız inkişafın yeni ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelinin–davamlı inkişafın formalaşdırılması hesabına ola bilər. Bu kontekstdə hazırda əsas prioritet davamlı inkişafın məqsədlərinin reallaşdırılması üzrə qlobal, regional və milli alətlərin əlaqələndirilməsidir.

Dünya Sağlamlıq Assambleyası atmosfer havasının çirklənməsinin mənfi ekoloji təsirlərinin azaldılması istiqamətində yol xəritəsini təsdiq edib. Həmin yol xəritəsində atmosfer havasının çirklənməsinin sağlamlığa təsirləri haqqında məlumat bazasının genişləndirilməsi, Dayanıqlı İnkişaf Məqsədlərinin havanın çirklənməsinə dair hədəflərinə istiqamətlənən monitorinqlərin aparılması və hesabatların hazırlanması, yerli, milli, regional və qlobal səviyyələrdə əməkdaşlıq imkanlarının artırılması kimi fəaliyyətlər öz əksini tapıb.

Beynəlxalq hesabatlarda atmosfer havasının çirklənməsinin əsas mənbələrindən birinin nəqliyyat vasitələri olması qeydə alınıb. Artıq bir çox inkişaf etmiş ölkələrdə təbii resursların qənaətlə istifadə edilməsi, habelə ətraf mühitin mühafizəsi məqsədilə Avro standartlarına keçilib. Atmosfer havasının çirklənməsinin qarşısının alınması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məqsədilə enerji effektivliyini təkmilləşdirən texnologiyalardan, habelə davamlı enerji mənbələri kimi alternativ enerjidən (külək, günəş, bioqaz, biokütlə, geotermal, hidroelektrik) istifadə geniş miqyas alıb.

Su ehtiyatları tükənən sərvət olduğundan onun inteqrasiyalı və səmərəli idarəsinə son illər xüsusi önəm verilib. Belə ki, bu məsələ BMT-nin "2030: Dayanıqlı İnkişaf Məqsədləri"nin və təbii fəlakət risklərinin azaldılmasına dair Sendai Çərçivə Programına və Paris Sazişi kimi beynəlxalq müqavilələrə daxil edilib. Su böhranı Dünya İqtisadiyyat Forumunun 3 qlobal risklər siyahısında artıq 3 ildir ki, yer alıb. Bunun nəticəsidir ki, suların çirklənməsinin qarşısının alınması məqsədi ilə tədbirlər görülməsi, suların transsərhəd çirklənməsinin qarşısının alınması məqsədilə transsərhəd diaqnostik analizlər aparılması, milli, regional və qlobal səviyyədə müxtəlif layihələr həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb.

Torpaqların deqradasiyasının, səhralaş-

Dünyanı narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. Bu təhlükəli halın canlı aləmə təsiri dünya ictimaiyyətini getdikcə daha çox narahat edir. İstixana qazlarının emissiyalarının artması isə yer səthi və atmosferin əlavə olaraq istiləşməsini şərtləndirir. İqlim dəyişmələri təbii ekosistemlərə, eləcə də məhsuldarlığa mənfi təsir göstərir ki, bu da bəşəriyyəti təhlükəyə məruz qoya bilər.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının əsas məqsədi iqlim sistemində təhlükəli antropogen müdaxilənin qarşısını ala biləcək səviyyədə istixana qazlarının atmosferdə konsentrasiyalarının sabitləşməsinə nail olmaqdır. Bu səviyyə ekosistemlərin iqlim dəyişikliyinə təbii olaraq uyğunlaşmasına imkan vermək, qida istehsalının təhlükəyə məruz qalmamasını gerçəkləşdirmək və iqtisadi inkişafın dayanıqlı şəkildə davam etməsinə imkan yaratmaq üçün kifayət edə bilən zaman çərçivəsində əldə edilməlidir.

Ətraf mühitə mənfi təsir göstərən səbəblərdən biri də bərk məişət tullantılarının, xüsusi ilə də plastik tullantıların düzgün idarə olunmaması ilə bağlı yaranan problemlərdir. Plastik tullantılar ətraf mühiti çirkləndirən əsas amillərdən biridir. Bu vəziyyətin ağırlaşdırılması isə əsasən, belə tullantıların təbiətdə miqdarının ilbəil artmasıdır.

Avropa İttifaqına üzv dövlətlər tərəfindən qablaşdırma tullantılarının əmələ gəlməsinin qarşısını almaq və bu tullantıların ətraf mühitə təsirini azaltmaq məqsədilə qablaşdırma tullantılarının təkrar istifadəsi sisteminin formalaşdırılması ilə bağlı tədbirlər görülür. Eyni zamanda, nəzərdə tutulan hədəflərə nail olmaq üçün qablaşdırma tullantılarının, o cümlədən plastik qablaşdırma tullantılarının geri qaytarılması və ya toplanması, təkrar emalı üçün sistemlər tətbiq edilir. Bir sıra Avropa ölkələrində qablaşdırma materiallarının toplanması, utilizasiyası, təkrar emalının maliyyələşdirilməsi qeyri – kommersiya təşkilatları (fondlar) tərəfindən həyata keçirilir.

Hazırda dünya ölkələri plastik torbaların ətraf mühitə və insan sağlamlığına mənfi təsirindən əziyyət çəkir. Bu səbəbdən də artıq bir çox dövlətlərdə plastik torbalara alternativ olaraq təkrar istifadəsi və emalı mümkün hesab edilən, bioloji parçalanan materiallardan hazırlanan torbalardan istifadə olunur, plastik torba istehsalının azaldılması üçün qadağaları, ödənişli istifadəni və ya vergi sistemini özündə cəmləşdirən qanunvericilik sənədlərinin hazırlanmasını diqqətdə saxlayır.

# Qara dəniz layihəsi COP29-da təqdim ediləcək

## *İlkin hesabatda texniki-iqtisadi əsaslandırma əksini tapacaq*



**COP29 Azərbaycan Əməliyyat Şirkətinin məlumatına görə, iqlim konfransı çərçivəsində keçiriləcək "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi üzrə Liderlər Sammiti"ndə dəhlizin texniki–iqtisadi əsaslandırmasının ilkin hesabatı təqdim ediləcək.**

Xatırladaq ki, Avropaya ilkin mərhələdə 4 qiqavat "yaşıl" enerji tədarük edəcək, Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstanı əhatə edən və Bolqarıstanın qoşulacağı bu önəmli layihənin texniki–iqtisadi əsaslandırılmasının ilin sonunadək yekunlaşdırılması planlaşdırılır.

Məlumata əsasən, "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalandığı 2022-ci ilin dekabr ayından etibarən layihə üzrə Nazirlər–Rəhbər Komitənin 8 iclası keçirilib.

Bildirilib ki, bərpaolunan enerji mənbələrinin artmaqda olan payını inteqrasiya etmək üçün Avropaya güclü elektrik enerjisi interkonnektorları lazımdır. Bu, Avropanı həm rəqəmsal kommunikasiya, həm də enerji üçün Qara dənizin hər iki tərəfindən, həmçinin Xəzər dənizi regionu ilə bağlayacaq vacib layihədir. Azərbaycan başlanğıc nöqtəsi Mərkəzi Asiya olan yeni bir enerji dəhlizi təşəbbüsünün də vacib tərəfidir.

"Xəzər–Qara dəniz–Avropa" yaşıl enerji dəhlizinin Mərkəzi Asiyaya qoşulması imkanı da müzakirə olunur: "Beləliklə, Avropada təchizatın təhlükəsizliyini gücləndirəcək, eyni zamanda, təmiz enerjiyə keçidi sürətləndirəcək "Xəzər–Qara dəniz–Avropa", "Azərbaycan–Türkiyə–Avropa" və "Azərbaycan–Mərkəzi Asiya–Avropa" "yaşıl" enerji dəhlizləri ümumAvrasiya miqyaslı vahid "yaşıl" enerji platforması olmağa iddialıdır. Azərbaycanın liderlik etdiyi bu layihələrin unikallığı ondan ibarətdir ki, bu dəhlizlər bərpaolunan enerji sistemində istehsalla istehlak mərkəzlərini, regionları və qitələri əlaqələndirəcək, balanslaşmanı təmin edəcək. Avropaya yaşıl enerjini müxtəlif marşrutlarla Azərbaycan, Xəzər və Mərkəzi Asiya regionları kimi etibarlı enerji mənbələrindən gətirməklə strateji missiya yerinə yetirmiş olacaq.

Bu gün interkonnektorların şəbəkə dayanıqlığının artırılmasında və regionlar arasında daha geniş bərpaolunan enerjinin inteqrasiyasının dəstəklənməsində mühüm rolu ilə bağlı qlobal səviyyədə olan çağırışları nəzərə aldıqda ölkəmizin proaktiv addımlar atdığı bir daha aydın görünür.

# Ekoloji tarazlığa maliyyə dəstəyi

**Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı nümayəndəsi Aliyə Əzimova Bakıda keçirilən "Gələcəyin sədaları: İqlim fəaliyyəti və qlobal məqsədlərə yönələn səylərin əlaqələndirilməsi" mövzusunda 5-ci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqunda bildirib ki, aşağı və orta gəlirli ölkələrin iqlimlə bağlı fəaliyyətlərini dəstəkləmək üçün 2030-cu ilə qədər 1,7-3,4 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsinə ehtiyac var.**



"Lakin hazırda bu ölkələrə illik iqlim maliyyə axını 425 milyard dollardan azdır. Bu axınlar 2030-cu ilə qədər ən azı 4 dəfə artmalı və bunun 80 faizdən çox hissəsini özəl sektor təmin etməlidir", – A.Əzimova bildirib.

Onun sözlərinə görə, Beynəlxalq Maliyyə Korporasiyası 29-cu iqlim konfransına qədər Azərbaycan üçün "yaşıl" binaların inkişafı üzrə Yol xəritəsini təqdim etməyi planlaşdırır.

Mərkəz Bankın ölkədə "yaşıl" taksonomiya hazırladığını xatırladan A. Əzimova bunun Beynəlxalq Maliyyə Korporasiyası kimi investorlara Azərbaycanda "yaşıl" maliyyələşdirmə həllərini tətbiq etməyə imkan yaradacağını vurğulayıb.

A.Əzimova qeyd edib ki, iqlim proqramlarının həyata keçirilməsi üçün çox az vaxt qalıb. İlk növbədə Azərbaycan kimi inkişafda olan ölkələrdə bank kreditlərinin və iqlim layihələrinin sayını artırmaq lazımdır. Qlobal səviyyədə kifayət qədər likvidlik və vəsait mövcuddur. Lakin riskləri azaltmaq üçün qarışıq maliyyələşməni tələb edən layihələrin sayını və miqyası artırılmalıdır.

***Səhifəni hazırladı:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Cəbrayıla gedən odlu yolu yaran tankçı

## *Həmin qəhrəman hərbi hissə komandiri, 32 yaşlı mayor Amid Heydərov idi*

**Elə nəsil tapmaq olmaz ki, onun doğmasından, yaxınından kimsə Qarabağ uğrunda savaşda iştirak etməsin. Mənim də doğmalarım, qardaşlarımın, bacılarımın övladları Vətən müharibəsində iştirak ediblər. Bacım oğlu kəşfiyyatçı-rabitəçi Vüqar Namazov I Qarabağ müharibəsində Goranboy rayonunun Tapqaraqoyunlu kəndində, digər bacımın nəvəsi topçu Seymur Mehdiyev Vətən müharibəsində Füzulidə şəhidlik məqamına ucalıblar.**

2020-ci ilin qanlı-qadalı günlərində imkan tapdıqca uşaqlarla əlaqə saxlayırdım. Murovda, Tərtərdə, Ağdərədə, Kəlbəcərdə, meşələrdə, dağlarda, dərələrdə... Hər dəfə onlara “ehtiyatlı ol, bala, evin tək oğlusan”– söyləyəndə “öndə biz getmirik: tanklar, ardınca xüsusi təyinatlılar, sonra biz. Nigaran qalma. Bir canımız var– Vətənə qurban. Evdən ya qazi, ya da şəhid olmağa çıxmışıq,”– deyib mənə təskinlik verirdilər.

O vaxtdan 4 il keçib. Hər dəfə müharibədən söz düşəndə o öndə gedənləri düşünürdüm–tankçıları... Onlar müharibə haqqında çəkilmiş filmlərin simvolu kimi hafizəmə hopub. Müharibə deyiləndə gözüm önünə üz-üzə dayanan hərbçilər yox, sıraya düzülmüş tanklar gəlir. Mənim nəzərimdə tank qan-qadanın, müharibənin simvoludur. İşə bax ki, bu dəfə haqqında söhbət açacağım Vətən Müharibəsi Qəhrəmanı tankçı olub. Şəhid mayor Amid Heydərovu deyirəm – Lerik balasını. Gözünü açandan 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovla bağlı xatirələr eşidib, filmlər görüb, kitablar oxuyub. Elə hərbçi, xüsusilə də tankçı peşəsini seçməyə də, yəqin ki, bu xatirələrin təsiri olub.

### Xatırlatma

Vətən müharibəsində idarə etdiyi tankla düşmənin müdafiə xəttini ilk yararaq onların mövqelərini darmadağın edən cəsur zabitlərimizdən biri də şəhid mayor Amid Heydərov olub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov məktəbinin davamçısı kimi bu peşəyə dərindən yiyələnib.

Amid 1988-ci il mayın 20-də Lerik rayonunda Rəbbil və Şükufə Heydərovların ailəsində doğulub. Ailədə 3 oğul – Asim, Amid və Heydər böyüyüb. Atası Rəbbil Heydərov indi təqaüddə olsa da vaxtilə rayon poçt sistemində çalışıb. Anası Şükufə Heydərova evdar qadın olub. Sadə, zəhmətkeş ailədə böyüyən Amid cəsarətli və mərd böyüyüb.

Azərbaycan Ordusunun 32 yaşlı mayoru Amid Heydərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, oktyabrın 3-də şəhidlik məqamına yüksəlib və Lerik şəhərində dəfn olunub.

### Əbədi ehtiram

**2021-ci ildə Lerik şəhərində Vətən Müharibəsi Qəhrəmanı mayor Amid Heydərovun xatirəsinə yaradılmış**



**parka onun adı verilib və büstü qoyulub. 2021-ci ildə Lerik şəhəri 2 saylı Körpələr evi-uşaq bağçasına Amid Heydərovun adı verilib. Bakıda Nizami rayonundakı bir küçə Amid Heydərovun adınadır. Şuşada bir post onun adını daşıyır.**

**Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Amid Heydərova “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. Bundan başqa, o, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.**

### Lerikdən hərbi təhsilə

Uşaqlıqdan özünə Həzi Aslanovu örnək seçən Amidin böyüyəndə general olmaq arzusu onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirib. Orada təhsil aldıqdan sonra, 2006–2010-cu illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərb sənətinin incəliklərini, sirrlərini öyrənib, tankçı olmaq arzusunu reallaşdırıb. 2010-cu ildə hərbi məktəbi bitirib leytenant rütbəsi ilə Ağcabədidə işə başlayıb. Müharibəyə qədər o peşəsini təkmilləşdirib, təcrübə qazanıb.

Sağlığında orduda misilsiz xidmətlərinə görə “Azərbaycan Silahlı Qüvvələ-



rinin 90 illiyi”, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalları və “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medala layiq görülüb.

### Lələtəpədə ilk hücum

2016-cı ildə Aprel döyüşləri başlayır. Amid Heydərov kimi hərbçilər – tankçılar bu döyüşlərdə fəal iştirak edirlər. Onlar həm torpaqlarımızı, yüksəkliklərimizi azad edir, həm də daha geniş miqyaslı döyüşlərdə iştirak üçün təcrübə toplayırlar. Mülki şəxslər bilməsələr də Amid və onun kimi həyatını hərb sənətinə bağlayanlar bilirdilər ki, gec-tez ordumuz ərazilərimizi işğaldan azad etməyə qalxacaq.

Rəsmi məlumatlara görə, Aprel döyüşlərində Lələtəpəyə çıxan ilk tankçılardan biri məhz Amid Heydərov olub. 32 yaşında hərbi hissə komandiri olan mayor Amid Heydərov Vətən müharibəsində də hücum əmri veriləndə tankı ilə düşmənin müdafiə xəttini yaran ilk cəsur döyüşçülərimizdəndir. Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəman mayor öz şəxsi heyəti ilə yüksəklikləri atəşə tutaraq düşmənə göz açmağa imkan verməyib, son mərmisinə, son nəfəsinədək tarix yazıb.

Döyüş yoldaşlarının xatirələrinə görə, Cəbrayılda gedən qızğın döyüşlərin birində Amidin tankı vurulur. Komandir yaralıları tankdan çıxarmaq istəsə də, ermənilərin aramsız atəşi buna imkan vermir. O dərhal ani qərar qəbul edir və çətinliklə ikinci tanka keçir. Amid düşmənin üzərinə təkbaşına gedir, mərmilərin hamısını düşmənin postuna istiqamətləndirir. Postu darmadağın edir və nəhayət, düşməni susdurur. O, mərmisi qurtardığı üçün geri qayıdır. Elə bu vaxt qarşı tərəfin postdan kənarda pusquya yatan dəstəsi onun tankını yenidən hədəfə alır və aramsız atəş açırlar. Mərmisi qurtarmış Amid atəşə cavab verə bilmir və tankın




içində qəhrəmancasına şəhid olur.

Oğlunun şəhid olduğu xəbəri valideynlərinə çatanda yeri-göyü titrədən fəryad bütün Leriki ayağa qaldırır. Cəmi 1 il öncə serobral iflicdən əziyyət çəkən sonbeşik oğlu Heydərin ölümündən sonra Amidin qara xəbərini alan ananın beli bükülür. Azərbaycan Bayrağına bükülmüş tabutda yatanın Amid olduğuna inanmayan Şükufə xanım nalə çəkir, ağı deyir. Amma nə fayda... Torpağın üzü soyuq olur deyirlər. Amidin dəfnindən sonra ananı birtəhər sakitləşdirirlər...

### Öyünclü xatirələr

**Şükufə Heydərova oğlunun intiqamının düşməndən alındığına görə təskinlik tapdığını deyir:**

– Şuşada bayrağımızın qaldırılması ilə Amidin ruhu şad oldu, bilirəm. Anayam, hər kəsdən çox mənə çətindir. Hər gün onun otağına girirəm, şəkilləri və paltarları ilə danışıram. Onun yoxluğu ilə barışmaq mümkün deyil, bacarmıram. Mənim balam həqiqətən çox mərd uşaq idi. O, iki dəfə müharibədə iştirak etdi. Lələtəpənin yüksəkliyini alanda birinci tankı ora özü çıxardı. Vətən müharibəsində bizə idarə etdiyi tankın yanında çəkdirdiyi bir şəkli göndərmişdi. Tankın üstünə yazmışdı: “Şuşa – son mənzilimiz”. Çox təəssüf ki, ora çata bilmədi, Şuşanın azadlığında iştirak edə bilmədi. Şuşa həsrətli qəhrəman balam gül kimi tez açıldı, tez soldu.

Amid Heydərovun döyüş yolunu əhatə edən, həyatına, ailəsinə həsr olunmuş videolara baxıram. Bunlar xatirə üçün çox yaxşı olsa da, övladını, yaxud, həyat yoldaşını, dostunu bu videolarda canlı görüb, sonra onun yoxluğunu yenidən dərk etmək nə qədər ağırdır? İstər valideynləri, həyat yoldaşı, istərsə də digər doğmaları üçün.

**Qəhrəmanımızın qardaşı Asim Heydərov FHN-nin Lənkəran Şəhər Yanğından Mühafizə Xidmətində işləyir:**

– Amidin ölümü ilə mən qardaş yox, çox yaxın bir dost itirmişəm. Harada olmasından asılı olmayaraq, imkan tapanda zəng edirdi. Həmişə danışanda deyirdi ki, ordumuz ki, belə irəliləyir, belə ki, gedirik, inşallah, torpaqlarımızı tezliklə işğaldan tam azad edəcəyik. Ən böyük arzusu general olmaq idi. Bir də Lələtəpəyə 1-ci çıxdığı kimi, Şuşaya da ilk gedən tankçı olmaq arzusunda idi. Qismət olmadı, amma yoldaşları onun arzusunu yerinə yetirdilər. Qardaşımın qanını yerdə qoymadılar, Qarabağımız işğaldan azad olundu. Şuşaya özü gedə bilməsə də adı getdi.

**Rəbbil Heydərov qəhrəman atası olmaqdan qürur duyur:**

– 2023-cü il sentyabr ayının 28-də Bakının Nizami rayonunda oğlum şəhid mayor Amid Heydərovun adını daşıyan küçənin ünvan lövhəsinin açılış mərasimi oldu. B.Nuriyev və C.Naxçıvanski küçələrini birləşdirən adsız küçə “Amid Heydərov küçəsi” adlandırıldı. Açılışda Nizami Rayon İcra Hakimiyyətinin rəhbərliyi, məsul əməkdaşları, qazilər, rayon ictimaiyyətinin nümayəndələri, Amidin döyüş yoldaşları və ailəmiz iştirak edirdi. O günü mən heç vaxt unutmayacağam.

Həmin açılışda əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən və bu Qələbəni bizə bəxş edən əsgər və zabitlərimizin göstərdiyi qəhrəmanlıq və şücaətdən danışdılar. Müharibədə qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin unudulmayacağını, onlara və ailələrinə hər zaman diqqət və qayğı göstəriləcəyini bildirdilər.

Sonda Amidin döyüş yoldaşları onun qəhrəmanlığından, vətənpərvərliyindən söz açdılar, xatirələrini bölüşdülər. Övladımın itkisi bir ata kimi məni nə qədər



kədərləndirsə də, sarsılsam da, onun yoxluğu ilə barışmasam da, düşünürəm ki, Vətən uğrunda qurban gedən tək mənim oğlum deyil ki. Onların hər birinin arzusu Şuşaya bayraq sancmaq idi. Allah bütün şəhidlərimizin ruhlarını şad etsin. Mən orada ailəmiz adından göstərdikləri diqqət və qayğıya görə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirdim.

### Təsəlli, mənəvi güc

**Vətən Müharibəsi Qəhrəmanı şəhid mayor Amid Heydərovun özündən sonra Vətənə, ailəsinə əmanət qoyduğu 2 övladı yadigar qalıb. Onlar da ataları kimi vətənpərvər ruhda böyüyür. Amidin həyat yoldaşı Nuranə Heydərova ilə söhbət edirəm. Ailəsindən, Amidlə keçirdiyi günlərdən danışmasını xahiş edirəm. Ömür-gün yoldaşının uşaqlığından şəhid olduğu günə qədər hər anından söz açır:**

– Hərbçi olmaq şərəfdir, lakin bir o qədər də çətindir. Amidin yoxluğundan 4 il keçməsinə baxmayaraq, hələ də onu itirdiyimə inana bilmirəm. Elə bilirəm, haradasa xidmətdədir, vaxt tapan kimi zəng edəcək, uşaqları soruşacaq, onların nə yeyib-içdiyi ilə maraqlanacaq.

Amidlə 2012-ci ildə evlənmişik. Bizi xüsusi tanış etməyə ehtiyac olmayıb, çünki qohumuq. O məni, mən də onu uşaqlıqdan tanımışıq. Biz ailə quranda Amid 2 il idi ki, ali hərbi məktəbi bitirib Ağcabədidə xidmətə başlamışdı. Evləndiyimiz gündən o harada Vətənə xidmət edibsə, mən orada ona qulluq etmişəm. Ağcabədidən sonra Beyləqanda xidmətə göndərilib. Sonra təkrar Ağcabədiyə qayıtmışıq.

2014-cü il iyunun 15- də ilk övladımız – Şəms dünyaya gəldi. Amid sevincini yalnız telefonla zəng edib bildirdi. Çünki Ağcabədidə qulluqda idi, gələ bilmədi. Səid isə 2016-cı ilin 14 fevralında doğulub. Onda Beyləqanda xidmətdə idi. Həmişə deyirdi ki, Səid mənim “Sevgililər gününə” hədiyyəmdir. Uşaqlar Lənkəran şəhər xəstəxanasında doğulublar. Heç birində Amid yanımda olmayıb.

Uşaqlara qarşı çox həssas və mehriban idi. Evə gələndə onlarla müxtəlif oyunlar oynayardı. Şəms 6 yaşında idi, Səid isə 4. Onların anladığı, başa düşdüyü mövzularda suallar verirdi. Uşaqlar cavabı tapmayanda “Fikirləşin, gələn dəfə gələndə cavabını soruşacam”– deyirdi. Gedəndə uşaqlara tapşırardı ki, ananın sözünə baxın, dəcəllik etməyin, nə versə yeyin. Mənə isə deyərdi ki, uşaqlar nə istəsə al.

O, Aprel döyüşlərində iştirak etmişdi. Göstərdiyi qəhrəmanlığa görə və şəxsi igidliyinə görə ona Azərbaycan Prezidenti tərəfindən vaxtından əvvəl 28 yaşında kapitan rütbəsi verilmiş və vəzifəsi qaldırılmışdı. Amid bundan çox sevinirdi. Deyirdi ki, Vətənə şərəflə xidmət etməkdən üstün heç nə ola bilməz. O yerdə ki, zəhmətinə qiymət verilir, gərək daha çox və can-başla çalışasan. Hərbçi işinə şərəf işi deyirdi. O, 2020-ci ildə Füzulinin Əhmədbəyli kəndində yerləşən hərbi hissəyə komandir təyin olunmuş, mayor rütbəsi almışdı. O vaxt hələ II Qarabağ müharibəsi başlamamışdı.

Biz müharibənin başladığını sentyabrın 27-də televiziyadan öyrəndik. Onunla bir gün əvvəl telefonla danışmışdıq, mənə heç nə deməmişdi. Yəqin ki, hərbçi olaraq əks-hücum əməliyyatlarının başlayacağını bilməmiş olmazdı. Həmin xəbəri eşidən kimi Amidə zəng etdim. Telefonu açıq idi. Dedim ki, Amid, müharibə başlayıb? Yenə bildirmədi, dedi ki, yanlış xəbərdir. Sentyabrın 27-də saat 11–12 radələrində son dəfə danışdıq. Ondan sonra əlaqə saxlaya bilmədik. Amid danışığımızdan 6 gün sonra oktyabrın 3-də Cəbrayılın Ruzigar kəndində şəhidlik məqamına ucalıb.

Adının əbədiləşdirilməsi yolunda Amidə verilən adlar bizim üçün təsəllidir, adının yaşaması bizim üçün önəmlidir. Azərbaycan Prezidentinə Amidin ailəsi adından təşəkkür edirik. Çünki Amidin adı hər zaman yaşayacaq. Amid bu sənəti elə-belə seçməmişdi. O inanırdı və həmişə deyirdi: “Biz olmasaq da, bizdən sonrakı nəsil bu torpaqları azad edəcək”. Müharibə başlayanda onu da dedi ki, “xoşbəxt nəsilik ki, erməni tapdağı altında qalan torpaqlarımızı işğaldan azad etmək bizə nəsib oldu. İnanıram ki, biz torpaqlarımızı tez bir zamanda azad edəcəyik”. O, hər şeydən çox arzuladığı Qələbəni görməsə də, əminəm ki, ruhu şaddır.

Naxçıvanda yaşayan qazi Əli Əlisoy Amidin zabiti olmuşdu. Müharibədən sonra dünyaya gələn oğluna komandirinin şərəfinə Amid adı qoyub. Bu bizə təsəllidir ki, Amidin adı Naxçıvanda yaşayır. Əminəm ki, o böyüyəndə öz adı ilə maraqlanacaq və Vətən Müharibəsi Qəhrəmanının adını daşıdığına görə fəxr edəcək.

Biz hazırda Bakıda yaşayırıq. Amidin şəhidliyindən sonra Vətən Müharibəsi Qəhrəmanının ailəsi kimi dövlət bizi 2 otaqlı mənzil və Prezident təqaüdü ilə təmin edib. Qızım Şəmsin 11 yaşı olacaq. “Kaspi” liseyində 5-ci sinifdə oxuyur. 8 yaşlı oğlum Səid də həmin liseyin 3-cü sinif şagirdidir. Özüm ixtisasca ibtidai sinif müəllimiyəm. Amma hazırda işləmirəm. Uşaqların dərsləri ilə məşğul oluram. Onlara Amidin keçdiyi şərəfli döyüş yolundan, onun qorxmazlığından, düşmənin müdafiə xəttini ilk olaraq yardığından söz açıram. İstəyirəm bilsinlər ki, ataları necə bir qəhrəman olub.

Biz yaşadığımız yerə ev, Amidin məzarına isə “atanın evi” deyirik. Uşaqlar atalarının qəhrəmanlığı ilə fəxr edirlər. Liseydə hər zaman şəhid ailələri, qazilər, müharibə veteranları ilə keçirilən görüşlərdə fəal iştirak edir, hamıdan çox özlərinin qürurlanmağa haqları olduğunu deyirlər. Nə qədər ata xiffəti çəksələr də, hər ikisi düşünürlər ki, ataları müharibədən qayıtmayan çoxlu uşaq var. Onların hamısı dövlətə əmanətdir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Azərbaycan Xalq Cümhuriyyətinin misilsiz yadigarı

**Anar İSGƏNDƏROV,**
**Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor**

*Yaşa, çiçəklən, var ol, Bakı Universiteti*

**V.İ.Razumovski, BDU-nun ilk rektoru**

**Tarixdə xalqlar öz sayına görə yox, elm, təhsil, mədəni səviyyəsinə görə tanınır və yad olunur. Belə ki, qədim dövlətlər olan Misir, Yunanıstan, Hindistan, Çin və Mesopotamiya saysız-hesabsız müharibələrə görə yox, dünyaya verdikləri elmi kəşflərə görə tarixə düşmüşdür. Xalqı kütlə düşüncəsindən ayıran, cəmiyyətin fəal üzvünə çevirən, onu mübariz edən elm və təhsildir.**





VII əsrin ortalarından başlayaraq Azərbaycanda İslam dini yayılmağa başladı və bu ərazidə yaşayan xalqların vahid etnos halında birləşməsinə təkan verdi. İslam dini təbliğ edirdi ki, elm Çində olsa belə, onun ardınca getmək lazımdır. IX əsrin II yarısından başlayaraq Azərbaycan hökmdarları maarif və elmin inkişafına xüsusi qayğı göstərir, qabaqcıl elm adamlarını saraya toplayır, möhtəşəm məscidlər ucaldır, mədrəsələr açırdılar. Azərbaycanın bütün Şərqdə məşhur olan Gəncə, Bərdə, Marağa, Şamaxı, Dərbənd, Təbriz, Ərdəbil və başqa şəhərlərində mükəmməl təhsil verən çox sayda məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Məscidlərdə "Qurani-Kərim"lə yanaşı, müxtəlif elm sahələrinə dair ilkin məlumatlar verilir, mədrəsələrdə dini biliklər, şəriətlə yanaşı, məntiq, Şərq dilləri və təbiət elmlərinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi.

Avropada ilk universitetlər XI əsrdən təsis olunmağa başladı. Amma bu yol nə qədər şərəfli olsa da, onun uğurla başa çatdırılması çətin və üzücü olurdu. Belə ki, Orta əsrlər Avropasında kilsə hər şeyi öz təsiri altına almışdı. Din xadimlərinə belə gəlirdi ki, din adamları savad sahibi və hər şey haqqında hökm vermək iqtidarında olduqları üçün dünyəvi təhsilə ehtiyac yoxdur. Ona görə ayrı-ayrı adamların dünyəvi təhsillə bağlı çağırışları uğursuzluğa düçar olur, çox zaman aqibətləri tonqalda yandırmaqla başa çatırdı. Amma zaman öz sözünü deyirdi, dini hakimiyyət yavaş-yavaş zəifləyir, dünyəvi elmlər üçün yollar açılırdı. Buna ən bariz nümunə 1088-ci ildə İtaliyada Bolonya Universitetinin təsis edilməsi oldu. 1096-cı ildə Oksford, 1209-cu ildə Kembric, 1303-cü ildə Roma, 1348-ci ildə Praqa, 1365-ci ildə Vyana, 1453-cü ildə Barselona və İstanbul universitetləri fəaliyyətə başladığı halda, Şərq ölkələrində universitetlər Qərbdən bir neçə on illər öncə yaranıb.

Vaxtilə N.Tusinin Marağa şəhərində açdığı rəsədxana, Rəşidəddinin Təbrizdə təsis etdiyi "Dar-üş şəfa" (müalicə kompleksi), "Nizamiyyə" mədrəsəsi, Şah İsmayıl Xətainin Təbrizdəki kitabxanası xalqımızın ən böyük uğurları sırasında yer almışdır. Təbriz kitabxanasının yaradılmasının nəticəsi idi ki, bu saraya "Şərqin Rafaeli" adı ilə məşhurlaşmış, Nizami Gəncəvinin "Xəmsə"sinin əlyazmasına çəkilmiş miniatürləri ilə hazırda İstanbulun Topqapı və Londonun Britaniya muzeylərini bəzəyən Kəmaləddin Behzad kimi rəssamlar toplaşmışdı.

Nadir şahın ölümündən sonra Azərbaycanda yaranan müstəqil xanlıqların daim təhdid altında olması, həm xaricdən, həm də daxildəki təhlükələr elmin və təhsilin inkişafı üçün maneələr törədirdi. Xanlıqların əsas məqsədləri öz ərazilərini qorumaqdan ibarət olduğundan, çox təəssüflər olsun ki, Azərbaycanda rahat yaşamaq, müstəqil söz sahibi olmaq, öz dini dəyərlərinə etiqad etmək və ən nəhayət, bu torpağın sahibi kimi hökm vermək uzun çəkmədi.

XIX əsrin əvvəllərindən Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalına başlandı. Xanlıqların müstəqilliyinə son qoyan 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra Şimali və Cənubi Azərbaycan ifadələri meydana gəldi. Türkmənçay müqaviləsinin XV bəndi xalqımızın gələcək həyatı üçün faciələrin bünövrəsini qoydu: İran ərazisində yaşayan ermənilər istənilən vaxt Azərbaycan ərazisinə köçə bilər, Azərbaycanın istənilən torpağında yurd sala bilərdi və s. Çar Rusiyası gəlmə erməniləri açıq şəkildə və hər vasitə ilə himayə edirdi. Bu, azmış kimi, çar I Nikolay Azərbaycanın tarixi torpaqları olan Naxçıvan və İrəvan xanlıqlarının ərazisində erməni vilayətinin yaradılması haqqında fərman verdi.

Beləliklə, zorla işğal edilən Azərbaycan torpaqlarında özgə dil, özgə din, özgə hakimiyyət fəaliyyətə başladı. Bu işğal dünyada mövcud olan portəgiz, ispan və ingilis işğalına bənzəmirdi. Bu işğalın mahiyyətində təkcə əsarət zənciri yox, həm də erməniyə dayaq durmaqla yerli müsəlman əhalisinin torpaqlarının əlindən alınıb yadlara verilməsi və min illər boyu bu ərazidə məskunlaşan xalqa qarşı soyqırım siyasəti var idi.

Çar Rusiyası Azərbaycan xalqını öz mənəvi dəyərlərindən məhrum etmək üçün Şimali Azərbaycanı müsəlman qonşularından təcrid etməyə nail oldu. Albaniyanın keçmişi ilə bağlı tarixi abidələri məhv etdi və ya erməni idarəçiliyinə verdi. Hətta 1836-cı ildə Alban kilsəsini ləğv edərək, onun bütün səlahiyyətlərini erməni kilsəsinə verdi.

XIX əsrin 40-cı illərində çar Rusiyası tərəfindən həyata keçirilən inzibati islahatlar azərbaycanlıları çox şeydən məhrum etdi. İnzibati islahat adı altında mülkədar-bəylərin şəxsi torpaqları əllərindən alındı. Yerli xalq milli-mənəvi dəyərlərini həyata keçirərkən qadağalarla üzləşdi. Din adamlarının ən barışmaz zümrə olduğunu hiss edən çarizm Tiflisdə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsini təsis etdi. Ədalət naminə qeyd etmək lazımdır ki, bu idarə çarizm tərəfindən təşkil olunsa da, bütün fəaliyyəti dövründə öz xalqının maraqlarına zidd heç bir hərəkətə yol verməди. Əksinə, milli-mənəvi dəyərlərimizi qorumaq üçün ziyalılarımızla əl-ələ verdi. Hətta bu idarənin bəzi din xadimləri çar üsul-idarəsinin etiraz olaraq istefa verməkdən belə çəkinmədilər.

XIX əsrin ortalarından başlayaraq Azərbaycan xalqının tarixində yeni bir istiqamət formalaşmağa başladı. Çarizmin işğalına qədər bütün əlaqələrini müsəlman ölkələri ilə quran Azərbaycan xalqı üzünü Rusiyaya çevirməyə məcbur edildi. Azərbaycanın yeni ziyalı nəsli yetişməyə başladı. Azərbaycan tarixşünaslığının banisi, maarifçi-demokratik istiqamətin ilk nümayəndəsi Abbasqulu ağa Bakıxanov çarizmə qarşı mübarizənin daha sivil yolunu seçdi. 1837-ci il Quba üsyanının təşkilatçılarından sayılan A.Bakıxanov bu hərəkatın uğur qazana bilməməsinə ancaq təəssüflənə bildi. Üsyan iştirakçılarının hamısı ağır cəzalandırıldı.



Xan ailəsindən çıxan, işğal ağrılarını yaşayan və uğursuzluğun şahidi olan A.Bakıxanov azərbaycanlı əhalinin savadlanması üçün təhsil ocaqlarının – məktəblərin açılmasını vacib sayırdı. Hətta bu barədə ən yuxarı instansiyalara məktublarla müraciət etdi. A.Bakıxanov maarifçi-demokratik istiqamətin ilk qaranquşu idi.

A.Bakıxanov Quba kimi bir əyalət şəhərində elə bir kitabxana yaratmışdı ki, həmin mənbələr əsasında Şərq və Qərb tarixinə, fəlsəfə və coğrafiyaya, məntiq və əxlaqa dair qiymətli əsərlər qələmə almışdır. A.Bakıxanovun son dərəcə zəngin və qiymətli kitabxanası olduğunu bilən Qafqaz canişini Vorontsov-Daşkov onun ölüm xəbərini aldıqdan bir neçə gün sonra gənc şərqşünas N.Xanıkovu həmin kitabların siyahısını tutmaq və onların satınalma şərtlərini öyrənmək üçün təcili Qubaya göndərdi. Sonralar həmin kitabxananın mühüm bir hissəsi Peterburq Universitetinə bağışlandı.

A.Bakıxanovun maarifçi missiyası M.Kazımbəy, M.F.Axundzadə, M.Ş.Vazeh, M.C.Topçubaşov və başqaları tərəfindən uğurla davam etdirildi. Yeri gəlmişkən bir məqamı da qeyd etməyi özümə borc bilirəm. Mirzə Fətəlinin Azərbaycan ədəbi, ictimai-siyasi mühitində xidmətləri danılmazdır. Sovet dönəmində başqaları kimi Mirzə Fətəli də daha çox ateist yazar kimi təbliğ olunurdu. Bəlkə də bu təbliğatın nəticəsi idi ki, 90-cı illərin əvvəllərində yenidən müstəqilliyimizə qovuşan ərəfədə milli-mənəvi dəyərlərimizə sahib çıxarkən Mirzə Fətəliyə münasibət bir qədər soyudu. Mirzə Fətəli sevilməlidir, ən azı ona görə ki, 1813-cü ildə Azərbaycanın Rusiya tərəfindən işğalından sonra xalqımızın tarixi ilə bağlı yazılan və Tiflisə göndərilən bütün sənədlər onun tərəfindən rus dilinə tərcümə olunaraq arxivdə saxlanıldı. Mirzə Fətəli ömrünün son aylarına kimi bu sənədlərin tərcüməsi ilə məşğul olmuş və bizim üçün saysız-hesabsız və qiyməti heç nə ilə ölçülməyən irs qoymuşdur.

Mirzə Fətəli ilə davam olunan yola milli-demokratik istiqamətin ilk qaranquşlarından olan Həsən bəy Zərdabi qoşuldu. Həsən bəy bütün ömrünü millətin təhsilinə həsr etdi. Hətta öz evində məktəb açdı, şagirdlərin kitablarını da, müəllimlərin məvacibini də öz cibindən ödəməli oldu. Xalqına xidmət baxımından Həsən bəy zirvədir.

Həsən bəyin həyat yoldaşı Hənifə xanım bu barədə sonralar öz xatirələrində yazırdı: "Moskva Dövlət Universitetinin rektoru, görkəmli rus tarixçisi A.Solovyov Şərqlə, xüsusən də İslamla çox maraqlanırdı. Onun ailəsində Həsən bəyin Qafqaz, bu diyarın adət-ənənələri, əxlaqı barəsindəki söhbətlərinə böyük maraqla qulaq asırdılar. A.Solovyov tez-tez Həsən bəyin İslamla bağlı məsələlərə dair izahatlarını dinləyir, eşitdiklərinin çoxunu qeyd edirdi. Daim Solovyovların evində olan Həsən bəy onun qızını həqiqi məhəbbətlə sevirdi. Bu məsələdə qızın da münasibəti eyni dərəcədə həqiqi və ciddi idi. Lakin Həsən bəy yaxşı bilirdi ki, əgər o, ali təhsil almış ilk müsəlman xristian qızı ilə evlənsə, xalq həm özündən, həm də xanımından birdəfəlik üz döndərər. Ona görə də Həsən bəy ürəkdən sevdiyi qızla nikaha girməkdən imtina etdi və təhsilini başa vuran kimi doğma xalqına xidmət üçün Vətənə qayıtdı".

Sovet rejimi dindar Həsən bəyi gözdən salmaq, onun böyüklüyünü gizlətmək üçün onu bizə yalnız "Əkinçi"nin naşiri kimi təqdim etdi. Amma gün kimi aydındır ki, 56 sayı işıq üzü görən "Əkinçi" Həsənbəyin fəaliyyətinin yalnız iki ilini təşkil edir.

"Əkinçi" sözünün altında böyük rəmzi məna, geniş və əhatəli fəaliyyət proqramı gizlənirdi. Azərbaycan kəndlisini daha yaxşı, çağdaş üsullar əsasında daha səmərəli işləməyə öyrətmək yox, həm də onun ürəyinə, şüuruna maarif toxumu səpmək lazım idi.

Uzun illər boyu bir-birinə böyük hörmətlə yanaşan yaşlı Mirzə Fətəli ilə gənc Həsən bəy arasında təhsillə bağlı bir fikir ayrılığı var idi. Mirzə Fətəli rus-tatar məktəbi, Həsən bəy isə türk-tatar məktəbinin tərəfdarı idi. Son nəticədə isə hər iki maarifçi xalqın savadlanması üçün əlindən gələni etdi.

Avropada təhsil missiyasını milli burjuaziya öz üzərinə götürmüşdü. Orta əsrlərdə sexlər yaradan, sonradan sexləri manufakturalara çevirən bu bacarıqlı insanlar bir neçə əsr sonra zavod və fabrik sahibi oldular. Elm və təhsilin cəmiyyətin həyatında oynadığı rolu dərk edən varlı şəhər əhalisi – burjuaziya təhsilə böyük önəm verərək, bu sahədə ciddi addımlar atdi, hakimiyyətə gəlmək üçün burjua inqilablarını həyata keçirdi. Beləliklə, Avropada elm və təhsilin başında milli burjuaziya dayanmalı oldu. Bunu Azərbaycanın milli burjuaziyası haqqında demək çətindir. Çünki bu bərəkətli torpağın sahibi yerli xalq yox, rus çarizmi idi.

XX əsrin əvvəllərindən başlayaraq "hümmətçilik düşüncələri"ndən millətçiliyə qədəm qoyan milli ziyalılarımız ağır bir yükün altına girdilər. Bu işdə milli burjuaziya milli ziyalılara yaxından dəstək oldu. Milli burjuaziya var-dövləti ilə, milli ziyalılarımız isə milli düşüncələri ilə azərbaycançılıq məfkurəsinin yaradılmasına başladılar. XX əsrin əvvəllərində xalqı qəflət və cəhalətdən qurtarmağı əsas vəzifə kimi qarşılarına məqsəd qoyan milli demokratik düşüncəli ziyalılarımız milli burjuaziyanın yaxından iştirakı ilə milli ruhu təbliğ edən qəzet, jurnal, müxtəlif xeyriyyə və mədəni-maarif cəmiyyətlərinin yaradılmasına nail oldular. Bu tədbirlərin mərkəzində xalqı savadlandırmaq, maarifləndirmək, milli dildə məktəblər açmaq dururdu.

Gəncənin vətənpərvər ziyalılarından olan Ələkbər bəy Rəfibəyli yazırdı: "Nə qədər ki, milli məktəb yoxdur, milli tərbiyə də olmayacaqdır". Gəncədə milli məktəbin açılmasına təkid edən Ələkbər bəy Rəfibəyliyə çar üsul-idarəsinin rəsmiləri belə cavab verdilər: "Qoy, sizin yəhudi və ya erməni uşaqları..." — 

Bir əsrdən çox Cənubi Qafqazı işğal altında saxlayan çarizm süqut edənə qədər burada ali məktəb açmadı. Bu çarizmin müstəmləkəçilik, işğalçı-rus xalqlarına zülm etmək və onları mənəvi əsarətdə saxlamaq siyasətinin bilavasitə təzahürü idi.

Hələ XIX əsrin 70-ci illərindən başlayaraq Qafqazın siyasi mərkəzi Tiflisdən Sankt-Peterburqa universitet açılması ilə bağlı xahişnamələr göndərilirdi. Kiyev və Varşavada ilk politexnikumlar açıldıqdan sonra bu istiqamətdə məktubların sayı artdı. Əslində, çarizm bu məsələyə etiraz etmədiyi kimi, razılığını da dilə gətirmirdi. Beləliklə, bu məsələ illərlə uzandı. XX əsrin əvvəllərində Rusiyanın Dövlət Dumasında azərbaycanlı, gürcü və erməni deputatlarının birgə qərar verdiyi məsələlərdən biri də Qafqazda universitetin təşkili ilə bağlı idi. Çox təəssüflər olsun ki, Rusiya Dövlət Duması Qafqazdan olan deputatların bu tələbini qulaqardına vurdu. Ədalət naminə qeyd etmək lazımdır ki, Qafqazda universitetin təşkilinə icazə verilməsinə nail olmaq üçün milli demokratik ziyalılarımızla yanaşı, Azərbaycanın milli burjuaziyası da böyük fəallıq göstərirdi. Hətta, bu ali məktəb Tiflisdə açılsaydı belə, milli burjuaziyamız ona hərtərəfli maddi yardım göstərməyə hazır olduğunu bəyan etmişdi.

1914-cü ildə I Dünya müharibəsi başladı. Çar Rusiyası Fransa və İngiltərə ilə müttəfiq olaraq Almaniya bloku ilə vuruşurdu. Osmanlı Türkiyəsi də Almaniya tərəfdən bu müharibəyə qoşuldu. Uzun sürən müharibə Rusiyanı çökdürdü və 1917-ci ilin fevralında Rusiyada 300 ildən artıq hakimiyyətdə olan Romanovlar sülaləsi devrildi. Rusiya əsarətindən qurtulmaq üçün xalqlar yollar arayırdı. Bu mücadilədə ilk qurtulan, müstəqilliyə qovuşan polyaklar və finlər oldular. Azərbaycanın milli düşüncəli ziyalıları Əl bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və başqaları Azərbaycanın gələcək siyasi xəritəsini cızdılar. Bu yolda kifayət qədər çətinliklər vardı. Gah tatar, gah dağıstanlı, gah müsəlman, gah türk, gah da müxtəlif adlar altında milli-dini zülmə məruz qalan Azərbaycan xalqı istiqlala qovuşmaq üçün fürsəti əldən vermək istəmirdi.

Bədnam qonşumuz da dinc dayanmırdı, Azərbaycan torpaqları hesabına qondarma "böyük erməni dövlət"yaratmaq xülyasını reallaşdırmağa çalışırdı. Bu işdə ona həm Qərb dövlətləri, həm də Rusiya kömək edirdi. Azərbaycan xalqını öz tarixi torpaqlarından didərgin salmaq üçün S.Şaumyanın başçılığı ilə Bakı Soveti qurumu yaradıldı. Azərbaycan xalqı ilə heç bir əlaqəsi olmayan bu qurum daşnak qüvvələri ilə birləşərək 1918-ci ilin martında təkcə Bakı şəhərində 11 mindən artıq müsəlmanın həyatına son qoydu. Şamaxı qəzasında 16 min, Quba qəzasında 16 min, Qərbi Azərbaycanda on minlərlə, Zəngəzurda 10 min, Cənubi Azərbaycanda 80 min günahsız insan soyqırıma məruz qaldı. 100 minlərlə müsəlman qaçqın və köçkün vəziyyətinə salındı. Bu qırğınlar işıqlı şəhərə gedən yolun zülmət gecəsi idi. Azərbaycanın demokratik ziyalıları yüz il əsarətdə olduğu Rusiyadan əlini üzərək ümidini Osmanlıya bağladılar.

Beləliklə, 1918-ci ilin mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Milli Hökumət iyunun 17-də Gəncəyə, sentyabrın 15-də isə Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Qüvvələrinin köməyi ilə Bakı şəhərinə köçdü. Milli hökumət ilk gündən xalqın maariflənməsini ön plana çəkdi. Hökumətin xalq maarifinin inkişafına çox mühüm təkan verən ilk tədbirlərindən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi ilə bağlı verdiyi qərar oldu. Təhsil sahəsində həyata keçirilən mühüm tədbirlərdən biri də məktəblərin millliləşdirilməsi idi. Hökumətin qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Hökumətin xüsusi qərarı ilə Xalq Maarif Nazirliyində ali və orta ixtisas təhsili, xalq təhsili və peşə təhsili işləri üzrə şöbələr yaradıldı. Ölkənin hər yerində müxtəlif pillələrdən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısa müddətli müəllim kursları və kitabxanalar açılmağa başladı.

Hələ 1917-ci ildə Romanovlar sülaləsinin devrilməsindən sonra Müvəqqəti hökumət keçmiş imperiyanı, o cümlədən Cənubi Qafqazı əlində saxlamaq üçün Tiflis Şəhər Dumasına göndərdiyi şifrəli teleqramda Tiflisdə Rus Universitetinin təşkili üçün təcili surətdə layihə və smeta tərtib olunmasını təklif etmişdi. Bu məqsədlə Tiflis ali qadın kurslarının professorlarından ibarət komissiya yaradıldı. I dünya müharibəsi ilə bağlı Qafqaz ordusunun baş cərrahı təyin olunmuş V.Razumovskiyə ali qadın kurslarının tibb fakültəsi üçün layihə hazırlamaq tapşırıldı. İşin öhdəsindən uğurla gələn V.Razumovski universitet komissiyasının sədri təyin edildi. Beləliklə, V.Razumovskinin başçılıq etdiyi komissiya universitetin layihə və smetasını hazırlayıb, Zaqafqaziya Komissarlığının müzakirəsinə verilməsi üçün Xalq maarif naziri Fətəli xan Xoyski ilə görüşdü.

Universitetin layihə və smetası hazırlanan dövrdə Cənubi Qafqazın siyasi həyatında mühüm dəyişikliklər baş verdi. 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklər çevriliş yolu ilə hakimiyyətə gəldilər. Müvəqqəti hökumət devrildi. Müvəqqəti hökumətin devrilməsinə etiraz olaraq Zaqafqaziya Komissarlığı Rusiyadan ayrıldığını elan etdi. Belə bir vaxtda Maarif naziri F.X.Xoyski universitetin Bakıda açılmasını Komissiya sədrinə təklif etdi. Siyasi hadisələr bir-birini sürətlə əvəz etməyə başladı. Nəhayət, Zaqafqaziya Komissarlığı istefa verdi, onu Zaqafqaziya Seymi əvəz etdi.

1918-ci il mayın 26-da gürcü deputatları Zaqafqaziya Seymindən çıxaraq Gürcüstanın müstəqilliyini elan etdilər.

1918-ci ilin iyulunda Tiflisdə V.Razumovskinin rektor seçildiyi və tədrisin rus dilində aparılması nəzərdə tutulan Zaqafqaziya Universiteti açıldı. Əslində, bu ali məktəb üç xalqın maraqlarını təmin edə bilən təhsil qurumu kimi nəzərdə tutulmuşdu. Eyni zamanda, ali məktəbin maliyyə xərclərini də bu üç respublika ödəməli idi. Tarixi Azərbaycan torpaqlarında erməni dövlətini təşkil edən Ararat Respublikası Azərbaycana qarşı ərazi iddialarından əl çəkmir, eyni zamanda, Ermənistanla Gürcüstan arasında Borçalı torpaqları üstündə müharibə yaşanırdı. Ermənistan Zaqafqaziya Universitetinə maliyyə yardımı göstərməkdən imtina etdi. 1918-ci ilin fevralında yaradılan Tiflis Universiteti həmin ilin sentyabrında Tiflis Dövlət Universitetinə çevrildi. (Tiflis Universitetinin ilk rektoru, gürcü tarixçisi İvane Cavaxişvili olmuşdur. Bu Universitet hazırda onun adını daşıyır). Beləliklə, gürcü dilində tədrisə başlayan Tiflis Universiteti ilə rəqabət aparmaqda çətinlik çəkən rusdilli Zaqafqaziya Universiteti öz fəaliyyətini dayandırmalı, ya da başqa şəhərə köçürülməli idi.

**(ardı var)**

# Vətənə məhəbbət və insanlığa sevgi ilə yaşanan ömür

**Ölkəmizin elmi-mədəni və ictimai mühitində zəngin erudisiyası, peşəkarlığı, zəhmətkeşliyi və təvazökarlığı ilə seçilən bir ad var: Respublikanın əməkdar müəllimi, professor, fiologiya elmləri doktoru Mahirə xanım Hüseynova.**





Müəllifi olduğu otuzdan çox elmi kitabı, dörd yüzdən çox elmi məqaləsi, on altı şeir kitabı, 10-dan çox dərslik və metodik vəsait, ali məktəblər üçün tərtib etdiyi seçmə fənn proqramları Mahirə xanımı müasir Azərbaycan dilçiliyinin görkəmli mütəxəssislərindən biri kimi tanıtdırıb. Görkəmli alimin çoxsaylı elmi tədqiqatlarda öz əksini tapmış elmi-nəzəri görüşləri Azərbaycan dilçilik elmində və türkologiya sahəsində tədqiqatlar aparan yüzlərlə araşdırmaçı üçün etibarlı istinad mənbəyidir.

Azərbaycan filologiya elminin inkişafına böyük töhfələr vermiş məhşur türkoloq alim, mərhum Həsən Mirzəyevlə ömrünün sonuna yaxın yaranmış şəxsi əlaqəm onun haqqında bütün yazılanları oxumağıma səbəb olmuşdu. Sonuncu telefon danışığımızdan sonra o müəllifi olduğu kitabların hər birindən bir nüsxə mənə göndərmiş və apardığım araşdırmalar üçün faydalı olacağını demişdi. Mahirə xanımı da ilk dəfə qiyabi olaraq Həsən müəllimlə bağlı yazılarından tanıdım. Görkəmli alim və ictimai xadim Həsən Mirzəyevin milli elmimizin və bütövlükdə ziyalı cəmiyyətimizin inkişafı yolunda göstərdiyi xidmətlər Mahirə xanım tərəfindən yazılmış "Alim təfəkkürünün itiliyi", "Dərdi dərin Həsən Mirzə", "Həsən Mirzəyev və Azərbaycan dilində feil", "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" adlı kitablarda geniş təhlil olunub. Bu yazıların hər sətrində təvazökar və fədakar bir müəllimə övlad məhəbbəti, onun elmi irsinə əsil ziyalı rəğbəti bütün səmimiyyəti ilə özünü göstərir. Elə Mahirə xanımın yazılarından anladım ki, hələ gənc yaşlarından etibarən onun tədqiqatçılıq bacarıqlarının cilalanmasında, peşəkar alim kimi yetişməsində Həsən müəllim müstəsna rol oynayıb. Tədqiqatlarının önəmli bir hissəsini də məhz Həsən müəllimin elmi irsinin araşdırılmasına həsr etməklə Mahirə xanım ustad qarşısında mənəvi borca sədaqətin ən nəcib örnəyini yaradıb.

Həsən Mirzəyev məktəbi Mahirə xanımın özünün geniş diapazonlu elmi və bədii yaradıcılığında da dərin iz buraxıb. Həsən müəllimə xas olan sadəlik, elmi fədakarlıq və təvazökarlıq özünü Mahirə xanımın ictimai mövqeyində, elmi tədqiqatlarında və bədii yaradıcılığında çox aydın şəkildə göstərir.

Hər bir alimin fəaliyyəti onun intellektual qabiliyyətləri və zəhmətkeşliyi ilə yanaşı, həm də öz peşəsinə və gördüyü işə məhəbbəti ilə tamamlandıqda daha məhsuldar olur və beləcə, gələcək nəsillər üçün uzun zaman istinad olunacaq dəyərli elmi əsərlər doğulur. Bu mənada, Mahirə xanımın yaradıcılığında intellektual düşüncə, ictimai fikir, istedad, zəhmətkeşlik və bütün bunlarla yanaşı öz peşəsinə məhəbbət və sədaqət bir-birini tamamlayır və bu keyfiyyətlər onun fədakar müəllim və yorulmaz tədqiqatçı alim obrazını yaradır.

Professor Mahirə Nağıqızının ədəbi-elmi yaradıcılığının böyük bir hissəsini Qərbi Azərbaycanla bağlı elmi-ictimai əhəmiyyət kəsb edən əsərlər təşkil edir. Təsadüfi deyil ki, Mahirə xanım həm də Qərbi Azərbaycan İcmasının fəal üzvü kimi səmərəli fəaliyyət göstərir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində "Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi"nin açılması da məhz Mahirə xanımın fədakar əməyinin nəticəsidir. Professor Mahirə Hüseynovanın yenicə işıq üzü görmüş "XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları" və 2023-cü ildə nəşr olunmuş "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili" monoqrafiyaları tariximiz üçün müstəsna dəyər kəsb edən tədqiqat əsərləridir. Bu əsərlərdə Qərbi Azərbaycan ərazisində mövcud olmuş yaşayış məntəqələrinin adlarının elmi-nəzəri əsasları, ayrı-ayrı coğrafi ərazilərdə yayılma arealları, leksik-semantik xüsusiyyətləri tarixi-etimoloji və linqvistik-etimoloji baxımdan təhlilə cəlb olunub. Bu təhlillərdə müqayisəli təhlil metodologiyasına üstünlük verən Mahirə xanımın yeri gəldikcə, hətta ən qədim elmi mənbəyimiz olan Mahmud Kaşğarinin "Divanü-lüğat-it türk"ünə müraciət edərək elmi dəlillərlə doğru qənaətlərə nail olması mükəmməl tədqiqatçılıq səriştəsi ilə yanaşı həm də onun milli düşüncəsindən və türk təəssübkeşliyindən xəbər verir.

Alimin "Ümumtürk dillərinin dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" monoqrafiyası Türk dövlətləri arasında vahid informasiya məkanının aktuallığını üzə çıxaran fundamental tədqiqat əsəri olmaqla yanaşı, həm də türk dillərinin dialekt və şivələrinin öyrənilməsinə böyük töhfədir. Bu əsər türk dillərinin tarixi inkişafını izləmək üçün son dərəcə faydalı və zəngin bir elmi mənbədir. Bu monoqrafiyada əsasən, türk, qaqauz, qazax, qırğız, qaraqalpaq, Altay, tatar, uyğur dillərinin ədəbi dillərə inteqrasiyasında əsas rol oynayan dialektlər müəyyənlənləşdirilir və bu yolla qədim türk protodilləri rekonstruksiya edilir. Dil tarixi sahəsində Mahmud Kaşğaridən başlamış çağdaş Azərbaycan dilçiliyinə qədər uzun bir dövrü əhatə edən araşdırmalarında qarşıya qoyduğu problemə təkcə elmi istiqamətdə deyil, həm də metodiki istiqamətdən yanaşması Mahirə xanımın peşəkar tədqiqatçılıq səriştəsi ilə yanaşı, həm də peşəkar müəllimliyindən xəbər verir.

Mahirə xanımı digər tədqiqatçılardan fərqləndirən unikal bir cəhət ondan ibarətdir ki, onun yaradıcılıq enerjisi və düşüncə diapazonu sadəcə elmi araşdırmalar müstəvisi ilə məhdudlaşmır. Milli təəssübkeşlik, vətən sevgisi, ata yurdu nisgili və zəngin bədii təxəyyülü onu bədii yaradıcılıq yoluna çıxarır. Onun bədii yaradıcılığı öz sadəliyi və səmimiyyəti ilə bərabər, eyni zamanda vətənə məhəbbət tərənnümünün əzəməti ilə seçilir. Milli-mənəvi dəyərlərə bağlılıq, vətənpərvərlik, insansevərlik, ana Vətənin təbiətinə vurğunluq, Vətən oğullarının qəhrəmanlığına heyranlıq onun lirik yaradıcılığının ana xəttini təşkil edir. Mahirə xanımın poeziyasının və prozasının, eləcə də publisistikasının özəyində Ana - Vətən - torpaq - yurd sevgisi dayanır.

"Mənim anam" (2006), "Su at dalımca, Ana" (2006), "Ana sevgisindən doğan nəğmələr" (2008), "Yaşadacaq anam məni" (2009), "Ömrün çıraqdır sənin" (2010), "Analı dünyam" (2015), "Haqqa çağıran səs" (2015) kitablarında toplanan ədəbi nümunələri oxuduqca Ana - Vətən, Vətən - Ana məfhumlarının təhtəlşüurda bütövləşdiyini görürük:

"Orxonlardan üzü bəri yazın qalıb / Altaylardan Balkanlara izin qalıb" – deyən Mahirə xanımın "Dilimiz varlığımızdır"(2021), "Ruhuna beşiksə, tanı, Vətəndir" (2017), "Salam olsun" (2021) kitablarında toplanan şeirləri Vətəninə əsgər sədaqəti ilə bağlı olan ziyalı bir xanımın Ana dilimizə bəslədiyi sevginin bədii ifadəsidir.

Millətin taleyüklü məsələləri ilə bağlı Mahirə xanımın prinsipial vətəndaş mövqeyi bütün yazılarında, çıxışlarında və müsahibələrində özünü açıq-aydın göstərir. Müsahibələrinin birində Xocalı soyqırımı ilə bağlı düşüncələrini bölüşən Mahirə xanım deyir: "- Hə, bu, xəyalən min dəfələrlə olduğum, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının – özü elə böyük olmayan bir qəsəbənin dünya boyda dəhşət mənzərəsidir… O mənzərədə insanlığını itirən kəsin ən vəhşi heyvandan belə amansız olduğunu görmək olar… O mənzərənin vəhşəti insanın qəlbində Allahın özünə belə etiraz nidaları yaradır. … Söhbət ondan gedir ki, həmin gecə ancaq azərbaycanlı olduqlarına görə amansızlıqla öldürülən, içərisində körpələrin və qadınların da olduğu 613 nəfərin qanı laxtalanmayıb… Şəxsən mən hesab edirəm ki, o qan təkcə onu tökənlərin deyil, bu mənzərəyə laqeyd qalanların da vicdanındadır və Xocalı ədaləti bərqərar olmayınca, o qan laxtalanmayacaq". Xocalı faciəsi kimi ağır bir dərdin doğurduğu acı hisslər Mahirə xanımın bədii təxəyyülündə qəmgin və hüznlü bir melodiya kimi belə səslənir:

**Burdan yavaş gedin, astadan keçin,
Qəbirlər titrəyər, daş dinə bilər,
Bir güllə gücünə sükut olanlar,
Bir addım səsinə diksinə bilər.**

Milli qürur hissimizi özümüzə qaytaran, tarixi ədaləti bərqərar edən, gücümüzü, bütövlüyümüzü və birliyimizi bütün dünyaya göstərən, ana torpağı azad etmək üçün tərəddüd etmədən öz canlarından keçən gənclərimizə həsr etdiyi şeirdə Mahirə xanım onların xalqımıza yaşatdığı yenilməzlik ruhunu və qürur hissini belə tərənnüm edir:

**Yerə qan tökdülər, ruh göyərtdilər
Tarixi yazdılar Vətən daşında.
Minillik xalqlara dərs öyrətdilər
Bu ərən oğullar cavan yaşında.**

"Şəhid nəğməsi" adlı şeirində isə müəllif şəhidlərimizin əmanət olunduğu Ana torpağı millətin ən müqəddəs məbədgahı, qutsal ünvanı kimi uca dəyərləndirir:

**Şəhidlər! Şəhidlər! Öz canınızla,
Bizə yol açdınız, dövran verdiniz.
Millətə diz çöküb baş əymək üçün,
Şərəfli, müqəddəs ünvan verdiniz.**

Elmi zəkası ilə yanaşı, özünün daxili aləmini – xalqla, vətənlə, torpaqla bağlı yaşanan ürək çırpıntılarını və səssiz düşüncələrini nəzm dilində yüksək məharətlə ifadə edən Mahirə Nağı qızı bütün cəhətləri ilə çağdaş dövrümüzdə yetişməkdə olan gənc nəsil üçün canlı örnəkdir. Onun bütün yaradıcılığı ədalətə inam və insanlığa sevgi ilə yoğrulub. Övladlarımız üçün belə bir örnəyin nümunəsini yaratdığına görə görkəmli alim, sevimli şair və fədakar müəllim şəxsiyyətlərini özündə birləşdirən hörmətli Mahirə xanımı doğum günü münasibətilə təbrik edirəm. Ona möhkəm cansağlığı, elmi, bədii yaradıcılıq təşəbbüslərində və pedaqoji fəaliyyətində davamlı uğurlar arzulayıram. Mahirə xanıma uzun illər arzuladığı Qarabağ zəfərinin sevincini yaşadığı kimi, on illərlə həsrətində olduğu Qərbi Azərbaycana – Dədə yurdu Dərələyəz mahalına dönməyin də sevincini yaşamağı arzu edirəm.

**Cavanşir FEYZİYEV,
Milli Məclisin deputatı,
fəlsəfə doktoru**

# Borçalı aşığı təltif olunub

**Gürcüstanda yaşayan sazbənd və aşıq Bafəli Adıgözəlov Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliğinə verdiyi töhfəyə görə "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub.**



Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov komitədə soydaşımızla görüşərək medalı təqdim edib.

Fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan dövlətinə dərin minnətdarlığını ifadə edən Bafəli Adıgözəlov bundan sonra da xaricdə, o cümlədən Gürcüstanda Azərbaycan mədəniyyətinin, aşıq sənətinin təbliği üçün əlindən gələni əsirgəməyəcəyini söyləyib.

***XQ***

Yeni TV

# Mətbuat Şurasının ANEWZ kollektivinə təbriki

**ANEWZ beynəlxalq televiziya kanalının fəaliyyətə başlaması ölkəmizin teleməkanı üçün mühüm hadisədir. Həm bu hadisəni, həm də dəyərli həmkarımız Rüfət Həmzəyevin telekanala rəhbərlik etməsini yüksək qiymətləndirirəm. Mən onu istər media forumlarında aparıcı, istərsə də müxtəlif ingilisdilli tədbirlərdə iştirakçı kimi dəfələrlə yaxından izləmişəm, peşəkarlığına bələdəm. AzTV-dəki səmərəli fəaliyyətindən də xəbərdaram. Bildiyimə görə, yeni telekanalda yüksək səviyyəli komanda formalaşdırmağa müvəffəq olub. Bəri başdan bu münasibətlə həmkarımızı təbrik edirəm.**

Müxtəlif vaxtlarda ayrı-ayrı xarici ölkələrdə, xüsusən də Orta Asiya respublikalarında ingilis dilində telekanalların fəaliyyət göstərdiyini görmüşdüm və bu tipli media subyektlərinin bizdə də olmasını çox arzulamışdım. Sevindirici haldır ki, artıq bizdə də bilavasitə ingilis dilində yayımlanacaq TV kanalı olacaq.

Hamımıza məlumdur ki, hazırda beynəlxalq miqyasda Azərbaycana qarşı aktiv dezinformasiya kampaniyası aparılmaqdadır. İnformasiya müharibəsi günümüzün reallığıdır. Cənab Prezident İlham Əliyev də çıxışlarında bu məqama dəfələrlə toxunub, müxtəlif detalları müfəssəl şəkildə açıqlayıb, saxta xəbərlərlə, insinuasiyalarla mübarizənin zəruriliyini əsaslandırıb. Dövlətimizin başçısı çıxışlarında, həmçinin, jurnalistlərin xarici dil biliklərinin artırılmasına da böyük önəm verdiyini bildirib. Heç şübhəsiz, bu, informasiya təhlükəsizliyimizin təminatı baxımından vacib amildir. Hesab edirəm ki, yeni ingilisdilli telekanal bu baxımdan müstəsna rol oynayacaq, qarşısına qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələcək. Əminəm ki, belə bir media orqanının fəaliyyətə başlaması, ümumən, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, obyektiv mövqeyimizin müdafiəsi xüsusunda da öz sözünü deyəcək.

Yeni yaranan kanalın rəhbərliyinə və kollektivinə çətin, məsuliyyətli yolda uğurlar arzulayıram. İnanıram ki, onlar bu etimadı yüksək səviyyədə doğruldacaq, ANEWZ-u beynəlxalq miqyasda tanınan, etibarlı media subyekti kimi təsdiqləməyi bacaracaqlar.

***Rəşad MƏCİD,
Mətbuat Şurasının sədri***

# QHT-lərin yaşıl aksiyası



**Dünən paytaxtın Dənizkənarı Bulvarında "COP29-a doğru: QHT-lərin Yaşıl Hərəkatı" adlı toplantı və yürüş keçirildi. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Milli QHT Forumunun təşkilatçılığı, Velosiped Federasiyasının dəstəyi ilə keçirilən marafonda 150-yə yaxın QHT-dən vətəndaş cəmiyyəti fəalları iştirak etdi.**

Aksiyanın əvvəlində COP29 Təşkilat Komitəsinin üzvü, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirdi ki, bir neçə gündən sonra qlobal konfransa evsahibliyi edəcək Bakı dünyadan onminlərlə qonağı qəbul edəcək, Azərbaycan QHT-ləri də "Yaşıl Dünya Naminə Həmrəylik İli"ndə iqlim dəyişmələrinə qarşı mübarizədə yaşıl düşüncə əsaslı platforma ilə çıxış edir, dünyaya həmrəylik mesajı verir.



80 ölkədən 370-dən çox xarici QHT-ni sıralarında birləşdirən COP29 QHT Koalisiyasının təşəbbüskarı olan Azərbaycan Milli QHT Forumunun sədri Ramil İskəndərli qeyd etdi ki, iştirakçılar COP29 həyəcanını bir yerdə bölüşür. O, təşkil olunan velosiped yürüşünün son vaxtlar Bakıda salınan və genişləndirilən velosiped zolaqlarından istifadəyə çağırış mesajı olmaqla, sağlam həyat tərzinin təbliğinə yönəldiyini də diqqətə çatdırdı.

Azərbaycan Velosiped Federasiyasının təmsilçisi Gülnar Məlikova, "Qırmızı ürəklər" Fondunun vitse-prezidenti Yusif Poladov və digər QHT təmsilçiləri bu yürüşün, eyni zamanda, COP29-a ictimai dəstək mahiyyəti daşıdığını vurğuladılar.

Velosiped yürüşü başlamazdan əvvəl "Kapital Bank" və "Qırmızı ürəklər" Fondu aksiyada iştirak edən 5 nəfər şəhid övladına velosiped hədiyyə etdi.

Yürüş iştirakçıları Dənizkənarı Milli Parkda yerləşən COP29 İnformasiya Mərkəzi ilə də tanış oldular. Burada COP29 barədə ətraflı təqdimatlar edildi. Sonda fərqlənən iştirakçılar sertifikatlarla təltif edildilər.

***Rizvan FİKRƏTOĞLU
XQ***

# Göytürk İmperiyası

## Tarixdə silinməz izimiz

**Türklərin, o cümlədən Azərbaycan türklərinin formalaşmasında çox mühüm rol oynamış Göytürk İmperiyası (Göytürk Xaqanlığı da deyilir) 552-ci ildən 744-cü (bəzi mənbələrdə 745-ci il göstərilir) ilədək hakimiyyətdə olub. İmperiyanın əsasını Aşina qəbiləsindən olan Ulu Yabqu təxminən 545-ci ildə qoyub. Bu rəqəm də tarixi mənbələrdə müxtəlif cür göstərilir. Bu da məlumdur ki, imperiyanın dövlət kimi formalaşması 552-ci ilə aiddir. Həmin il Ulu Yabqunun oğlanları Bumın xaqan və İstəmi xaqan qardaşları birləşərək dövləti tam formalaşdırıblar. İmperiyanın paytaxtı Monqolustanın Orxon çayı hövzəsindəki Ötükən şəhəri, rəsmi dili türk dili olub. İmperiyanın bayrağında qurd başının şəkli əks edilib.**

Qədim türklər öz inanclarında qurdu güc, qüvvət, qələbə mənasında özlərinə totem kimi qəbul ediblər. Biz Göytürk İmperiyasının, Böyük Hun İmperiyasının, həmçinin Ağ Hun Xaqanlığının, Uyğur Xaqanlığının və digər türk xalqlarının dini inanclarında Göy Tanrı inancının izini də görürük.

Göytürk İmperiyasında dövlətə xaqan başçılıq edib, o həm də ordu komandanı olub. Xaqandan sonra ikinci şəxs Yabqu, ən yüksək əyan titulu Şad sayılıb.

Rəsmi dili qədim türk dili, dini inancları tanrıçılıq, ərazisi 13 milyon kvadratkilometr, idarəetmə forması qurultay olub.

Şimali Krım, Qafqaz və Mərkəzi Asiya da daxil olmaqla Çin ərazilərindən Bizans imperiyasınadək torpaqlar Göytürk İmperiyasına daxil olub. Bu dövlətin adı Bilgə xaqan və Gül Tegin yazılarında Türük, Kök Türük, Ökük Türük, Tonyukuk yazılarında isə Türk Dövləti, Çin mənbələrində Tukyu adlanıb.




Göytürk İmperiyası tarixdə adında "türk" sözü yazılan ilk dövlətdir. X əsrə aid uyğur yazılarında "türk" sözü "güc", "qüvvə" mənasında işlənilib. A.Vemberiyə görə, "türk" törəmək sözü ilə eynimənalı olub törəyən, çoxalan, Ziya Göyalpa görə isə "türk" sözü törəli sözü ilə eynimənalı olub qanun sahibi mənasını verir. Mahmud Kaşğari türk adının türklərə Tanrı tərəfindən verildiyini qeyd edir, bu sözün "gənclik", "qüvvə", "qüdrət" və "yetkinlik" mənalarında işləndiyini yazır.

Onu da demək yerinə düşər ki, qatıqdan hazırlanan ayran ilk dəfə göytürklərin zamanında sərinləşdirici içki kimi istifadə olunub, sonra isə bütün Türk dünyasına və dünyaya yayılıb.

VIII əsrin əvvəllərindən başlayaraq Göytürk İmperiyasında daxili narazılıqlar və hakimiyyət uğrunda çəkişmələr başlayır və beləliklə xaqanlıq İstəmi xaqanın hakimiyyəti ilə paytaxtı Yeddisu olmaqla Qərbi Göytürk Xaqanlığına və Bumın xaqanın idarəçiliyi ilə Monqolustan da daxil olmaqla Şərqi Göytürk Xaqanlığına bölünür.



*Göytürk imperatorluğunun bayrağı*

Qərbi Türk Xaqanlığı getdikcə güclənir, Sasanilər və Bizans imperiyaları bu dövlətlə yaxın münasibətlər qururlar. Qərbi Göytürk Xaqanlığında (QGX) hakimiyyətə İstəminin oğlu Datou gəlir və qısa müddətdə böyük uğurlar əldə edir, Qara dənizin şimal sahilindəki torpaqları ələ keçirir. Datou bundan sonra Şərqi Türküstana yürüşə çıxır və yenə də uğur qazanır. 634-cü ildə Qərbi Göytürk Xaqanlığında idarəçilikdə islahatlar keçirilir. Xaqanlıq hərbi yürüşlərdən çoxlu qənimət, dövlətin tabeliyində olan tayfalardan gələn xərac, xaqanlığın ərazisindəki karvan yollarından götürülən gömrük gəliri hesabına güclü dövlətə çevirir. Təxminən beş ildən sonra QGX zəifləməyə başlayır. Bumın xaqan vəfat etdikdən sonra dövlətin şərq qolunda hakimiyyətə onun oğlu Qara İssıq xaqan çıxır, özünü səriştəsiz hökmdar kimi göstərir, ona görə də qısa zaman hakimiyyətdə olur.

Bir il sonra Şərq qolunda Muğan xaqan taxta çıxır. Muğan xaqan moğol soylu kitanları məğlub edərək Şərqi Göytürk Dövlətinin sərhədlərini Böyük Okeana qədər genişləndirir. Muğan xaqandan sonra taxta Taspar xaqan keçir.

Xaqanlığın qərb qolunda İstəmi xaqan sərhədlərini Krıma qədər genişləndirir, çox keçmir ki o, dünyasını dəyişir, yerinə oğlu Tardu xaqan keçir. Tardu xaqan 603-cü ilə qədər hakimiyyətdə qalır.

Xaqanlığın hər iki qolu get-gedə zəifləməyə başlayır, torpaqların bölüşdürülməsi üstündə qarşıdurma güclənir və nəticədə xaqanlığın qərb və şərq qolları bir-birinə qarşı düşmənə çevrilirlər. Qərbi Göytürk Xaqanlığı və Şərqi Göytürk Xaqanlığında hakimiyyət tez-tez əldən-ələ keçir.

Göytürklərin zəifləməsindən istifadə edən Çin İmperatoru Tai-tsung özünü Türklərin Göy Xaqanı elan edir, göytürklər əsarət altında yaşamağa məcbur olurlar. 50 il əsarət altında yaşadıqları müddətdə göytürklər zaman-zaman Çinə qarşı üsyan qaldırsalar da qələbə qazana bilmirlər. Göytürk şahzadəsi Kür Şadın 639-cu ildə baş verən qiyamı tarixə düşsə də nəticəsiz başa çatır.

Çox keçmir ki, Qərbi Göytürk Xaqanlığının Türküstandakı torpaqlarını ərəblər işğal edirlər. Qərbi Göytürk Xaqanlığının qalan yerini isə Xəzər Xaqanlığı tutur. Şərqi Göytürk Xaqanlığını isə 744-ci ildə uyğurlar dağıdırlar. Bununla da Göytürk Xaqanlığı süqut edir.

## İkinci Göytürk Xaqanlığı

Şərqi Göytürk Xaqanlığı və Qərbi Göytürk Xaqanlığı süqut etdikdən sonra göytürklərin Çin əsarətinə düşməsi 680-ci ilə qədər uzanır. Həmin il Aşina soyundan olan Qutluq İlteriş xaqan Çin əsarətindən qurtulur və İkinci Göytürk Xaqanlığının və ya Qutluq Xaqanlığının əsasını qoyur. Ötükən şəhəri xaqanlığın mərkəzi seçilir.

Qutluq İlteriş xaqan hakimiyyətə gəldikdən sonra dövləti toplayan, nizamlayan mənasını verən İlteriş adını götürür. Onun hakimiyyəti illərində uzun müddət əsarət altında qalan türk toplulüqları yenidən bir bayraq altında birləşirlər. İlteriş xaqanın orduları Çinə ağır zərbələr vurur. Yürüşlərdə Qutluq İlteriş xaqan Çinin 23 şəhərini ələ keçirir, Hİnd okeanına qədər olan əraziləri tutur. İlteriş xaqanın ölümündən sonra onun yerinə qardaşı Qapağan xaqan keçir.

Qapağan xaqanın hakimiyyəti 691–716-cı illəri əhatə edir. Qapağan xaqan da qardaşı İlteriş xaqan kimi cəngavər bir sərkərdə idi. Çin üzərinə dəfələrlə hücuma keçən Qapağan xaqan dövlətin gücünü artıraraq türkləri yenidən bir bayraq altında toplaya bilir. O öz hakimiyyəti illərində qırğızlar, türkeşlər, basmillər, qarluqlar və oğuzları özünə tabe etdirə bildi. Qapağan xaqanın hakimiyyəti illərində hərbi qələbələrlə yanaşı, aqrar islahatlar sahəsində də uğurlar əldə olunur. Qapağan xaqanın 25 il hakimiyyətdə olduğu illərdə türk toplulıqları həm iqtisadi, həm də mədəni cəhətdən inkişaf edirlər.

716-cı ildə Qapağan xaqanın ölümündən sonra yerinə İnel xaqan keçir. Bununla razılaşmayan Gül Tegin onu ələ keçirir və öldürür.

Bilgə xaqanın hakimiyyəti 716 – 734-cü illəri əhatə edir. Bilgə xaqanın əsl adı Bögü olub. Taxta çıxdıqdan sonra Bilgə xaqan adını qəbul edib, bu yandan da Çinin təsiri ilə üsyanlar başlanıb, qarluqlar və uyğurlar onun hakimiyyətinə tabe olmaqdan imtina ediblər, lakin onlar yenidən tabe olmağa məcbur olublar. Çini cəzalandırmaq üçün Tonyukukun rəhbərliyi ilə Göytürk ordusu Çinə hücuma keçir, Yüan Çenin rəhbərliyindəki 300000 nəfər Çin ordusu məğlub olur, bu, Çinə ağır zərbə vurur. Çin sülh müqaviləsi imzalamağa məcbur olur. 731-ci ildə Bilgə xaqanın qardaşı Gül Tegin ölür. Onun ölümündən sonra Çinlə münasibətlər yenidən gərginləşir. 733-cü ildə baş verən döyüşdə Çin orduları məğlub edilir. 734-cü ildə Bilgə xaqan Buyruq Çor tərəfindən zəhərlənir. Bilgə xaqanın ölümündən əvvəl ondan qisas alınır.

Bilgə xaqanın ölümündən sonra yenidən üsyanlar başlanır. Bilgə xaqanın ölümündən Göytürk xaqanlığının dağılmasına qədər olan 11 il ərzində Yollıq xaqan, Bilgə Qutluq xan, Ozmış Teqin xan və Bilgə Qutluq Tenqri xaqan hakimiyyətdə olurlar. Onların hakimiyyəti illərində xaqanlıqda Çin təsiri və vətəndaş müharibəsi yenidən baş qaldırır.

Basmıllar, qarluqlar və uyğurlar yenidən Göytürklərə tabe olmaqdan imtina edirlər. Sonuncu Göytürk xaqanı olan Ozmış Teqin xaqan basmıllarla mübarizədə məğlub olur və həbs olunaraq öldürülür, başı Çinə göndərilir. Basmılların rəhbəri İl Etmiş xaqan adı ilə hökmdar elan olunur. Beləliklə 742-ci ildə Basmıl Xaqanlığı Göytürk xaqanlığına son qoyur, bununla belə Basmıl dövlətinin də ömrü uzun olmur və başqa bir türk dövləti olan Uyğur xaqanlığı tərəfindən işğal edilir.

Göytürklərin dillərinə uyğun yazı sistemi olub, 38 hərfdən ibarət olan Göytürk əlifbasında sətirlər sağdan sola oxunub. Bu əlifba ilə yazılan Orxon – Yenisey abidələri türk dilinin VII əsrdə inkişaf etmiş mədəni dil olduğunu göstərir. Bu abidələr qədim türk dilini öyrənmək baxımından önəmlidir. Orxon abidələrinə Ongin, Gül Tegin, Bilgə xaqan, Tonyukuk, Kuli-Çor, Moyun-Çor, İşe-Ashet, Hoytu-Temir və Suci abidələri daxildir. Yenisey abidələri isə Orxon abidələrinə nisbətən daha sadə dillə yazılıb. Tədqiqatçıların fikrincə, Orxon abidələrindən daha qədim hesab olunur.

Beləliklə, Göytürk Xaqanlığı adında türk sözü olan ilk dövlət olduğundan türk tarixində mühüm yerə sahibdir. Göytürk Xaqanlığından qalan yazılı abidələr türklərin yazı mədəniyyətinə sahib olmasını göstərmək baxımından dəyərli mənbə hesab olunur.

Göytürklər dövründən bugünə "Yaradılış" və "Ergenekon" dastanları gəlib çıxıb. Həmçinin Göytürk tarixinə aid olan Aşina Cieşeşuay üsyanı və İkinci Göytürk Xaqanlığının qurulması müasir dövrümüzün bədii ədəbiyyatına da təsir göstərib. Belə ki, böyük türk şairi və türkoloqu Hüseyn Nihal Atsızın "Bozqurdların ölümü" və "Bozqurdlar dirilir" əsərləri bu hadisələrin əsasında yazılıb.

Göytürklərin bizim ulu babalarımız olduğunu bilmək üçün Göytürkcə və Azərbaycan türkcəsində rəqəmlərin səslənməsinə diqqət edək: Bir-bir, iki-iki, üç-üç, dörd-tort, beş-bis, altı-altı, yeddi-yidi, səkkiz-səkiz, doqquz-tokuz, on-on...

Onu da deyək ki, Azərbaycanın 5 manatlıq əskinasının arxa tərəfində Orxon–Yenisey əlifbası və Gül Tegin kitabəsindən bir parça verilib. Kitabədə yazılır: "Türk millətinin adı-sanı yox olmasın deyə, atam Xaqanı və anam Xatunu ucaltmış olan Tanrı, dövlət verən Tanrı, Türk millətinin adı-sanı yox olmasın deyə, məni o taxta oturtdu. Tanrı lütf etdiyi üçün, mən də qutlu olduğum üçün Xaqan oldum".

552-ci ildən 744-cü ilədək fəaliyyət göstərən Göytürk Xaqanlığı və ona tabe olan dövlət qurumları və yabquluğunun 66 xaqanı olub.

Göytürk İmperiyasına Qərbi Göytürk Xaqanlığı, Şərqi Göytürk Xaqanlığı, Qərb yabquluğu, Buxara yabquluğu, Nuşibi Xaqanlığı, Tulu Xaqanlığı, Onox Xaqanlığı və İkinci Göytürk Xaqanlığı daxil olub. İmperiyanın hakimiyyətdə olduğu 192 il ərzində 66 xaqanı və ona bərabər tutulan yabqusu olub.



Xaqanların adlarını və hakimiyyətdə olduqları illəri nəzərinizə çatdırırıq.

Göytürk Xaqanlığının xaqanları
Ulu Yabqu-təx. 545-ci il
Bumın xaqan 552....
İssıq xaqan 552-553...
Muğan xaqan 553-572...
Taspar xaqan 573-581...
Amrak xaqan 581...

## Şərqi Göytürk Xaqanlığı

İl Kül Şad Bağa Işbara Xaqan 581–587..
Bağa xaqan 587–588...
Tulan xaqan 588–599...
Tardu xaqan 575–599...
Bilgə xaqan 599–603...
Yami xaqan 603–609...
Şibi xaqan 609–619...
Çula xaqan 619–621...
İllig xaqan 621–630...

13 avqust 639-cu ildə Çin Tan sülaləsi tərəfindən işğal olunduğu üçün Şərqi Göytürk xaqanlığı yenidən yaradılır.

Çebi tigin 583–624...
Heşun knyazı 624–630...
Xuayxuay knyazı 630–639...
Çələbi xaqan .....
İçün Çebi xaqan 645–650...
İni Çör Börü ... 680...
Aşina Funian 680–681...

## Qərb yabquluğu

İstəmi xaqan 554–576...
Tardu xaqan 576–599-cu illərdə yabqu, 599–603-cu illərdə xaqan olub.
Buxara yabquluğu

Apa xaqan 581–587...
Yanqsu Tigin 587–589....
Nili xaqan ....
El Təkin Buyruq xaqan 589–603…
Basıl Tegin 604…

## Qərbi Göytürk Xaqanlığı

Nikyu Çulo xaqan 604–612...
Arslan xaqan 604–612...
Taman xaqan 604–612...
Şekuy xaqan 611–618...
Nuşibilər sülaləsi
Tonq Yabqu xaqan 618–628...
Nuşibilər sülaləsi
Bağatur xaqan 628–630...
Tulular sülaləsi
Si Yabqu xaqan 631–633...
Nuşibilər sülaləsi
Tulu xaqan 633–634…
Işbara Teriş xaqan 634–638…

Işbara Teriş xaqanın hakimiyyətinin sonunda İli çayı sülhü imzalanır, xaqanlıq iki yerə bölünür

## Nuşibi xaqanları

İl Külüğ şah 639–640...
İrbis İşbara Yabqu xaqan 640–641...
İrbis Şekuy xaqan 642–650...
Işbara xaqan 650–657…
Civanqcüe xaqan 657–667...
Tan sülaləsi
Çzeçjunşiçju xaqan 679–704...
Tan sülaləsi
Tulu xaqanları
İrbis Tulu xaqan 638–642...
Işbara xaqan 642–657...
Bağatur yabqu 657–662...
Cuçi xaqan 671–676-cı illərdə
Tan sülaləsi vassalı, 676–679-cu illərdə müstəqil xaqan olub
Hsinqhsivanq xaqan 679–693...
Çzeçjunşiçju xaqan 679–704...

## Onox xaqanları

Tonq Yabqu xaqan 693–700...
Şihsinq xaqan 704–708...
Hsinqhsivanq xaqan 708–717...
Aşina Çen 735–736...

## İkinci Göytürk Xaqanlığı

İltəriş xaqan 682–694...
Qapağan xaqan 694–716...
İnal xaqan 716...
Bilgə xaqan 716–734...
Yollıq xaqan 734–739...
Bilgə Qutluq Tenqri xaqan 739–741...
Aşina Syüan 741...
Qutluq Yabqu xaqan 741–742...
İrtəriş xaqan 742–744...
Ulu Bilgə xaqan 742–744...
Ozmış Tigin xaqan 742–743…
Baymey xaqan 743–745…

**Qulu KƏNGƏRLİ**
**XQ**

Dünyada sorağımız

# Azərbaycan kitabı İstanbul Beynəlxalq Sərgisində




**Sayca 41-ci olan kitab bayramı ölkəmiz üçün xüsusilə əlamətdardır. Azərbaycan bu sərgiyə ilk dəfə fəxri qonaq kimi qoşulub.**

"Uşaqlıq şənlikdir" şüarı ilə keçirilən sərginin açılışında yerli rəsmilərlə bərabər, TÜRKSOY-un baş katibi Sultan Raev, Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov, ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, Xalq yazçıları Elçin və Çingiz Abdullayev, çoxsaylı yazarlar, naşirlər iştirak ediblər.

Fərid Cəfərov açılış mərasimindəki təbrikində belə nüfuzlu sərginin "fəxri qonaq ölkə"si olmağın məmnunluq doğurduğunu diqqətə çatdırdı. O bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kimi səciyyələndirdiyi Azərbaycan və Türkiyə eyni etnik-mədəni köklər üzərində zəngin ortaq dəyərləri paylaşır. Nazir müavini Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, sərginin işinə uğurlar arzuladı.

Sərgi məkanında Azərbaycan stendinin açılışı incəsənət ustalarımızın bədii proqramı ilə başlandı. Ecazkar "Bayatı-Şiraz" muğamı, ardınca isə bu il dövlət başçısının sərəncamı ilə 530 illik yubileyi qeyd olunan dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsəri əsasında görkəmli bəstəkar Üzeyir Hacıbəylinin yazdığı eyniadlı operadan bir səhnə və rəqs nömrəsi təqdim olundu. Qiraətçilərin ifasında Füzulinin qəzəlləri, melodik mahnılar mərasimə təntənə gətirdi.

Azərbaycan stendi ilə tanışlıq zamanı məlumat verildi ki, burada ölkəmizin 25 nəşriyyatının kitabları, ümumilikdə 2 mindən çox nəşr yer alıb. Ekspozisiyada Azərbaycanın dövlətçilik tarixi, Heydər Əliyev Fondunun mədəniyyətimizlə bağlı nəşrləri, bədii ədəbiyyat nümunələri təqdim edilir. Tanınmış və gənc yazarlarımızın Türkiyədə nəşr olunmuş əsərləri də burada sərgilənir. Türk Mədəniyyəti və İrsi Fondunun nəşrlərinə isə Azərbaycan stendində ayrıca guşə ayrılıb.

Yazarlarımızın iştirakı ilə keçirilən ilk panel "Sosial media çağında yazmaq" adlanırdı. Esseist Qismət Rüstəmovun moderatorluğu ilə keçirilən müzakirədə yazarlar Sahilə Yaya, Ulucay Akif və Rəvan Cavidin çıxışları maraqla qarşılandı. Qeyd edildi ki, çağdaş dünyada texnoloji yeniliklər insanın fəaliyyət və davranışlarına, sanki, bir sürət, tələskənlik gətirib. Bu baxımdan yazıçıların diqqətçəkən mövzular seçməsi və seçilən üslub nümayiş etdirməsi zəruridir.

Sonra stendimizdə Günel Şamilqızının "Div olanda nə olar" və Cavid Zeynallının "Coğrafiya müəlliminin pencəyi" kitablarının imza mərasimi keçirildi.

Şair, tədqiqatçı, esseist Fərid Hüseyn hər iki yazar və kitablar haqqında məlumat verdi. Müəlliflər kitabları oxucular üçün imzaladılar. Daha bir panel müzakirəsi isə uşaq ədəbiyyatına həsr edildi. Yazıçı Sahilə Yayanın aparıcılığı ilə reallaşan panelin qonaqları tanınmış uşaq yazarları Solmaz Amanova və Sevinc Nuruqızı oldu. Qeyd edildi ki, uşaqlar bədii ədəbiyyata nə qədər çox maraq göstərsələr, zərərli vərdişlərdən və informasiyalardan bir o qədər uzaq olarlar.

Azərbaycan nümayəndə heyəti şəhərin Sarıyer rayonunda ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda unudulmaz dahi şəxsiyyətin abidəsini ziyarət etdi. Ulu öndərin söz sənətinə, ədəbiyyata, mütaliəyə necə böyük önəm verdiyi, həm SSRİ dönəmində, həm də müstəqilliyimizin ilk illərində Azərbaycanda mədəni-ədəbi inkişafa daim qayğı göstərdiyi xatırlandı.

Sonrakı günlərdə də milli stendimizdə bir sıra yaddaqalan görüşlər keçirildi. Beynəlxalq fondun hazırladığı "Səninləyik, Türkiyə" antologiyasının Azərbaycan Yazıçılar Birliyinin katibi, şair Səlim Babullaoğlunun moderatorluğu ilə təqdimatı da yüksək səviyyəsi ilə fərqləndi. Ötən ilin fevralında Türkiyədə baş vermiş və 50 mindən artıq insanın həlak olması ilə nəticələnən dağıdıcı zəlzələyə həsr olunan antologiyada böyük Türk coğrafiyasının tanınmış şairlərinin şeirləri toplanıb. Mərasimdə Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulovanın təqdimat iştirakçılarına ünvanladığı məktubu oxundu. Təqdimat Fondun aparat rəhbəri Fəxri Hacıyev, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, şair Fərid Hüseyn və başqalarının çıxışları ilə davam etdi.

Türkiyənin nüfuzlu "Heca" dərgisinin 2023-cü ildə işıq üzü görən "Modern Azərbaycan şeiri" adlı xüsusi sayının təqdimatı isə Azərbaycan incəsənət ustalarının ifasında maraqlı konsert proqramı ilə tamamlandı. Xalq artisti, xanəndə Mənsum İbrahimov ifa etdiyi bəstəkar və xalq mahnıları iştirakçılarda heyranlıq yaratdı. Stendin ziyarətçilərinə milli şirniyyatlarımızın paylanması sərgiyə şirinlik gətirdi.

Frankfurt Beynəlxalq Kitab Sərgisinin Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cumhuriyyəti və Yunanıstan üzrə koordinatoru Hanife İçten ilə görüş də maraqlı keçdi. Qonaq ölkəmizin nəşriyyat rəhbərlərinə dünyanın ən böyük kitab festivallarından olan Frankfurt sərgisi barədə danışdı. Söhbət zamanı Azərbaycanın qarşıdakı Frankfurt sərgisində fəxri qonaq ölkə kimi iştirakı ilə bağlı işgüzar müzakirə aparıldı.

Kitab Sərgisi çərçivəsində "Yeni Azərbaycan hekayəçiliyi və romançılığı" mövzusunda panel müzakirəsi də yaddaqalan oldu. Burada Azərbaycan yazarları Aqşin Yenisey, Nərmin Kamal, Cavid Zeynallı və Ülvi Babasoy çıxış etdilər. Azərbaycan nəsrində gedən proseslər və ədəbiyyatımızda realizm ənənəsi ilə bağlı müzakirə aparıldı. Yeni Azərbaycan nəsrində Qarabağ mövzusu və yazıçı-oxucu münasibətləri də diqqət mərkəzinə çəkildi. Yazarlar oxucuların suallarını ətraflı cavablandırdılar.

"Azərbaycanda nəşriyyat mədəniyyəti" mövzusunda panel müzakirədə naşirlər Şəmil Sadiq, Nurman Tariq, Rafiq İsmayılov və digərləri milli kitab sənayemizin hazırkı vəziyyəti, bu sahənin inkişafı perspektivləri barədə danışdılar. Stendimizdə görkəmli rus şərqşünas-alimi Yevgeni Bertelsin türk dilinə tərcümə olunmuş "Böyük Azərbaycan şairi Nizami" kitabının da təqdimatı, eləcə də Rəvan Cavidlə Qismət Rüstəmovun türk dilində işıq üzü görən "Absurd menyu" və "Gələcəyin tarixi" kitablarının imza mərasimləri keçirildi.

**Beynəlxalq sərginin iştirakçısı olan yazıçı Cavid Zeynallı kitab bayramı ilə bağlı təəssüratını XQ-yə belə açıqladı:**

– Həqiqətən də, möhtəşəm bayramdır. Tematik panellərdə iştirakıma, yeni "Coğrafiya müəlliminin pencəyi" kitabımın imza mərasiminə və sərginin yüksək təşkilinə görə həm Türkiyədən olan qardaşlarımıza, həm də bizə bu şəraiti yaradan Azərbaycan Mədəniyyət Nazirliyinin rəhbərliyinə ürəkdən minnətdaram. Bu kimi bayramlar xalqları daha da yaxınlaşdırır, ədəbiyyat adamlarına isə yaradıcılıq üçün yeni stimul verir.

Xatırladaq ki, sərgi noyabrın 10-dək davam edəcək və Azərbaycan milli stendində 20-dən çox müxtəlif səpkili təqdimat olacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Qarabağ Universitetində Zəfər tamaşası

**Şuşa Dövlət Musiqili Dram Teatrı Qarabağ Universitetində Zəfər Günü münasibətilə "Dəmir yumruq" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirib.**



Zəfər Həftəsi çərçivəsində təqdim olunan tamaşa 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Qələbənin 4-cü ildönümünə və şəhidlərimizin əziz xatirəsinə həsr olunub.

Qeyd edək ki, kompozisiya Xalq artisti Şükufə Musayeva, Əməkdar artistlər Teymur Məmmədov, Nazir Rüstəmov və digər tanınmış aktyorların ifasında Azərbaycan və Türkiyənin görkəmli şairlərinin vətənpərvər mövzuda şeirləri əsasında təşkil edilib.

Sonda bildirək ki, tamaşanın ssenari müəllifi teatrın direktoru, Əməkdar artist Yadigar Muradov, quruluşçu rejissoru isə Əməkdar artist Loğman Kərimovdur.

***FİDAN***
***XQ***

Yeni nəşrlər

# "Alban etüdləri"ndən boylanan qədim tariximiz

**Qələm dostum, tədqiqatçı-jurnalist Qvami Məhəbbətoğlunun "Alpan etüdləri" kitabı qarşımızdadır. Səhifələrini oxuyub çevirdikcə gözlərimiz önündə Qubanın Alpan kəndinin qədim və önəmli tarixi canlanır.**




Öncə deyək ki, Alban tayfaları min illərlə bu məkanda yaşamış, silinməz izlər qoymuşlar. Tarixçilər "alban" etnonimini günümüzdə yaşadan "alpan" sözünün açılımı haqqında müxtəlif fikirlər söyləyiblər. Məsələn, tədqiqatçıların bəzisi bu sözlərin "uca", "hündür ərazidə yaşayan el, toplum" mənası daşıdığı fikrindədir. Akademik A. Axundovun fikrincə isə, bu sözlər müxtəlif məna daşıyıcılarıdır. O, "Torpağın köksündə tarixin izləri" adlı kitabında "Albaniya" toponiminin "dağ yeri", "Alpan"ın isə "sərrast, qəhrəman, pəhləvan, cəsarətli, qorxmaz" mənasını verdiyini yazır.

Müəllif kitabın "Alpanımız: tariximizin alban beşiyi" adlı ilk bölməsini işləyəndə kəndin tarixi ilə bağlı geniş araşdırmalar aparıb və çeşidli tarixi mənbələrə istinad edib. Onun fikrincə, Albaniyanın paytaxtı Qəbələyə kedən "el yolu" vaxtilə Alpan kəndi ərazisindən keçib və bu yol üzərində müxtəlif müdafiə istehkamları-qalalar tikilib. Həmin tikililər Qəbələnin mühafizəsinə xidmət edib.

Ümumiyyətlə, "Alpan etüdləri"nin çox hissəsi kəndin keçmişinə işıq tutur, bu məkanın maddi-mədəniyyət abidələri haqqında ətraflı söhbət açılır, onların günümüzə gəlib çatmışlarının vəziyyəti haqda məlumat verilir. Kitabda bu yurdun yüksəlişi üçün əmək vermiş fədakar insanları, elmi, biliyi, qələmi ilə respublikamızda tanınan ziyalıları haqda da müxtəlif səpgili maraqlı yazılar var. Eyni zamanda Qarabağ uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan oğullarla yanaşı, qazilər haqqında təsirli məqalələr yer alıb.

"Alpan etüdləri"nin zənginliyi üçün kitaba alpanlı ziyalıların da yazıları, şeirləri daxil edilib. Onlardan biri yaradıcılığına az-çox bələd olduğum gözəl pedaqoq, şair, tərcüməçi Rahib Alpanlının (Sədullayevin) doğma yurd haqqında publisistik yazıları və şeiridir.

Qədim türk yurdu Alpanın təbiəti də insanları qədər zəngindir. Bu kənddə bircə dəfə olsam da gözəllikləri yaddaşıma yazılıb. Kitabın "Fotolarla söhbət" bölməsindəki müxtəlif səpgili rəngli şəkillər də baxanlarda bu təəssüratı oyadır. Onu da deyim ki, kitab Alpan kəndinə həsr edilsə də, tariximizlə bağlı çox olaylara işıq salır.

Qvami Məhəbbətoğlu ilə uzun illər eyni redaksiyada çalışmışıq. İşgüzarlığı və sözə, fakta həssas yanaşması diqqətimi çəkib. İlk kitabını hazırlayanda yazılarını toplayıb stolumun üstünə qoydu və: "Bu yazıları ilk oxuyan sən olmusan, istəyirəm kitabın da redaktoru sən olasan" – dedi. Mən də bacardığımdan elədim və "Hərdən gülməyim gəlir" adlı ilk kitabı işıq üzü gördü. "Alpan etüdləri" onun 4-cü kitabıdır. Bundan əvvəl is Qvaminin məşhur futbol hakimi Rüstəm Rəhimov haqqında yazdığı "Bu mənim alın yazımdır" və "Bibimin madonna servizi" adlı kitabları nəşr edilib.

Qvami Məhəbbətoğluna yeni kitablarını ərsəyə gətirməyi arzulayıram! Ürəyimdən keçən bir istək də budur ki, imkan düşən kimi gözəl Alpana qayıdıb, doğma ocaqda nəvələrini ətrafına yığıb sakit ömür yaşasın.

***Səməd MƏLİKZADƏ***

# Ədəbiyyatda bədii yalanın müqəddəsliyi

**Alman filosofu, ömrünü faciəli şəkildə başa vurmuş F.Nitşe "səhra böyüyür" deyəndə qlobal mənadakı cahilliyi nəzərdə tuturdu. Din islamaqədərki dönəmi cahiliyyə dövrü adlandırırdı. Bugünün kontekstində yanaşdıqda cahillik kitabsızlığın, elmsizliyin sinonimi kimi anlaşılmalıdır. Cahilliyin sahəsi böyüdükcə, dünya təhlükəli sonluğa gəlib çatmaqdadır.**

Allahı "öldürüb" ruhani müvazinətini itirmiş Qərb insanı tənhalıq girdabında boğulmağa başladı, ekzistensial xaos insan ruhunu idarəolunmaz hala gətirib çıxardı. Herman Hessenin "Yalquzaq" romanının qəhrəmanı kimi insanlar ikiləşməyə başladı və bu iki mən arasındakı ziddiyyətlər bütövlükdə toplumların parçalanmasına, ideya, irqi, dini və sair qütbləşmələrə gətirib çıxardı. Nitşenin formulu insanları birləşdirməyə deyil, ayırmağa xidmət etdi.

Qərbə Tanrının ruhu deyil, kapitalizmin ruhu hakim kəsilmişdi. Alman sosioloqu və filosofu Maks Veber (1864-1920) Avropanın kapitalizmə yenik düşməsinin köklü səbəbləri haqda uzun illər araşdırma aparmışdı. O, sekulyarlığın tərəfdarı idi, bununla belə dinin mədəni təsirinin vacibliyini dönə-dönə vurğulayırdı. M.Veberin qənaətinə görə, Tanrıda dinclik axtarışı, ruhani düşüncə əslində rasional həyat tərzinin möhkəmlənməsinə xidmət edir. Belə demək mümkünsə, rasionallıq irrasionallıqdan qidalanır. Bu baxımdan Qərb filosofları XX əsrin əvvəllərində mənəvi dayaqların itirildiyini anlayıb üzlərini yenidən Şərqə, Şərq ruhaniyyətinə tutdular.

Dzen buddizm fəlsəfəsinin görkəmli nümayəndələrindən olan yapon alimi Suzuki Şərqin xarakterini simvolizə etmək üçün qədim Çinin görkəmli düşüncə adamı Lao Tzıya (e.ə. VI-V əsrlər) üz tutur və Şərq ezoterikasının sirlərini onun daosizm təlimində axtarır. O, Şərqlə Qərb arasındakı düşüncə paradiqmasının fərqlərini əyani surətdə göstərmək üçün iki şeir nümunə gətirir. Birinci şeir haykuları ilə məşhur olan dahi yapon şairi Basyoya məxsusdur, digər şeirin müəllifi isə ingilis şairi Alfred Tennisondur. Basyonun haykusunda birinci şəxsin dilindən deyilir ki, mən yoldan keçərkən çəpərin dibində bir bitki gördüm və diqqətlə ona baxdım. Bu, spesifik Şərq ruhaniyyətidir.

Amma Tennisonun şeiri bizə başqa variasiyanı təklif edir. Müəllif çat vermiş divarda bir çiçək görür və onu kökündən qoparır. Bu isə duyğusallıqdan məhrum, soyuqqanlı və tipik Qərb mentallığıdır. Suzuki bu iki fərqli yanaşma tərzinə dünyanın ikiyə bölünməsi və iki fərqli qitənin kontrastı müstəvisində təfsir edir.

İstiqanlı güney və soyuqqanlı quzey... Onların hər biri öz ənənəvi keçmişini ifadə edir. Qərb müdrikliyi daim təhlükə impulslarını ötürür, bu proses dünyanı nüvə silahlarıyla hədələmək həddinə gəlib çatır (dünyanın bugünkü siyasi mənzərəsinə nəzər salmaq kifayətdir), Şərq müdrikliyi isə qoruyucu instinktləri inkişaf etdirir, Nitşenin dediyi "səhra"nı böyüməyə qoymur, öldürmək deyil, yaşatmaq idealına xidmət edir. Şərqin bütün fəlsəfi təlimləri (panteizm, sufilik, hürufilik və sair) insanlığın mənəvi cəhətdən kamilləşməsinə səsləyir.



Yazının bu yerində filologiya elmləri doktoru, professor Məmməd Qocayevin Nizami yaradıcılığı ilə bağlı mühazirəsi zamanı dediyi fikirləri xatırladım. Məmməd müəllim həmin mühazirəsində çox mühüm məqama toxunur. O, deyir ki, Nizami Gəncəvi dünya ədəbiyyatında ilk dəfə olaraq insan ruhunu kəşf etmiş bir şairdir. Tanrının insana bəxş etdiyi ruhu dünya ədəbiyyatında birinci olaraq Nizami özünün poetik dühası ilə yaratdığı obrazlarda ön plana çıxardı. Ruh tədqiqat obyekti kimi Nizami yaradıcılığında təcəlla etdi. Nizaminin fəlsəfi ideyaları əsrlər sonra Qərb alimlərinin, filosflarının, şairlərinin əsərlərindən, traktatlarından boy göstərməyə başladı. Dünya filoloji rakursundan yanaşdıqda Nizamidə feminizmin də, (Şirin, Məhinbanu, Nüşabə obrazları), ekzistensializmin də (Məcnun) və digər "izm"lərin də köklərini axtarıb tapmaq olar.

Şirin Xosrovla ilk görüşündə ona ərə getməyə razı olmur, taxtının geri qaytarılmasını tələb edir. Süjet boyu Şirin öz üstünlüyünü əldən vermir. Nizaminin digər qadın obrazları da qürurludur, əyilməzdir, mübarizdir, indiki terminologiya ilə desək, feminist qadınlardır.

Məcnun öz həqiqəti uğrunda savaşır, heç bir şərtləri qəbul etmir, öz daxilindəki səsə tabe olur. Aşiq olaraq öz identifikasiyasını təsdiqləyir. Dünyanın qeyri-mükəmməlliyi, disharmoniyası qarşısında bu nizamsızlığa eşq ekstazı ilə üsyan edir. Təfəkkürün eqosentrik məqamında Məcnun ekzistensialist düşüncəyə yaxındır. Məcnun özünü bu aşiqlik məqamında dərk edir və maddi dünyadan qopur, ayrılır. Şərq paradiqması bu məqamda Məcnunun timsalında zühur edir.

İnsan təbiətinə xas olan xüsusiyyətlərin fəlsəfi kateqoriyalara bölünməsi üçün bir neçə əsr lazım gəldi. Biz indi qədim yazılı mətnlərə baxanda görürük ki, insanın yaradılışında heç bir dəyişiklik baş verməyib, qorxu hissi, kədər hissi, sevinc hissi və insana xas olan apriori xüsusiyyətlər bu gün də mövcuddur. İnsanların materialist və idealist meyli son əsrlərə məxsus fenomen deyil, əksinə, qədim düşüncələrdən biridir.

Yuxarıda da qeyd etdiyimiz kimi, əslində fəlsəfə materializmlə idealizm arasında gedən mübarizələrin nəticəsi kimi meydana çıxıb. Ədəbiyyat isə həmişə olduğu kimi, idealizmin və metafizikanın tərəfində olub. Yazının əvvəlində gətirdiyimiz iki bədii nümunə də buna əyani sübutdur. Ruh ağacı ezoterika çayından abi-həyat bulur. İnsan bu dünyadan başqa ayrı aləmlərin də varlığına inanır və o aləmlərə isə yalnız və yalnız ruhun vasitəsilə gedib çıxmaq mümkündür. Şərq fəlsəfəsi, ədəbi düşüncəsi də əsrlərdir ki, bu istiqamətdə irəliləyir. Bu, metaelmi və ya antielmi yol olsa da, ruhani düşüncənin təməl prinsiplərindən biridir.

Nitşe həm də deyirdi ki, "ideal adlanan yalan indiyədək reallığın üstünə hopmuş lənət idi". Amma Nitşenin ölümündən sonra Avropa dərin və qorxunc bir boşluqla üzləşdi. Və bu zaman məhz ideal adlanan yalana sığındı. Çünki insanın rahat yaşaması üçün mütləq bir yalana ehtiyacı var. Bu yalan bizim düşündüyümüz zərərli yalanlardan deyil, yaradıcı ruhun insana bəxş etdiyi yaşam mənbəyidir. Bu yalan olmasaydı, ədəbiyyat da olmazdı. Ədəbiyyatın yalanı da müqəddəsdir.

***Kənan HACI,***
***yazıçı-publisist***

# ABŞ-də seçkilər: ermənilərin gözləntiləri və reallıqlar





(əvvəli 1-ci səhifədə)

Prezidentin kim olacağı sualı Ermənistan və dünyanın müxtəlif yerlərində yaşayan ermənilərin də əsas mövzusudur. Xüsusən də Amerikada yaşayan ermənilərin seçiminin kim olacağı ilə əlaqədar fərqli fikirlər səsləndirilməkdədir. Erməni təşkilatları özlərini elə aparır ki, sanki seçkinin taleyi onların kimə səs verməsindən asılıdır. ABŞ ermənilərinin əsas təşkilatlarından olan "Haydad" bir neçə ay əvvəl prezidentliyə namizədlər Tramp və Baydenə müraciət qəbul etmişdir. Həmin sənəddə seçiləcək prezidentdən Azərbaycana qarşı sanksiyaların tətbiq etməsi, Qarabağ ermənilərinin "təhlükəsiz geri dönüşü", erməni qaçqınlara "humanitar yardımlar"ın edilməsi və s. məsələlər tələb edilir.

Əlbəttə, müraciətdə Türkiyəyə də basqıların artırılması nəzərdə tutulub. Ermənilər bu saxta yolla demək istəyirlər ki, hansı namizəd onların tələbləri istiqamətində addımlar atsa, Amerika erməniləri onun yanında olacaqlar, yəni seçkilərdə ona səs verəcəklər. Bu, müraciəti müstəqil ekspertlər "başından böyük bəyanat" adlandırmışlar və haqlı olaraq sual verilmişdilər ki, bu ölkədə nə qədər erməni yaşayır ki, onların səsi həlledici olsun. Ermənilərin ABŞ-də sayı ilə əlaqədar Ermənistanın özündə belə dəqiq rəqəm yoxdur, deyək ki, bəzi ermənilərin dediyi kimi, hayların sayı ölkədə 500 min–1 milyon arasındadır. Bu rəqəmin qəsdən şişirdilməsi ənənəvi erməni xəstəliyi olduğu unudulmamalıdır.

Bu, öz yerində, amma nəzərə alınmalıdır ki, Amerika ermənilərinin səsi seçkilərdə həlledici ola bilməz. Amerikada seçkilərdə səsvermə hüququ olan 244 milyon insan var. Bu rəqəmin qarşısında erməni seçicisi amili cılız görünür. Bəllidir ki, ermənilərin daha çox məskunlaşdığı Kaliforniya ştatından ənənəvi olaraq səslər demokratlara verilir və bu dəfə də rəy sorğularında Kaliforniya "demokratların qalası" olaraq qalmışdır. Burada yaşayan amerikanlılarla birlikdə erməni seçicilər artıq seçimlərini ediblər. Digər ştatlarda yaşayan erməni seçicilərin sayı isə olduqca azdır və bəzi yerlərdə hətta onları Ermənistan, "erməni məsələsi" maraqlandırmır.

Seçki ərəfəsində Harris və Trampın erməni əhaliyə müraciətləri olmuşdu, ənənəvi təbliğat üsulu bu ölkədə yaşayan müsəlman əhali üçün də edilmişdi. Harris sələfi Baydenin xəttini davam etdirərək Ermənistanın müstəqillik günü münasibətilə bu ölkənin rəhbərinə göndərdiyi məktubunu yenə "erməni soyqırımı", Azərbaycana yardımların kəsilməsi, sanksiyalar tətbiq edilməsi, Dağlıq Qarabağı tərk etmiş ermənilərin "təhlükəsiz geri dönüşü", Ermənistanın ərazi bütövlüyünün qorunması və Azərbaycanla sülh sazişinin imzalanmasının vacibliyi və s. həqiqəti əks etdirməyən məsələlər üzərində qurulmuşdu.

Onun rəqibi Tramp da özünün sosial şəbəkəsindən ermənilərlə bağlı buna bənzər fikirlər səsləndirmişdi. Bunların heç biri əslində ermənilərdən səs almaq məqsədi ilə edilmir, Amerikanın xüsusi dövlət maraqları vardır və hansısa əhali qrupunun istəklərinə uyğun formalaşdırılmır. İndi ABŞ-ni biz Cənubi Qafqaz bölgəsində aktiv siyasət yürüdən dövlət kimi görürüksə, bu Vaşinqtonun dövləti maraqlarından, siyasi və hərbi doktrinasından qaynaqlanır. Ermənilərin xahiş-minnətinin, tələblərinin nəticəsi deyildir. Amerikanın bölgədə aktivliyinə bu gün onun Rusiya ilə bağlı illərlə formalaşdırdığı strategiyanın obyektivindən baxılmalıdır. Amerika açıq şəkildə Rusiyanı bölgədən çıxarmaq və onu zəiflətmək siyasətini dövrəyə buraxıb və müxtəlif vasitələrlə buna nail olmaq istəyir.

Bu məsələdə ermənilər vasitə hesab edilirmi? Demək, çətindir. Ermənilər də bilirlər ki, əgər Tramp seçilərsə, onun dünyada baş verən münaqişələri, savaşları dayandırma siyasəti nəticə verərsə, öncə Ukrayna–Rusiya müharibəsinin dayandırılmasına yol açılacaq və bu səbəbdən Moskvanın Cənibi Qafqazda aktivliyi artacaq,



Yaxın Şərqdə durum dəyişəcək. Bunu Ermənistan və onların xaricdəki təşkilatları, erməni icmaları istəmirlər. Çünki son illər ərzində Ermənistan açıq şəkildə vektor dəyişikliyi edərək Rusiyaya münasibətdə bəzi Azərbaycana düşmənçilik edən Qərb dövlətləri və Amerika ilə eyni cəbhədə yer almağa çalışıb. Tramp seçilərsə, plan suya düşmüş olacaq. Bu səbəbdən ermənilər Harrisin tərəfdarı kimiu görünməyə başalayıblar, amma ehtiyatı da əldən vermədən, bəzən Tarmpı da tərifləməyə çalışırlar.

Ermənilər Trampın prezidentliyi dönəmində ona yaxınlaşmaq problemi ilə üzləşmişdilər. O vaxtkı prezident Serj Sarkisyan Trampı təbrik etmək üçün vasitəçi axtarmışdı və Ermənistanda hələ də bu hadisəni lağa qoyurlar. Erməni politoloqların fikrincə, elə indinin özündə də Trampın seçilməsi durumunda ermənilər nə edəcəklərini siyasi olaraq işləyib hazırlaya bilməyiblər. Haylar Trampın seçilməsi durumunda onların Harris tərəfdarı kimi zərbələr alacaqlarından qorxurlar və bu, son günlər Ermənistanda aparılan polemikalara da sirayət etmişdir.

Məsələn, bir televiziya müsahibəsində politoloq Hakop Badalyan deyir ki, ermənilərin Harris tərəfdarı kimi çıxış etmələri yanlışdır, "hələ biz bilmirik ki, Harris seçilərsə, o nə dərəcədə öz sözünü tutacaq, Ermənistanın maraqlarından hansı səviyyədə çıxış edəcək? 2020-ci il savaşı Trampın prezidenliyinin son dövründə olmuşdu və ondan sonrakı dönəmdə Bayden hakimiyyəti dövründə də Ağ evin siyasəti dəyişməmişdi. 2023-cü ilin sentyabrında Dağlıq Qarabağı ermənilər könüllü tərk edərkən Bayden hakimiyyətdə idi..."

Bu, o deməkdir ki, bəzi məqamlarda Amerikanın prezidentləri belə dövlətin seçdiyi xətti dəyişdirə bilmirlər. ABŞ hakimiyyəti Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bütün baş verənləri ermənilər istəyir deyə qanunsuzluq adlandıra bilməzdi. Harris seçilsə belə ABŞ dövlətinin bu siyasəti dəyişə bilməz, bölgədə Azərbaycanın oynadığı rolun necə əhəmiyyətli olduğunu bu ölkədə yaxşı anlayırlar. Eyni vaxtda bu seçkilərlə Amerikanın qanunverici orqanları da dəyişəcək, Konqresin yuxarı və aşağı palatalarına yeni adamlar gələcək. Erməniləri narahat edən odur ki, seçkilərdə kimin qalib gəlməsindən asılı olmayaraq, artıq Senatda və Konqresdə Nensi Pelosi, Menendes, Adam Şiff kimi ermənilərin maliyyəsi ilə lobbi fəaliyyəti göstərən, erməni maraqlarına xidmət edən adamlar olmayacaq. Amerika siyasi elitasında nəsil dəyişikliyi baş verir. Konqresmenlerin, demək olar ki, çoxu dəyişəcək.

Amerika erməni icması bu seçkilərdə ciddi rol oynaya bilməz. Ermənistan dövlətinin özü Amerika erməni təşkilatları ilə əlaqələr baxımından aktiv rol ala bilmir. Diaspora ilə Ermənistan hakimiyyətinin arasında ciddi fikir ayrılıqları var. Ermənistandan gələn "tapşırıqlar" qulaqardına vurulur. Oradakı siyasiləşmiş qurumların bir hissəsi Paşinyan hakimiyyəti ilə problemlər yaşamaqdadır. Məsələn, Erməni İnqilabçı Federasiyası – Daşnaksutyun və Hnçak partiyaları Paşinyan hakimiyyətini legitim olaraq qəbul etmir. Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasına çalışırlar. Amerika Erməni Assambleyası və Amerika Erməni Milli Komitəsi (ANCA) yerli erməni əhali arasında təsir gücünü itiriblər.

Azərbaycanın 2020-ci il Tarixi Zəfəri erməni təşkilatlarını da zəiflədib və bu təşkilatlar bölgədəki proseslərlə bağlı fərqli bəyanatlar verir, yuxarıda adları çəkilən hər iki siyasi qurumun ABŞ hakimiyyət orqanlarına əvvəlki illərdəki təsirləri yoxdur. Amerika erməni icmasının içərisində də bölünmələr var və seçkilərdə Tramp və Harrisin qələbəsinə özlərinin gündəlik qayğılarından, şəxsi maraqlarından baxırlar.

Erməni təşkilatlarının Amerika cəmiyyətində rolunun azaldığını Ermənistanda onunla əlaqələndirirlər ki, bu ölkədəki siyasi qurumlarla əlaqələr zəifləmişdir. Erməni lobbiçilərinin çoxu bu ölkədəki köklü qurumla, Daşnaksutyunla sıx əlaqədə idilər, həmin qrup isə Ermənistan hakimiyyətindən göstəriş və dəstək almır. Amerika erməni diasporu əvvəlki təsir imkanlarını həyata keçirə bilmir.

Bu mənada ABŞ-dəki sabah keçiriləcək seçkilərdə namizədlər erməni icmalarına mühüm amil kimi baxmırlar. Bir sözlə, okeanın o tayında səsvermədə kimin qalib gəlməsindən asılı olmayaraq ermənilər nə Amerikada, nə də bölgəmizdə məkrli planlarını həyata keçirə bilməyəcəklər...

***Q fi ar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

**Araşdırma**

# Beynəlxalq hüquq mafiyasının anti-Azərbaycan fəaliyyəti

## *Ölkəmizə qarşı sanksiyalarda erməni lobbiçiliyi və siyasi korrupsiya amili*

**Dünən Sosial Tədqiqatlar Mərkəzinin təşkilatçılığı ilə "Parlamentlər və qlobal sanksiya tendensiyaları: qanunvericilik orqanında siyasi sanksiyalarla bağlı lobbiçilik beynəlxalq hüquqa maneədir" mövzusunda konfrans keçirildi. Toplantıda "Azərbaycana qarşı sanksiyalarda erməni lobbiçiliyi və siyasi korrupsiya. Şəbəkə. Faktlar. İfşa." adlı kitab təqdim edildi.**

Konfransda Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc "Siyasi sanksiyalarla bağlı lobbiçilik parlament diplomatiyasına və qanunyaradıcılıq missiyasına zidd hüququn siyasi alətə çevrilməsidir" məruzəsində vurğuladı ki, Cənubi Qafqazda 35 il əvvəl sovetlərin dağılması ilə formalaşan düzəni dəyişdirən Prezident İlham Əliyev geosiyasi inqilab etməklə, bir çox dövlətlərin bölgədə hökmranlığına son qoydu. Lakin hərbi meydanda məğlub olanlar digər platformalarda Azərbaycandan qisas almaq, ölkəmizi cəzalandırmaq xəttini seçərək son 4 ildə "3-cü Qarabağ savaşı" üçün beynəlxalq zəmin, tərəfdar və hüquqi-siyasi aktlar toplayırlar. Beynəlxalq hüquq, ədliyyə və məhkəmə sistemində kök salan erməni şəbəkəsinin miqyaslı fəaliyyəti nəticəsində cinayət, ədliyyə sistemi və ədalət mühakiməsi tam siyasiləşib. Hər gün ölkəmizə qarşı yönələn geosiyasi təzyiq, informasiya hücumu, media və hüquq orqanlarının təhdidinə yeni institutlar, tərəfdaşlar və isimlər cəlb edilir. Xankəndidən könüllü köçən ermənilərinin "hüquqları" ilə bağlı çoxsaylı qurumlar yaradılır. Beynəlxalq hüquq sahəsində vəzifəli, yaxud sabiq şəxslərin prosesə cəlb edilməsi genişlənir, onlar rəhbər postlara gətirilir.

Sonra Milli Məclisin "Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya"sının sədri Ramid Namazov "COP29 – ölkəmizə yekdil dəstək beynəlxalq münasibətlər sistemində Azərbaycanın nüfuzunun göstəricisi, erməni lobbisinin gücsüzlüyü kimi", Milli Məclisin deputatı Fariz İsmayılzadə "Sanksiyalar hibrd müharibə aləti kimi. 30 illik işğal dövründə Ermənistana qarşı sanksiyalar nədən olmayıb?", Milli Məclisin deputatı Mübariz Qurbanlı "902 düzəlişdən – İşğal edilmiş ölkədən qalib ölkəyə qədər: Zəfərimizdən sonrakı sanksiya fəallığının dinamikasına nəzər", Milli Məclisin deputatı Rizvan Nəbiyev "COP-29. Azərbaycanın qlobal təşəbbüsü. "Yaşıl dünya naminə həmrəylik" qərəzli sanksiyalara cavab kimi" mövzularında məruzələrlə çıxış etdilər.




Natiqlər qeyd etdilər ki, Qarabağın işğaldan azad edilməsindən sonra qlobal erməni diasporunun revanşizm isterikası çoxsaylı istiqamətlərdə dəfələrlə güclənib. Ölkəmizin adını müxtəlif beynəlxalq insan hüquqları təşkilatlarında, ədalət və cinayət məhkəmələrində hallandırmaq, hesabat və reytinqlərdə neqativ təqdim etmək, parlamentlərdə qərəzli qətnamələr qəbul etdirmək cəhdlərinin sayı-hesabı yoxdur. Sosial Tədqiqatlar Mərkəzinin apardığı araşdırmalar bir daha sübut edir ki, xüsusilə son illər beynəlxalq insan hüquqları təşkilatlarında, məhkəmə və ədliyyə qurumlarında, parlamentlərdə, QHT-lərdə ermənilərin həm rəhbərlik, həm də işçi heyətdə şəbəkələşməsi olduqca geniş, qlobal miqyas alıb.

Təqdim edilən kitabın müəllifi, STM İdarə Heyəti sədrinin müavini Tahirə Allahyarova bildirdi ki, bu nəşrdə Azərbaycana qarşı sanksiya hazırlığı və suverenliyimizin tam təmin edilməsindən sonra qlobal erməniliyin hərəkətə keçməsi, eyni zamanda, hay diasporu və lobbisinin beynəlxalq insan hüquqları sahəsində təşkilatlara sızması, rəhbərlikdə və işçi heyətdə fəaliyyətini maskalamağa çalışanların aşkara çıxarılması və ifşası ilə bağlı faktlar ilk dəfə təqdim edilir.

Qeyd edək ki, Sosial Tədqiqat Mərkəzinin hazırladığı tədqiqat-kitabın əsas məqsədlərindən biri də Argentina–Fransa, frankofon və ispandilli ölkələrdə erməni diasporunun qlobal hüquq və ədalət strukturlarında mütəşəkkil fəaliyyət qurması, artıq "beynəlxalq hüquq mafiyası" adlana biləcək şəbəkənin çevik ifşa edilməsi, konkret şəxslərlə bağlı faktların təqdim edilməsidir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

**MARAQ DÜNYAMIZ**

# Qobi səhrasında aypara şəkilli göl

## *Burada gündüz hərarət 35 dərəcə isti, gecə sıfıra bərabər olur*

**"Qoy Çayna" elmi-kütləvi portalı yazır ki, Qərbi Çin ərazisindəki Dünxan şəhərindən 6 kilometr aralıda – Qobi səhrasının ortasında aypara şəkilli göl var (https://gochina.ru/blog-dlya-puteshestvennikov/dostoprimechatelnosti-kitaya). Çinlilərin Yueyatsuan adlandırdığı 150 metr uzunluqda olan göl insanın ağlını başından ala biləcək qədər gözəl vahə ilə əhatələnmişdir. Həmin göl və sahildəki buddist məbədi Çinin əsas görməli yerlərindən biri hesab olunur.**

Bu möcüzəli su, vahə və məbəd kompleksi UNESCO-nun mühafizə olunan təbiət nümunələri fonduna qəbul edilsə də, 5-10 il əvvəl müxtəlif problemlər üzündən gölün əvvəlki ölçülərinin üçdən birinin qaldığı söylənilirdi. Qeyd edilirdi ki, son otuz ildə gölün sahili 8 metr geriyə çəkilmişdir. Ona görə də yerli hakimiyyət orqanları son illərdə gölün əvvəlki miqyasının bərpa edilməsi üçün alimlərlə birlikdə müxtəlif addımlar atırlar.

Sayt yazır ki, ətrafdakı qum təpələri bu təbiət gözəlini qum fırtınalarından və küləklərdən qoruyur. Bu təbii "qorunmaya" baxmayaraq, planetin ən quraq yerlərindən birində yerləşən bu təbii gözəllik dövri olaraq yox olmaq təhlükəsi ilə üzüzə qalır. Belə ki, 1960-cı illərdə gölün ən dərin nöqtəsi 7 metrə çatırdı. Sonra dayazlaşma prosesi başlayıb. Alimlər həmin prosesi Qobi səhrasının ekosistemini zədələyən və adıçəkilən gölü də qidalandıran Dang çayı üzərində bəndin tikintisi ilə əlaqələndirirlər.



Əlavə edilir ki, "xilasetmə" əməliyyatları öz nəticəsini verməkdədir. Həmin əməliyyatlara, yəni rəsmi qadağalara bu gölün yaxınlığında hansısa quyunun qazılmasının və kənd təsərrüfatı işləri aparılmasının qadağan edilməsi də daxil idi.

Həm xarici turistlər, həm də ölkə daxilindəki təbiətsevərlər buraya maydan başlayaraq oktyabradək gəlirlər. Çünki ilin həmin aylarında Qobi səhrasında gün ərzində hava orta hesabla +35°C-ə qədər istiləşir. Gecələr isə hərarət sürətlə aşağı düşür. Hətta yayda havanın temperaturu sıfıra enir. Ona görə də qışda Dünxana olan səfərlərin bəziləri təxirə salınır.

***İ.QAÇAYEV***

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Sumqayıt Yaşayış Kompleksində və Lənkəran Yaşayış Kompleksində mənzillərin satışı barədə

# ELAN

Sumqayıt şəhəri, Bulvar küçəsi 197 nömrəli ünvanda yerləşən Sumqayıt Yaşayış Kompleksi üzrə 392 mənzilin, Lənkəran şəhəri, Akademik Zərifə Əliyeva küçəsi 303 nömrəli ünvanda yerləşən Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzilin, ümumilikdə 544 mənzilin satışı 6 dekabr 2024-cü il saat 11.00-da başlayacaq və 14 dekabr 2024-cü il saat 11.00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 10 dekabr 2024-cü il saat 11.00-da başlayacaq və 14 dekabr 2024-cü il saat 11.00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalında (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdirlər. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdirlər.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Sumqayıt Yaşayış Kompleksi üzrə 392, Lənkəran Yaşayış Kompleksi üzrə 152 mənzil olmaqla, ümumilikdə 544 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Sumqayıt Yaşayış Kompleksi üzrə - 27.09.2021-ci il tarixli 31957 nömrəli və 24.01.2022-ci il tarixli 32415 nömrəli;

Lənkəran Yaşayış Kompleksi üzrə - 25.11.2021-ci il tarixli 32210 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinin 2 saylı Sumqayıt Ərazi İdarəsi və 10 saylı Lənkəran Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

**Sumqayıt Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 458.3 | 12 | 1 | 2 | 24 | 59.9 | 71.8 | "HN CONSTRUCTİON" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi, ev 185, mənzil 14 | 22-09-24 |
| | | | | 3 | 24 | 78.5 | 93.7 | | |
| 3 | 515.9 | 12 | 1 | 3 | 48 | 77.7 - 82.1 | 93.3 - 99.3 | | 22-09-24 |
| 4 | 423.6 | 9 | 1 | 2 | 19 | 59.7 - 60.9 | 72.7 - 74.7 | "CONCO" QSC, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi, ev 81A, mənzil 1/2/3 | 31-05-24 |
| | | | | 3 | 17 | 78.1 | 93.8 | | |
| 5 | 694.1 | 9 | 1 | 2 | 8 | 59.7 | 72.2 | | 31-05-24 |
| | | | | 3 | 24 | 78.1 - 82.3 | 93.7 - 99.5 | | |
| 6 | 413.7 | 9 | 1 | 2 | 16 | 59.7 | 72.9 | | 31-05-24 |
| | | | | 3 | 16 | 78.1 | 93.8 | | |
| 7 | 412.6 | 9 | 1 | 2 | 16 | 59.7 | 72.9 | "Hünər-İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 31-03-24 |
| | | | | 3 | 16 | 78.1 | 93.8 | | |
| 8 | 694.1 | 9 | 1 | 2 | 8 | 59.7 | 72.2 | | 31-03-24 |
| | | | | 3 | 24 | 78.1 - 82.3 | 93.7 - 99.5 | | |
| 9 | 438.9 | 9 | 1 | 2 | 10 | 59.7 - 60.8 | 72.1 - 74.7 | | 31-03-24 |
| | | | | 3 | 26 | 78.1 - 82.4 | 93.8 - 99.5 | | |
| 10 | 515.9 | 12 | 1 | 3 | 48 | 77.7 - 82.1 | 93.3 - 99.3 | "HN CONSTRUCTİON" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şosesi, ev 185, mənzil 14 | 22-09-24 |
| 11 | 438.3 | 12 | 1 | 2 | 12 | 59.7 | 71.8 | | 22-09-24 |
| | | | | 3 | 36 | 77.2 - 78.5 | 93.4 - 93.7 | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 852.26 | 9 | 2 | 3 | 1 | 72.9 | 85.3 | "Araz İnşaatçı" MMC, Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 01-03-24 |
| | | | | 4 | 16 | 114.6 | 135.6 | | |
| 2 | 810.2 | 9 | 2 | 3 | 11 | 72.9 | 85.3 | | 01-03-24 |
| | | | | 4 | 16 | 114.6 | 135.6 | | |
| 3 | 719.34 | 9 | 2 | 3 | 18 | 72.9 | 85.2 | "Merkuri-İnşaat" MMC, Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143 | 01-03-24 |
| | | | | 4 | 18 | 99 | 119.4 | | |
| 4 | 723.55 | 9 | 2 | 3 | 18 | 72.9 | 85.2 | | 01-03-24 |
| | | | | 4 | 18 | 99 | 119.4 | | |
| 5 | 503.57 | 9 | 1 | 3 | 36 | 75.1 - 76.7 | 89.4 - 91.3 | | 01-03-24 |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

**Qeyd:** "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin **ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.**

*(ardı 19-cu səhifədə)*

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Sumqayıt Yaşayış Kompleksində və Lənkəran Yaşayış Kompleksində mənzillərin satışı barədə

# ELAN

(əvvəli 18-ci səhifədə)

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**
2 otaqlı mənzillərin qiyməti – **59 700** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **77 200** manatdan başlayır.

**Lənkəran Yaşayış Kompleksi üzrə:**
3 otaqlı mənzillərin qiyməti – **61 965** manatdan,
4 otaqlı mənzillərin qiyməti – **84 150** manatdan başlayır.

**Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.**

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | |
|---|---|---|---|---|
| | | | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 257-262 manat | 332-354 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | |
|---|---|---|---|---|
| | | | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 267-281 manat | 362-419 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

**Sumqayıt Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 2 | 59 700 | 5 970 | **53 730** |
| 3 | 77 200 | 7 720 | **69 480** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

**Lənkəran Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 3 | 61 965 | 6 196 | **55 769** |
| 4 | 84 150 | 8 415 | **75 735** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəsmi internet səhifəsinə (www.mida.gov.az) daxil olaraq Sumqayıt və Lənkəran Yaşayış Komplekslərində satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə güzəştli mənzil kalkulyatoru vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla www.mida.gov.az internet səhifəsində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (5 saylı Bakı, 1 saylı Sumqayıt və Lənkəran regional), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

**Qeyd:** "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.

İdman xəbərləri

## FHN-çilər ölkə kubokunu qazandılar



**Noyabrın 4-də Gənclər və İdman Nazirliyinin Voleybol mərkəzində Azərbaycan Voleybol Federasiyasının təşkilatçılığı ilə kişi voleybolçular arasında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan ölkə kubokunun final qarşılaşması baş tutub.**



Ölkə kubokunda B qrupunda yer alaraq finala vəsiqə qazanan FHN-i təmsil edən kişilərdən ibarət "Xilasedici" voleybol komandası final görüşündə "Azerrail" komandasını 3:0 hesabı ilə məğlub edərək ölkə kubokunun sahibi olub.

Final oyununu fövqəladə hallar naziri Kəmaləddin Heydərov da izləyib.

Qeyd edək ki, "Xilasedici" voleybol komandası kubok oyunlarında bundan əvvəl "Murov AZ Terminal", "MOİK" və "Neftçi" komandalarını məğlub edib.

## Boks tariximizdə ən yaxşı nəticə

**Azərbaycan milli komandası dünya birinciliyini 5 medalla başa vurub. Komandamızın üzvləri Əli Abdullayev (63,5 kq), Bilalhəbaşi Nəzərov (48 kq) gümüş, Məhəmmədəli Qasımzadə (60 kq), Zidan Hümbətov (51 kq) və Aynur Mikayılova (57 kq) bürünc mükafat qazanıblar.**



Qeyd edək ki, yığmamız medal sayında mundiallar tarixində özünün ən yaxşı göstəricisinə imza atıb.

## Gimnastımızın Norveçdə uğurlu çıxışı

**Xüsusi Olimpiya hərəkatına dəstək layihəsi çərçivəsində Norveçin Lerenskuq şəhərində keçirilən dostluq yarışında Azərbaycan gimnastı uğurla çıxış edib.**



Təmsilçimiz Mehriban Tağıyeva fərdi proqramda halqa ilə 1-ci yeri tutub. Top ilə hərəkətlərdə isə bürünc medal qazanıb.

*Leyla QURBANOVA*
*XQ*

Futbol tariximizdən

# Səmədağa Şıxlarov – "Spartak"la fantastik oyunun qəhrəmanı

**"Xalq qəzeti" keçmiş Sovet İttifaqı çempionatlarında xalq komandası kimi "Neftçi"nin tarixində dərin iz buraxmış futbolçular haqqında yazıların dərcini davam etdirir. Bugünkü qeydlərimizin səbəbkarı 3 il əvvəl, 2021-ci il iyunun 1-də 66 yaşında əbədiyyətə qovuşmuş Səmədağa Şıxlarovdur.**



Bu hücumçu 1977-1984-cü illərdə futbolumuzun flaqmanı, bütün respublikanın sevimlisi "Neftçi"nin heyətində güclülər dəstəsində keçirdiyi 125 oyunda rəqib qapılarına 21 top vurmuşdur. Onlardan ikisi yaxşı yadımdadır. Yəqin, ona görə ki, həmin qollar Moskvanın "Spartak" komandası kimi adlı-sanlı kollektivə qarşı görüşdə qeydə alınmışdır.

Çox-çox sonralar, 2015-ci ildə XX əsrdə dünyanın ən yaxşı qapıçılarından biri, "Spartak"la yanaşı, SSRİ yığma komandasının da şərəfini müvəffəqiyyətlə qorumuş əfsanəvi qapıçı Rinat Dasayev paytaxtımızın qonağı olarkən "Kaspi" qəzetinin əməkdaşı Murad Məmmədova müsahibəsində Bakıda iştirakçısı olduğu görüşlərdən hansının yadında daha çox qaldığı barədə suala cavabında 80-ci illərin əvvəlində 3:4 hesabı ilə uduzduqları, həlledici topu Səmədağa Şıxlarovun vurduğu və fantastik oyun adlandırdığı matçı yada salmışdı.

Biz də 45-ci SSRİ çempionatının 1982-ci il mayın 8-də Respublika stadionunda keçirilmiş "Neftçi"—"Spartak" görüşünü, onun iştirakçılarını və parlaq qələbəmizi birlikdə xatırlayaq. SSRİ Futbol Federasiyası bu tarixi matçın hakimliyini Miroslav Stupara (İvano-Frankovsk) həvalə etmişdi. O, tamaşaçıları əvvəldən axıradək gərgin vəziyyətdə saxlayan qollarla zəngin oyunda rəqibləri düz yeddi dəfə meydanın mərkəzinə dəvət etdi. Hakimin final işarəsi eşidildikdə isə stadionu alqış sədaları bürüdü. "Neftçi" sovet futbolunun əbədi liderlərindən birinə 4:3 hesabı ilə qalib gəlmişdi.

Oyunun qəhrəmanı, yuxarıda dediyimiz kimi, S.Şıxlarov oldu. Hesabı 19-cu dəqiqədə məhz Səmədağa açdı, 89-cu dəqiqədə qələbə topunu da o vurdu. Komandamızdan digər iki qolun müəllifləri isə 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Şakir Qəribov, eləcə də, Vladimir Mixaylevski oldular.

Həmin mülayim may axşamında bütün Azərbaycanı kəskin hücumlar, məhsuldar oyun və layiqli qələbə ilə sevindirən "Neftçi" görüşü Elxan Rəsulov, Novruz Əzimov, Əsgər Abdullayev (Asif Əliyev, 65), Rəşid Özbəyov, Asim Xudiyev, Vladimir Mixaylevski, Rauf İsmayılov (Şakir Qəribov, 53), Əbdülqəni Nurməmmədov, Səmədağa Şıxlarov, Səməd Qurbanov və İsgəndər Cavadovdan ibarət heyətlə keçirdi.

Ölkənin 45-ci çempionatı S.Şıxlarov üçün daha bir ağır görüşdə qələbə ilə əlamətdar olmuşdur. Həmin çempionat çərçivəsində "Neftçi" digər məşhur komanda Kiyev "Dinamo"sunu da Bakıdan məğlubiyyətlə yola salmışdır—2:1. Bu dəfə də meydan sahiblərinin qələbəsini ikinci hissənin əvvəlində Səmədağanın vurduğu qol təmin etmişdir. Buna qədər isə hesab 1:1 idi və bizdən Mixaylevski fərqlənmişdi.

"Neftçi" çempionat—82-də 27 xal toplayıb, 18 komanda arasında 16-cı yerlə kifayətlənmişdir. Turnirdə Bakı kollektivinin heyətində ən çox qolun müəllifi isə Şıxlarov olmuşdur. O, özünə, komandasına və biz azarkeşlərə 10 qolun sevincini yaşatmışdı…

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*



## Üzərliyin havası – bir çox dərdin davası

**Orta Asiya ölkələrində də bizdəki kimi gözdəymə və xəstəliklər zamanı, qədim inanca görə, yandırılan üzərlik həm də virus, parazit və bakteriyaları məhv edən antivirus təsirə malikdir.**

Məşhur rusiyalı həkim Boris Uvaydov bildirir ki, evlərin dezinfeksiya edilməsi üçün üzərlik yandıra, eləcə də onun tüstüsünü evə, əşyalara, uşaqlara və nəfəs almaq üçün üzünüzə verə bilərsiniz.

Üzərlik yandıqdan sonra ondan ayrılan efir yağları və birləşmələri ilə zəngin tüstü gözləgörünməyən bütün virusları məhv edir.

Xalqımız əbəs yerə deməyib: "Üzərliksən havasan, hər bir dərdə davasan".

Məlumat üçün bildirək ki, üzərlik dərman bitkisidir və yüzlərlə xəstəliyin dərmanıdır. Özbək qadınlar ondan sonsuzluğun müalicəsində də istifadə edirlər. Bir çox müsəlman ölkələrində üzərlik qrip olan şəxsin otağında yandırılır, eləcə də suyu içilir.

Qeyd edək ki, B.Uvaydov Daşkənd Tibb Universitetini bitirmiş həkim, daha sonra alternativ təbabət və naturopatiya üzrə ixtisaslaşmış alim, ABŞ, Avropada çalışan ixtisaslı həkim və yazıçıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

## Abşeronda yağmursuz və külək, bölgələrdə yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 5-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin günün ikinci yarısında bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən cənub-qərb küləyi əsəcək, gündüz güclü şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 6-9°, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə və gündüz 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Dolu düşəcəyi, şimşək çaxacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-8° , gündüz 13-18° isti, dağlarda gecə 0-3°, yüksək dağlıq ərazilərdə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Özbəkistan Televiziyasında Azərbaycan proqramı



**Xəbər verdiyimiz kimi, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin "Azərbaycan dilinin tədrisi və təbliği" layihəsi əsasında Daşkənd Dövlət Şərqşünaslıq Universitetində Azərbaycan dili tədris edilir. Məşğələləri aparan dilçi alimimiz, filologiya üzrə fəlsəfə doktoru Mətanət Xudiyeva bugünlərdə Özbəkistan Milli Televiziyasının qonağı olub.**

Soydaşımızın müsahib olduğu proqramda Azərbaycan və Özbəkistanın dostluq əlaqələri, Azərbaycanın milli adət-ənənələri, mədəniyyəti, mətbəxi və eləcə də ölkənin ali məktəbində Azərbaycan dilinin tədrisindən danışılıb. Azərbaycanlı alim 44 günlük Vətən müharibəsi dövründə qardaş Özbəkistanın dövlətimizin və xalqımızın daim yanında olduğunu xüsusi vurğulayıb.

Verilişdə Azərbaycan və özbək musiqiləri səslənib, AMM-nin "Azərbaycan" rəqs qrupunun ifaları təqdim edilib, azərbaycanlı aşpazın məharəti sərgilənib.

*Qulu KAZIMOV,*
*XQ-nin Türküstan müxbiri*


## Ləğvetmə prosesində olan "Bakı Tikinti Konstruksiyaları" ASC səhmdarlarının nəzərinə!

3 dekabr 2024-cü il, saat 10.30-da "Bakı Tikinti Konstruksiyaları" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin ləğv edilməsi nəticəsində qalıq əmlakının və pul vəsaitinin səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq olunması.

**2.** Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.

**3.** Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin I-V-günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu– 050-247-50-12.

Ünvan– Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül zonası, 507-ci küçə, 2096-cı məhəllə.

*Ləğvetmə komissiyası*

***✓ 2008- ci ildə "ASP" Məhdud Məsuliyyətli Müəssisə tərəfindən Salayev İslam Həsənağa oğlunun adına verilmiş Bakı şəhəri, Zərdabi küçəsi 3166-cı məhəllədə yerləşən 19 mərtəbəli yaşayış binasının 8-ci blokunun 6-cı mənzilinin alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

Ağcabədi rayonundan Rafil Hüseynov Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayevə əzizi

**RUSLAN ƏMRAHOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2485
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00